E-ISSN: 2674-5224, DOI: 10.36962/PAHTEI

PROCEEDINGS

OF AZERBAIJAN HIGH TECHNICAL EDUCATIONAL INSTITUTIONS

AZƏRBAYCAN ALİ TEXNİKİ MƏKTƏBLƏRİNİN XƏBƏRLƏRİ

MULTIDISCIPLINARY JOURNAL
REFEREED & REVIEWED JOURNAL

VOLUME 32 ISSUE 09 2023 CİLD 32 BURAXILIŞ 09 2023



https://bsj.fisdd.org/index.php/pahtei

The beautiful thing about learning is nobody can take it away from you—B. B. King

E-ISSN: 2674-5224, DOI: 10.36962/PAHTEI

PROCEEDINGS

OF AZERBAIJAN HIGH TECHNICAL EDUCATIONAL INSTITUTIONS

AZƏRBAYCAN ALİ TEXNİKİ MƏKTƏBLƏRİNİN XƏBƏRLƏRİ

MULTIDISCIPLINARY JOURNAL
REFEREED & REVIEWED JOURNAL

VOLUME 32 ISSUE 09 2023 **CİLD 32 BURAXILIŞ 09 2023**

JOURNAL INDEXING

CROSSREF

EUROPUB IMPACT FACTOR 2022 – 0.71

EESTI, TALLINN 2023

ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL

E-ISSN: 2674-5224

VOLUME 32 ISSUE 09 2023

©Publisher: Azerbaijan State Oil and Industry University. I/C 1400196861 (Azerbaijan).
Rector: Mustafa Babanli. Doctor of Technical Sciences. Professor.
Registered address: 20, Azadlig pr., Baku, Azerbaijan, AZ1010.
©Editorial office: 20, Azadlig pr., Baku, Azerbaijan, AZ1010.
©Typography: Azerbaijan State Oil and Industry University İ/C 1400196861 (Azerbaijan).
Registered address: 20, Azadlig pr., Baku, Azerbaijan, AZ 1010.

©Nəşriyyat: Azərbaycan Dövlət Neft və Sənaye Universiteti. VÖEN 1400196861 (Azərbaycan).
Rektor: Mustafa Babanlı. Texnika Elmləri Doktoru. Professor.
Qeydiyyat ünvanı: Azadliq prospekti, 20. Bakı Azərbaycan, AZ1010.
©Redaksiya: Azadliq prospekti, 20. Bakı Azərbaycan, AZ1010.
©Mətbəə: Azərbaycan Dövlət Neft və Sənaye Universiteti VÖEN 1400196861 (Azərbaycan).
Qeydiyyat Ünvanı: Azadliq prospekti, 20. Bakı Azərbaycan, AZ1010.

©Publisher: ICRET. MTÜ (Estonia, Tallinn), R/C 80550594.
Director and Founder: Seyfulla İsayev (Azerbaijan).
Deputy and Founder: Namig Isazade. PhD in Business Administration. (Azerbaijan).
©Editorial office / Redaksiya: Harju maakond, Tallinn, Kesklinna linnaosa, Narva mnt 5, 10117
Telephones / Telefonlar: +994 55 241 70 12; +994 51 864 88 94
Website/Veb səhifə: https://bsj.fisdd.org/; https://scia.website/
E-mail: sc.mediagroup2017@gmail.com

©Nəşriyyat: MTÜ Beynəlxalq Tədqiqat, Təhsil & Təlim Mərkəzi. Q/N 80550594.
Direktor və Təsisçi: Seyfulla İsayev (Azərbaycan).
Direktorun müavini və Təsisçi: Namiq Isazadə. PhD. Biznesin İdarə Olunması. (Azərbaycan).

E-ISSN: 2674-5224; DOI: 10.36962 / PAHTEI; UDC: 62 (051) (0.034)
PROCEEDINGS OF AZERBAIJAN HIGH TECHNICAL EDUCATIONAL INSTITUTIONS

Accepted for publication in this edition 05.06.2023

E-ISSN: 2674-5224

VOLUME 32 ISSUE 09 2023

ISSN: 1609-1620; E-ISSN: 2674-5224

PAHTEI

REFERRED & REVIEWED JOURNAL

TABLE OF CONTENTS

Niyazi İsmayılov, Ağamehdi Muxtarzadə
TIKINTI SAHƏSI ÜZRƏ FƏALIYYƏT GÖSTƏRƏN MÜƏSSISƏLƏRIN GƏLIR VƏ XƏRCLƏRININ UÇOTUNUN TƏŞKILI VƏ TƏKMILLƏŞDIRILMƏSI ISTIQAMƏTLƏRININ MÜƏYYƏNLƏŞDIRILMƏSI 05-13
Azər Qasımlı, Natiq Həmidov
SANGAÇAL-DUVANNI-XƏRƏ-ZIRƏ YATAQLARINDA YENI NEFT QUYULARININ QAZILMASI ILƏ HASILATIN ARTIRILMASININ ARAŞDIRILMASI ……………...…. 14-21
Ənvər Salahov, İnqilab Bədəlov
İCTIMAI SEKTORUN MÜƏSSISƏ VƏ TƏŞKILATLARINDA AMORTIZASIYA AYIRMALARI UÇOTUNUN INKIŞAF ISTIQAMƏTLƏRI 22-33
Ahmad Asimov, Samir Alakbarli, Mammad Mammadzada
MANAGEMENT WITH FUZZY LOGIC OF ELECTRICAL ENERGY OBTAINED FROM SOLAR PANELS AND APPLICATION IN SMART HOME SYSTEMS …………………. 34-48
Qələndər Məmmədli, Əli Cəfərli
KORONAVIRUS (COVID-19) PANDEMIYASI DÖVRÜNDƏ KOB SUBYEKTLƏRININ RƏQƏMSAL MARKETINQ FƏALIYYƏTLƏRININ TƏHLILI ………………………….. 49-66
Elşən Hacıyev, Pərviz Abdullayev
KIÇIK TURBOREAKTIV MÜHƏRRIKIN YANACAQ SISTEMININ LAYIHƏLƏNDIRILMƏSI 67-74
Фаиг Гаджиев
АЛГОРИТМЫ ИССЛЕДОВАНИЯ ПРОСТРАНСТВА ПРИЗНАКОВ ……............…… 75-86
Irada Farzaliyeva, Zumrud Qurbanova, Sabina Bayramova
INVESTIGATION OF APPLICATION OF BIOMELIORANTS WITH MAGNESIUM ON THE BASIS OF LOCAL NATURAL AND MAN-MADE RAW MATERIALS TO ECOLOGICALLY DISTURBED SOILS …………………………………………….…. 87-94
Elşən Manafov, Yaqublu Tofiq, Fərid Hüseynov
ELEKTRİK ŞƏBƏKƏLƏRİNİN SƏMƏRƏLİLİYİNİN MÜASİR ÜSULLARLA ARTIRILMASININ MODELLƏŞDİRİLMƏSİ 95-108
Rəsul Balayev, Tamella İsrafilova
AZƏRBAYCANDA INNOVASIYA FƏALIYYƏTININ MÖVCUD DURUMU VƏ MILLI İNNOVASIYA SISTEMLƏRININ ƏHƏMIYYƏTI 109-121
Könül Əliyeva
BİTKİDƏ VƏ SUDA KOBALTIN EKSTRAKSİYALI-SPEKTROFOTOMETRİK TƏYİNİ ……………………………………………………………………......……… 122-130
Nahid Müfidzadə, Murad Hüseynov
NORMAL REJIMDƏ IŞLƏYƏN EVX-NIN QISA QAPANMA ZAMANI AÇILMASINDA VƏ ATQ ILƏ TƏKRAR QOŞULMASINDA YARANAN GƏRGINLIK ARTIMLARININ TƏYINI 131-140
Namig Abidov, Vagif Abbasov
RESEARCH OF AIMING SYSTEMS FOR MILITARY OBJECTS …………..……..…. 141-149

ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL
E-ISSN: 2674-5224
VOLUME 32 ISSUE 09 2023

Orxan Əzizov, Vaqif Bağıyev
SEOLIT KATALIZATORLARININ ÜZƏRINDƏ ETILENIN ÇEVRILMƏSI PROSESININ TƏDQIQI 150-157
Qamət Hüseynov, Hüseyn Əlizadə
QOŞA QIZIL-KOLÇEDAN YATAĞININ FİLİZİNİN QIZILLILIĞI 158-164
Tahir Suleymanov, Suleyman Efendi, Orhan Jahangirov
DEVELOPMENT OF THE OPTIMUM CONSTRUCTIVE OPTION TO REDUCE ENERGY LOSSES IN SUCKER ROD PUMPS 165-170
Vahid Mustafayev, Nəzmiyyə Əsgərov
ANBAR LOGİSTİKASININ SƏMƏRƏLİYİNİN ARTIRILMASI YOLLARI 171-180
Elxan Cəfərov, Araz Pənahlı
QEYRİ-MADDİ AKTİVLƏR ADLI 38 №-Lİ MÜHASİBAT UÇOTUNUN BEYNƏLXALQ STANDARTININ TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ 181-188
Elxan Cəfərov, Samir Babayev
“BORCLAR ÜZRƏ MƏSRƏFLƏR” ADLI 23 NÖMRƏLİ MÜHASİBAT UÇOTUNUN BEYNƏLXALQ STANDARTLARI 189-198
Sariyya Huseynzade, Hokuma Bafadarova, Tunzala Ibrahimova, Salıma Mammadova
THE POSSIBILITY OF USING SILICATE-CONTAINING WASTE IN THE PRODUCTION OF BUILDING MATERIALS 199-205
Sayyara Alamova, Hokuma Bafadarova, Tunzala Ibrahimova, Mahıra Alıyeva
STUDYING THE POSSIBILITIES OF USING IRON ORE WASTE İN THE PRODUCTION OF CERAMIC PRODUCTS 206-214
Şahin İsmayılov, Eldar Qarayev
ELEKTROFOREZ ƏSASINDA ƏLVERIŞLI NEFT HASILATI ÜSULU 215-222
Vasif Əliyev, Elmir Kərimov
ELEKTRON TİCARƏT ƏNƏNƏSİNİN FORMALAŞMASI VƏ YAYILMASININ MÜQAYİSƏLİ TƏHLİLİ: BAKI ŞƏHƏRİ VƏ REGİONLARIN NÜMUNƏSİNDƏ 223-229
Maya Kərimova, Elşən Fətəliyev
KEYFİYYƏTİN İDARƏ EDİLMƏSİNDƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ PROSESLƏRİ 230-237
Шарафат Мамедов, Гусейн Гурбанов, Мехпара Адыгезалова
КВАЗИБИНАРНЫЙ РАЗРЕЗ $PB_6SB_2BI_6SE_{18}$-PBSE 238-248

DETERMINATION OF DIRECTIONS FOR ORGANIZATION AND IMPROVEMENT OF ACCOUNTING OF INCOME AND EXPENSES OF ENTERPRISES OPERATING IN THE FIELD OF CONSTRUCTION

Niyazi İsmayılov[1], Agamehdi Mukhtarzade[2]
[1,2] Azerbaijan State University of Economics, [1,2] Department of Accounting and Auditing Science,
[1] Professor, Candidate of economic sciences, niyazi_ismayilov63@mail.ru
[2] Master student, muxtarzade.2018@mail.ru

ABSTRACT

In this article, the implementation of accounting for income and expense elements of local enterprises operating in the construction field, identifying and eliminating existing problems in the field of their accounting, and determining the directions for improving the accounting methodology are brought to the fore.Determining directions for improving the accounting of income and expense elements of domestic and foreign companies specializing and operating in the construction field and discovering new practices in the relevant field will have positive effects on the accounting system in terms of general theoretical and practical development. As a result of mastering the international practices of accounting in the relevant field, it will have beneficial effects for the application of new rules and the implementation of changes, stemming from the necessary experiences on the accounting of income and expense elements of organizations operating in the field of construction in our country and its improvement directions.
Accounting of income and expense elements is considered one of the most important factors that ensure the development of the accounting system in the construction field. The process of organizing and improving accounting in this field will create conditions for the long-term efficient operation of enterprises operating in this field, as well as creating certain effects on the accounting system. In addition to improving the accounting in this field, in order to adapt it to international standards, it is necessary to study certain problems and find a solution to them.
The steps taken in the direction of the investigation of international practices and the obtained results and practices can lead to additions or changes to the accounting rules of various enterprises that will operate on the construction site to be assisted in the future. Also, as a result, it is considered necessary to implement some important changes in the organization of the accounting system on the construction site.The application of modern methods in the accounting of income and expense elements of enterprises in the field of construction is of great importance in modern times. Establishing close relations with many western countries in the economic field, expanding trade operations, is one of the main requirements of the modern era for development. For this reason, the methodology for recording income and expenses should be adapted to international standards as well as serving the market economy.
In order to fundamentally achieve certain goals in this field and to develop this field from a practical and theoretical point of view, based on the accounting system implemented in western countries, based on the methods of recording income and expense elements, or with the purpose of improving the general accounting system, fundamental experiments should be used.
Keywords: construction, income, expense, accounting, enterprise.

ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL
E-ISSN: 2674-5224
VOLUME 32 ISSUE 09 2023

TIKINTI SAHƏSI ÜZRƏ FƏALIYYƏT GÖSTƏRƏN MÜƏSSISƏLƏRIN GƏLIR VƏ XƏRCLƏRININ UÇOTUNUN TƏŞKILI VƏ TƏKMILLƏŞDIRILMƏSI ISTIQAMƏTLƏRININ MÜƏYYƏNLƏŞDIRILMƏSI

Niyazi İsmayılov[1], Ağamehdi Muxtarzadə [2]
[1,2] Azərbaycan Dövlət İqtisad Universiteti, [1,2] "Mühasibat uçotu və audit" kafedrası
[1]Professor, iqtisad elmlər namizədi, niyazi_ismayilov63@mail.ru
[2] Magistr tələbəsi, muxtarzade.2018@mail.ru

XÜLASƏ

Bu məqalədə tikinti sahəsi üzrə fəaliyyət göstərən yerli müəssisələrin gəlir və xərc elementləri üzrə uçotunun həyata keçirilməsi, onların uçotu sahəsində mövcud problemləri aşkarlamaq və aradan qaldırmaq və uçot metodikasının təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi məsələlərini ön plana çəkilmişdir.
Tikinti sahəsi üzrə ixtisaslaşan və faəliyyət göstərən yerli və xarici şirkətlərin gəlir və xərc elementlərinin uçotunu təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi və müvafiq sahə üzrə yeni təcrübələrin aşkarlanması mühasibat uçotu sisteminə ümumi nəzəri və praktiki inkişaf baxımından müsbət təsirlər bağışlayacaqdır. Mühasibat uçotunun müvafiq sahə üzrə beynəlxalq təcrübələrinin mənimsənilməsi nəticəsində ölkəmizdə tikinti sahəsində fəaliyyət göstərən təşkilatların gəlir və xərc elementlərinin uçotu və onun təkmilləşdirilməsi istiqamətləri üzrə lazımi təcrübələrdən qaynaqlanaraq, yeni qaydaların tədbiqi və dəyişikliklərin həyata keçirilməsi üçün faydalı təsirlər bağışlayacaqdır.
Açar sözlər: tikinti, gəlir, xərc, uçot, müəssisə.

Giriş

Nəzərə alsaq ki, bazar münasibətlərinin inkişaf etdiyi dövrdə yerli ixtisaslaşmış tikinti təşkilatlarında və yaxud digər sahələr üzrə ixtisaslaşmış təşkilatlarda iqtisadi münasibətlərlə bağlı yeni formalar meydana gəlmişdir. Nəticə etibarilə yaranmış yeniliklər mövcud uçot sisteminin daha dərindən araşdırılması üçün yeni imkanlar açmış olur. Bu imkanlar müxtəlif sahələr üzrə ixtisaslaşmış təşkilatların mövcud hədəflərinin gələcək plan tapşırıqlarının həyata keçirilməsi əvəzinə iqtisadi fəaliyyət nəticəsində əldə edilmiş gəlirlərin maksimallaşdırılması üçün yeni priorited hədəflərin meydana çıxmasına şərait yaratmışdır. Bundan əlavə gəlirlərin əldə edilməsi ilə yaranan xərclərin minimallaşdırılması və optimallaşdırılması da ön plana çəkilmişdir.
Təcrübələrə əsaslanaraq deyə bilərik ki, müasir dövrdə rəqabət amilinin gücləndiyi bir dövrdə təşkilatlar üçün operativ uçot məlumatlarına tələb yarnır ki, bu tələb təşkilatların müəyyən idarəetmə qərarlarının həyata keçirilməsinin çətinliklərindən qaynaqlanır. Yəni yeni operativ uçot qaydalarının tədbiq edilməsi idarəetmə qəaralarının qəbul edilməsi ilə bağlı yeni imkanlar açmış olur. Əks halda təşkilatlar onların iqtisadi fəaliyyətləri ilə bağlı uçot məlumatları ilə kifayət qədər təmin olunmadıqda təşkilat daxilində qərarlarla bağlı subyektivliyə yol verilir. Belə halda təşkilatların daha strateji və operativ şəkildə idarə olunması üçün gəlir və xərclərin təkmilləşdirilmiş uçot sisteminin tədbiqi vacib hesab olunur.
Bazar münasibətlərinin inkişaf etdiyi dövrdə mühasibat uçotu sahəsi üzrə təcrübəli iqtisadçıların fikirlərinə görə mühasibat uçotunda əks etdirilmiş verilənlər müxtəlif səviyyəli menecerlər üçün

informasiya tələbatını ödəmir. Və bundan əlavə mühasibat hesabatındakı əks etdirilən verilənlər təşkilat daxilində müvafiq qərarların qəbul edilməsi və yaxud zamanında tədbiq olunmalı və həyata keçirilməli olan operativ təhlil üçün kifayət etmir. Nəticə etibarilə təşkilatlarda əldə edilən gəlirlərin və bunların fonunda yaranan xərclərin formalaşması sistemini kifayət qədər əsaslandırmaq mümkün olmur. Bu səbəbdən təşkilatlarda əldə edilmiş gəlirlərin və yaranmış xərclərin uçotunun tədqiq edilməsi və onun təkmilləşdirilməsi müasir dövr üçün xüsusi aktuallıq kəsb edir. Yəni nəzərdə tutulan tədqiqatlar mövcud dövrdə bütün təsərrüfat subyektlərinin iqtisadi fəaliyyətlərinin müasir şərtlərinə uyğun şəkildə həyata keçirilməlidir. Təşkilatlarda səmərəli idarəetmə qərarlarının qəbul edilməsi və ixtisaslaşmış sahələr üzrə məhsul istehsalı səmərəliliyinin artırılmasında gəlir və xərclərin uçotunun təşkili üzrə əlverişli sisteminin formalaşması vacib hesab olunur. Növbəti illərdə ölkəmizdə yerli təşkilatlar üçün, xüsusilə tikinti təşkilatları üçün onların gəlir və xərclərinin uçotunun inkişaf istiqamətlərini müəyyənləşdirəcək əsas təsirlər ölkədə bazar münasibətlərinin dərinləşməsi və bu sahə üzrə qanunların dəqiqləşdirilməsi ilə bağlı olacaqdır.
Yeni yaradılacaq bu vəziyyət tikinti sahəsi üzrə fəaliyyət göstərən bütün təşkilatlar üçün onların gəlir və xərclərinin uçotunun aparılması və təkmilləşdirilməsi istiqamətində təşkilati-metodiki əsasların hərtərəfli tədqiqinə dair praktiki cəhətdən mövcud tələbatın olmasına əsas verir. Nəticədə həyata keçirilən tədbirlər sistemi, təşkilatların idarə olunması üzrə mühasibat uçotu rolunun ön plana keçməsinə, onların cari fəaliyyəti ilə bağlı olan istənilən informasiyaların təqdim olunmasına, gələcəkdə yeni strategiyaların formalaşmasına, istehsal üçün mövcud lazımi ehtiyatlardan qənaətlə yəni səmərəli şəkildə istifadə olunmasına və təşkilatların ümumi iqtisadi fəaliyyəti ilə bağlı səmərəliliyin yüksəlməsinə şərait yaradacaqdır.

Məqsəd

Problemin aktuallığı və əlaqəli tədqiqatlar. Bu işin məqsədi tikinti sahəsi üzrə fəaliyyət göstərən təşkilatların gəlir və xərclərinə dair uçotun mövcud problemlərinin aradan qaldırılması yollarını müəyyənləşdirmək və yaranan mövcud problemlərin yaranma səbəblərini taparaq mövcud problemlərin həlli istiqamətində görüləcək tədbirləri müəyyənləşdirməkdən ibarətdir.

Metodlar

İnnovasiya və rəqabətqabilliliyin əlaqəsi. Tikinti sahəsi üzrə ixtisaslaşan və fəaliyyət göstərən təşkilatların gəlir və xərc elementləri üzrə uçotunu səmərəli şəkildə təşkil etmək tikini təşkilatlarının hal-hazırki və gələcək dövrlərinin inkişafı üçün əsas amillərdən biri hesab olunur. Tikinti təşkilatlarında gəlir və xərc elementlərinin uçotunu təkmilləşdirmək onların iqtisadi fəaliyyət baxımından fasiləsizliyinə zəmin yaratmaqla bərabər uzunmüddət ərzində səmərəli şəkildə fəaliyyətinə kömək etmiş olur.
İlkin olaraq qeyd olunan nailiyyətlərə çatmaq və paralel olaraq müvafiq sahədə gəlir və xərc elementlərinin uçotunun təkmilləşdirilməsi üçün ölkədə gəlir və xərc elementlərinin uçotunu beynəlxalq standartlara uyğunlaşdırmaqdır ki, bu da mövcud və gələcək dövrün əsas hədəflərindən biri hesab olunur.Mövcud dövrdə ölkəmizdə həyata keçirilən bütün təsərrüfat əməliyyatlarının dünyada əsaslandırılmış beynəlxalq standartların tələblərinə uyğun olaraq və elmi xarakterik baxımından tam əsaslandırılmış şəkildə həyata keçirilməsi vacib hesab olur. Nəticə etibarilə bütün tikinti təşkilatlarında gəlir və xərc elementlərinin uçotuna dair dünyada əsaslandırılmış beynəlxalq standartlara uyğunlaşdırılması üçün praktiki şəkildə və yaxud nəzəri formada təkliflərin hazırlanması vacib hesab olunur.Əsaslı olaraq bu sahədə əsas hədəflərə

çatmaq üçün və bu sahənin praktiki və nəzəri baxımlndan inkişaf etdirilməsi üçün bir çox qərb ölkələrində həyata keçirilən uçot sisteminə əsaslanaraq gəlir və xərc elementlərinin hansı metodlarla uçota alınması və yaxud ümumi uçot sistemini təkmilləşdirmək məqsədilə həyata keçirilən əsaslı təcrübələrindən istifadə olunmalıdır.
Bundan əlavə olaraq Beynəlxalq Maliyyə Hesabatı Standartları, "Mühasibat Uçotu haqqında" Azərbaycan Respublikasının qanunu, və digər mənbələr əsasında informasiyalardan istifadə tikinti sahəsi üzrə fəaliyyət göstərən yerli təşkilatların gəlir və xərclərin uçotunun təşkili və onun təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək üçün kömək olacaq.

Tikinti sahəsi üzrə fəaliyyət göstərən müəssisələrin gəlir və xərclərinin uçotunun müasir vəziyyətinə dair nəzəri əsaslar. Tikinti sahəsi üzrə fəaliyyət göstərən təşkilatlar arasında hüquqi baxımından vacib məsələləri tənzimləyən əsas vacib sənəd tikinti müqaviləsi hesab olunur ki, bu müqavilə hər hansı bir obyektin inşası, onun layihələndirilməsi və həmçinin istifadə və yaxud müxtəlif istiqamətli təyinatı baxımından qarşılıqlı şəkildə mövcud olan müxtəlif obyektlərin tikinti prosesi üçün sifarişçi tərəf və podratçı tərəf arasındakı bağlanmış müqavilə hesab olunur ki, nəzərdə tutulan müqavilələr əsasən seçilmiş aktivin tikilməsi, sökülmüş vəziyyətə salınması və yaxud da yenidən bərpa edilməsi və həmçinin həyata keçirilən söküntü işlərindən sonra müvafiq aktivin ətraf ərazilərinin bərpası ilə əlaqəli olur.
Tikinti müqavilələri əsasən aşağıdakı mövcud şərtləri yerinə yetirən zaman uçot sistemində əks etdirilməlidir:

- Müqavilə üzrə iştirak edən tərəflər müqaviləni təsdiq edərsə və təsdiq olunan müqavilə öhdəliklərini yerinə yetirməyə razılaşdıqda;
- Təslim ediləcək mallar və yaxud xidmətlərlə bağlı müəssisə hər bir tərəfin hüququnu müəyyən edərsə;
- Təslim ediləcək mallar və yaxud xidmətlərlə bağlı müəssisə ödəniş şərtlərini müəyyən edərsə;
- Bağlanmış müqavilə əgər kommersiya xarakterli olarsa;
- Müştəriyə təqdim olunacaq hər hansı bir malların və xidmətlərin müqabilində müəssiəyə pul vəsaitlərinin daxil olması əgər ehtimal olunarsa [1].


Müqavilə sayəsində müəssisənin əldə etmiş olacağı gəlir məbləği əksər hallarda alınacaq məbləğin ədalətli dəyəri kimi sayılır. Lakin bunu da nəzərə almaq lazımdır ki, müqavilə əsasında əldə olunacaq gəlir gələcəkdə baş verəcək hadisələrlə bağlı olaraq yarana biləcək bir sıra qeyri-müəyyənliklər aradan qalxdıqca bir çox hallarda qiymətləndirmə prosesinin yenidən baxılmasına ehtiyac duyulur. Buna səbəb müqavilə əsasında icra olunmalı işlərin görüldüyü zaman müqavilə əsasında müəyyən edilən hər hansı bir işlərin dəyərində artma və yaxud azalma müşahidə oluna bilinməsidir. Buna görə də əldə olunacaq gəlirlərin məbləği cari hesabat dövründən fərqli olaraq digər dövrə keçdikdə arta və yaxud azala bilər.
Tikinti müqaviləsi həm müəssisənin ayrı ayrı aktivlərinin, həm də onların öz layihəsi, funksiyası və texnologiyası, hətta təyinatı və yaxud istifadəsinə görə bir-birilə sıx bağlı və yaxud da bir birindən asılı hesab edilən müəyyən növ aktivlərin inşa olunması məqsədi ilə bağlanıla bilər [8].
Bundan əlavə olaraq qeyd edə bilərik ki, həyata keçirilən bütün işlərin normalarına uyğun olaraq tikinti müqavilələrində sifarişçi təşkilatla podratçı təşkilat arasında həvəsləndirici ödənişlər də mümkün olur. Həvəsləndirici ödənişlər əksər hallarda işlərin həyata keçirilməsi zamanı nəzərdə tutulmuş müvafiq normalar var ki, həmin normalara əməl olunduqda və ya həmin işlər

artıqlamasıyla yerinə yetirildiyi zaman podratçıya ödənmiş əlavə məbləğlərdir. Həvəsləndirici ödənişlər əsasən aşağıdakı qeyd olunanlara görə müqavilə əsasında gəlirlərə daxil edilir:

- Müqaviləyə uyğun olaraq görülməsi nəzərdə tutulan işlərin əksər hissəsinin bitməsi nəticəsində sifarişçi tərəfin görülmüş işlərə aid nəzərdə tutulan müvafiq normalara riayət olunacağına və ya görüləcək işlərin artıqlamasıyla yerinə yetiriləcəyi gözlənildikdə;
- Həvəsləndirici məqsəd üçün ödəniləcək ödənişlərin dəyərinin əsaslı səviyyədə qiymətləndirilməsi mümkün olduqda.

Bağlanmış tikinti müqavilələri əsasən tikinti müəssiələrində həyata keçiriləcək mühasibat uçotunun daha dəqiq həyata keçirilməsini tələb edir. Nəzərdən qaçırmayaq ki, hər bir müəssisənin fəaliyyət istiqamətindən asılı olmayaraq məqsədi mənfəət əldə etməkdir. Çünki mənfəətin əldə edilməsi özünü maliyyələşdirmə imkanını verir ki, bu da fəaliyyətin effektivliyini qiymətləndirmək üçün ilkin və vacib meyardan biri sayılır. Nəticə etibarilə hər birimiz bilirik ki, gəlir və xərc elementləri mənfəətə təsir edən və hətta deyə bilərik ki, mənfəəti formalaşdıran başlıca amillər hesab olunur. Bu səbəbdən gəlir və xərclərə dair uçotun təkmilləşdirilməsi və tənzimlənməsi mühasibat uçotu və vergi qanunvericiliyinin ən vacib elementlərindən biri hesab olunur. Və bunun əsasında da əsas vacib addım müəssisənin gəlir və xərc elementlərinin uçotunun təkmilləşdirilməsinə ehtiyac yaranır. Çünki tikinti müqaviləsinin bağlanmasına uyğun olaraq həyata keçirilən müvafiq işlərin başlandığı və yaxud da bitəcəyi tarix müəssisənin müxtəlif hesabat dövrlərində baş vermiş olur.

Mühasibat uçotunun gəlirlə bağlı standartlarına uyğun olaraq gəlir elementi aşağıdakı 4 vacib kateqoriyadan ibarətdir:



Şəkil 1. Gəlirlər.

Əsas əməliyyat fəaliyyəti gəlirləri hesablar planına uyğun olaraq aşağıdakılardan ibarətdir:

- 600.1 №-li Məhsul və əmtəə satışı;
- 600.2 №-li Həyata keçirilmiş xidmətlər üzrə gəlirlər;
- 601.3 №-li Tikinti müqavilələri üzrə gəlirlər;
- 601.4 №-li Royalti gəlirləri;
- 601.5 №-li Əməliyyat icarəsi üzrə gəlirlər;
- 601-6 №-li Digər əməliyyat gəlirləri [2]

ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL
E-ISSN: 2674-5224
VOLUME 32 ISSUE 09 2023

Əlavə olaraq qeyd edə bilərik ki sair əməliyyat gəlirlərinin uçotunun həyata keçirilməsi üçün Hesablar Planının 611 №-li "Sair əməliyyat gəlirləri" adlı sintetik hesabda qeyd olunur. Bu hesabın yazılışı aşağıdakı kimidir.

- 611.1 №-li Avadanlıq, torpaq və s. uzunmüddətli aktivlərin satışı nəticəsində gəlirlər;
- 611.1 №-li Yenidən qiymətləndirmə nəticəsində gəlirlər;
- 611.1 №-li Qarşılıqsız alınmış aktivlər;
- 611.1 №-li Cərimələr və digər buna oxşar ödənişlər;
- 611.1 №-li Əvvəlki illərin hesablanmış gəlirləri;
- 611.1 №-li Ümidsiz debitor borcların bərpası;
- 611.1 №-li Balansdan silinmiş ehtiyatın bərpası;
- 611.1 №-li Məzənnə fərqi üzrə gəlirlər [3].

Tikinti sahəsi üzrə fəaliyyət göstərən müəssiələrdə yaranan xərclər əsasən fərdi elementlərdən ibarətdir. Bu elementlərə xammal, yanacaq, materiallar, əmək haqqı, elektrik, sosial sığorta haqları, əsas vəsaitlərin amortizasiyası və s. daxildir. Bu elementlər yaranma səbəbindən və ifadəsinin istiqamətindən asılı olmayaraq müəssisənin istehsal və iqtisadi fəaliyyətinə sərf edilir [4].

Müəssisədə xərclərin uçotu obyektləri, xərclərin bölüşdürülməsi, işin, xidmətin məhsulun maya dəyərinə dair göstəricilərin müəyyənləşidirlməsi metodları istehsalın növündən, istehsal prosesində xərc obyektlərinin yaranmasından və digər amillərdən asılı olaraq müəyyənləşir. Bundan əlavə istehsal məsrəflərinin uçotunun təşkil edilməsinin ümumi prinsipləri mövcuddur ki, bunlara xərclərin, istehsalatların, kalkulyasiya obyektlərinin və xərc obyektlərinin müxtəlifliyinə baxmayaraq riayət edilməsi vacibdir [5].

Yeni Hesablar planında xərclər onların funksional təsnifatı üzrə verilmişdir. Bu təyinat uçotun daha da təkmilləşdirilməsi üçün vacib əhəmiyyət kəsb edir. Bunu aşağıdakı formada da göstərmək olar: [7]

- Xərclər (İstehsal xrcləri və qeyri-istehsal xərcləri)
- İstehsal (İstehsal ehtiyatları)
- Qeyri-istehsal (İnzibati xərclər və satış (kommersiya xərcləri)

Tikiti sahəsi üzrə fəaliyyət göstərən müəssisələrin gəlir və xərclərinin uçotunun təkmilləşdirilməsi istiqamətləri. Mühasibat uçotu sisteminin düzgün şəkildə təşkilinin ən önəmli şərtlərindən biri də müəssisənin iqtisadi fəaliyyəti nəticəsində baş verən hər hansı bir təsərrüfat əməliyyatlarının əməliyyata müvafiq olan sənədlə rəsmiyyətə qeyd olunmasıdır ki, müəssisədə baş heç bir əməliyyat ona uyğun sənədlə təsdiq edilməmişdən öncə mühasibat uçotu sistemində tanına bilməsi mümkün deyil. Qısaca olaraq konkret şəkildə qeyd edə bilərik ki, nümayiş edilən hər hansı bir əməliyyat sənədlər mövcud olmadan mühasibat uçotu sistemində əks etdirilə bilməz. Yalnız təsdiq edici sənədin mövcudluğu şəraitində baş verən hər bir təsərrüfat əməliyyatı rəsmiyyətə salına bilər.

Bildiyimiz kimi bütün təsərrüfat subyektlərində təsərrüfat əməliyyatlarını həyata keçirmək üçün təsdiq edilməli olan bütün sərəncamlar sənədlər vastəsilə rəsmiləşdirilir. Bu səbəbdən təsərrüfat əməliyyatlarının idarə edilməsi üçün və nəzərdə tutulan əməliyyatlara rəhbərlikdə sənədlərdən istifadə olunur. Buna misal olaraq dey bilərik ki, kassaya pul vəsaitinin daxil edilməsi üçün kassa mədaxil orderinin yazılması və yaxud hazır məshulların anbardan çıxarılması zamanı hesab fakturanın yazılıb hazırlanması ilə rəsmiyyətə salınmış olur.

ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL

Eynən tikinti sahəsi üzrə fəaliyyət göstərən müəssiələrdə də həyata keçirilən təsərrüfat əməliyyatlarının rəsmiləşdirilməsi üçün müvafiq olaraq forma və məzmuna uyğun fərqli sənədlərin hazırlanması vacib hesab olunur və həmçinin həmin sənədlərin düzgün tərtib olunması üçün oxşar sənəd qrupları üzrə təsnifləşdirmək zəruridir. Mühasibat sənədlərinin məzmunda müəyyən fərqlərin olmasından asılı olmayaraq hər birində müəyyyən sayda rekvizitlər mövcud olmalıdır. Nəzərdə tutulan rekvizitlər aşağıdakılardan ibarətdir:

- Adı (bura kassa məxaric orderi, layihə-smeta və digərləri aid edilir);
- Hazırlanma tarixinin qeydi;
- Baş vermiş müvafiq əməliyyatlarla bağlı məzmun və onların əsası;
- Say və həmçinin qiymət şəklində mövcud əməliyyatların ölçüsü;
- Təsərrüfat əməliyyatlarının baş verməsi ilə əlaqədar və həmçinin baş vermiş əməliyyatların düzgünlüyünə cavabdeh olan məsul şəxslərin imzası.

Tikinti sahəsi üzrə fəaliyyət göstərən müəssisələrdə də təsərrüfat fəaliyyəti nəticəsində müxtəlif əməliyyatlar yerinə yetirilir ki, bunun üçün vacib olan ilkin məlumatlar üçün tikinti müəssisəsinin uçot sənədlərindən istifadə olunur və onunla da rəsmiləşdirmə həyata keçirilmiş olur. Burada qeyd etdiyimiz uçot sənədlərinin obyektlərinə istehsal prosesi, təchizat və satış prosesləri ilə yanaşı digər hesablaşma prosesləri də aid edilir.

Tikinti müəssisələrdində tikinti aparılan bütün dövr ərzində smeta əsas sənəd sayılır. Smetaya əsasən tikintinin maliyyələşdirilməsi prosesi, kapital qoyuluşları və podrat və sifarişçilərlər arasında hesablaşmalar həyata keçirilmiş olur. Smeta qiymətlərinə və həmçinin onun normalarına əsasən qiymətləndirilmiş xərclər və müstəqim məsrəflər də smeta maya dəyərinə daxil edilmiş olur. Smeta sənədləşməsi əsasən kompleks sənədləri bütünləşdirir ki, bu da onların göstəricilərinə müvafiq olaraq iş növlərinin və məsrəflərin dəyərini ifadə etmiş olur [3].

Tikinti sahəsi üzrə fəaliyyət göstərən müəssisələrin gəlir və xərc elementlərinin uçotunu tanınma anına nəzərən sənədləşdirilmə prosesini təmin etmək üçün ilkin olaraq onun uçot sistemini sistemləşdirmək vacib hesab olunur. Və bu səbəbdən də müəssisədə müvafiq şöbələrin yaradılması zəruri hal hesab olunur. Əvvəlcə təsərrüfat əməliyyatları ilə bağlı sənədləri tərtib etmək üçün ilk öncə tikinti şöbələrinin yaradılması lazımlıdır.

Tikinti müəssiələri üçün tikinti işlərini rəsmi qaydada sənədləşdirmək müasir dövrün tələblərinə cavab verən proqram təminatlarından istifadə etmək məqsədəuyğundur. Hal-hazırda ölkəmizdə 1C, Logo, CAP və s. kimi bir çox mühasibat proqramlarından istifadə olunmaqdadır. Yəni sadalanan müasir dövrün proqram təminatları mövcud dövrdə mühasibat uçotu əməliyyatlarını sistemli şəkildə qurmaq üçün məqsədəuyğun hesab olunur. Ölkəmizdə uçotun düzgün və səmərəli şəkildə tərtib olunması üçün sadalanan mühasibat uçotu proqramlarından düzgün istifadə etmək və gələcəkdə onları daha da təkmilləşdirmək lazımdır. Müəssisə xərclərinin təsnifləşdirilməsi qaydaları və elementlərinin qərb ölkələrinin uçotu ilə bizim uçot təcrübəsi arasında çox oxşar və fərqli cəhətləri vardır. Belə ki, müstəqim və qeyri-müstəqim istehsal məsrəfləri terminləri hal-hazırda hər iki uçot təcrübəsində istifadə edilir və belə xərclərin hazır məhsulun maya dəyərinə daxil olunması prinsipləri demək olar ki eynidir. Lakin qeyd etmək lazımdır ki, inzibati və ümumistehsalat xərclərinin məhsulun maya dəyərinə daxil edilməsi, və yaxud başqa sözlə desək bölüşdürülməsi üsulları bizim uçot təcrübəsində də çox mürəkkəb şəkildə tərtib olunub. Belə xərclərin bölüşdürülməsi üsulları yaxşı olardı ki, beynəlxalq təcrübədə istifadə edilən metodika vasitəsilə bölüşdürülsün. Yəni bu tip xərclərin bizim təcrübədə də sadə hesablama bazasına görə normativ əmsalları hesablansın və həmin normativlərin, onlar əsasında kənarlaşmaların maya

dəyərinə daxil edilməsi mexanizmi qərb təcrübəsinə əsasən uyğunlaşdırılması məqsədəuyğun hesab edilir [4].

Müasir dövrdə bir çox inkişaf etmiş ölkələrdəki kimi, indiki şəraitə uyğun olaraq sabit xərclər ölkəmizin istehsal və kommersiya təşkilatlarında olan həcmi getdikcə daha da artmaqdadır. Buna görə də səbəbdən ölkəmizdə fəaliyyət göstərən bütün müəssisələrdə idarəetmə qərarlarının qəbulunda belə xərclər mütləq şəkildə nəzərə alınmalıdır. Bu səbəbdən "direkt-kostinq" sisteminin və həmçinin bu sistemin elementlərinin tətbiqi hal-hazırda ölkəmiz üçün zəruri hala çevrilmişdir. Adı çəkilən sistemin tətbiqi nəticəsində xərclərin bizim uçot təcrübəmizdə praktik olaraq sabit və dəyişən xərclər kimi təsnifləşdirilməsini və qruplaşdırılmasını tələb edir.

Nəticə

Tikinti sahəsi üzrə fəaliyyət göstərən müəssisələr üçün gəlir və xərclərin uçotunun təkmilləşdirilməsi prosesi mövcud dövrdə aktual hesab olunur. Bununla bağlı aşağıdakı nəticələrə diqqət yetirək:

- Bazar iqtisadiyyatının inkişaf etdiyi dövrdə tikinti sahəsi üzrə fəaliyyət göstərən müəssisələrdə innovativ yeniliklərin yaradılması və həmçinin müəyyən rəqabət meyarlarının yaradılması bu sahənin öyrənilməsində vacib hal hesab olunur;
- Tikinti sahəsi üzrə fəaliyyət göstərən müəssisələrin gəlir və xərclərinin uçotunun təkmilləşdirilməsi üçün, ümumilikdə uçot sistemini təkmilləşdirmək üçün yeni proqram təminatlarının tədbiq edilməsi və yaxud, tikinti sahəsinin özünə xas olan yeni proram təminatının yaradılması zəruri hal hesab olunur;
- Tikinti sahəsində fəaliyyət göstərən müəssisələrin gəlir və xərclərinin uçotuna dair müasir metodikanın tətbiqi hal-hazırki dövrdə mühüm əhəmiyyət kəsb edir. Xarici ölkələrlə iqtisadi sahələrdə münasibətlərin artırılması, idxal və ixrac əməliyyatları üzrə təcrübələrin genişləndirilməsi ən vacib tələblərdən hesab olunur. Bu səbəbdən gəlir və xərc elementlərinin uçotu və ümumi desək mühasibat uçotu beynəlxalq standartlara uyğunlaşdırılaraq tədbiq olunmalıdır;
- Gəlir və xərclər arasındakı uçotunu təkmilləşdirmək məqsədilə bir sıra iqtisadi islahatlar həyata keçirilməlidir. Və bundan əlavə olaraq tikinti sahəsi üzrə fəaliyyət göstərən müəssisələrin inkişafını təmin etmək üçün bu sahə üzrə mövcud vergi yükünün azaldılması və həmçinin bu sahə üzrə özəlləşdirmələrinin sayının artırılması zəruri hal hesab olunur;
- Tikinti sahəsi üzrə fəaliyyət göstərən müəssisələrədə gəlir və xərclərin uçotunun təhlili göstəriciləri yalnız müəssisənin hesabat dövründə fəlaiyyəti ilə bağlı müvafiq nəticləri qiymətləndirmir. Həmçinin qeyd edə bilərik ki, tikinit müəssisələrinin gələcək fəaliyyətlərini də proqnozlaşdırmış olur. Bu proqnozlaşdırılmış göstəricilər investorlar üçün çox maraqlıdır.

ƏDƏBİYYAT

1. "Mushterilerle muqavileler uzre gelirler" adlı 15 №-li Maliyye Hesabatlarının Beynelxalq Standartı.- Bakı, 2007.
2. "Gelir" adlı 18 №li Muhasibat Ucotunun Beynelxalq Standartı.- 2016, 7 seh.
3. İ.M. Abbasov, İ.A. Memmedov, A.S. Cabbarov, Muhasibat uçotu (saheler uzre).- "Biznes Universiteti" neshriyyatı, Bakı, 2017, 428 seh.

4. E.A. Sadıqov, Ş.E. Ceferova, T.E. Sadıqov, C.E. Sadıqov., Muhasibat ucotu, "İqtisad Universiteti".- Bakı, 2015, 686 seh.
5. S.M. Sebzeliyev., İdarəetmə ucotu.- Bakı, 2014, "Elm və tehsil", 524 seh.
6. H.A.Ceferli., "İqtisadi tehlil" dair derslik.- Bakı, 2009, 559 seh.
7. R. Fetullayev, Beynelxalq muhasibatlıga girish.- Bakı, 2015, "Nurlan", 344 seh.
8. "Tikinti muqavileleri uzre" kommersiya teshkilatları ucun 16 №-li Milli Muhasibat ucotu standartı.- Bakı, 2007.

ОПРЕДЕЛЕНИЕ НАПРАВЛЕНИЙ ПО ОРГАНИЗАЦИИ И СОВЕРШЕНСТВОВАНИЮ УЧЕТА ДОХОДОВ И РАСХОДОВ ПРЕДПРИЯТИЙ, РАБОТАЮЩИХ В СФЕРЕ СТРОИТЕЛЬСТВА

Ниязи Исмаилов[1], Агамехди Мухтарзаде[2]
[1,2] Азербайджанский Государственный Экономический Университет,
[1,2] Кафедра Бухгалтерский Учет и Аудит,
[1]Профессор, кандидат экономических наук, niyazi_ismayilov63@mail.ru
[2]Магистрант, muxtarzade.2018@mail.ru

РЕЗЮМЕ

В данной статье на первый план вынесено осуществление учета элементов доходов и расходов предприятий, работающих в сфере строительства, выявление и устранение существующих проблем в области их учета, определение направлений совершенствования методологии учета.
Определение направлений совершенствования учета элементов доходов и расходов отечественных и зарубежных компаний, специализирующихся в области строительства, и выявление новых практик в соответствующей области окажут положительное влияние на систему бухгалтерского учета с точки зрения общетеоретического и практического развития. В результате освоения международной практики ведения бухгалтерского учета в соответствующей области будет иметь положительный эффект для применения новых правил и внесения изменений, вытекающих из необходимого опыта по учету элементов доходов и расходов организаций, работающих в области строительства в нашей стране и направления ее совершенствования.
Ключевые слова: строительство, приходит, расходы, бухгалтерский учет, предприятие.

Publication history

Article received: 08.05.2023
Article accepted: 22.05.2023
Article published online: 05.06.2023
DOI suffix: 10.36962/PAHTEI32092023-05

ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL

E-ISSN: 2674-5224

VOLUME 32 ISSUE 09 2023

14-21

RESEARCH ON INCREASING PRODUCTION BY DRILLING NEW OIL WELLS IN THE SANGACHAL-DUVANNI-KHARA-ZIRA FIELDS

Azer Gasimli[1], Natig Hamidov[2]
[1,2]Azerbaijan State Oil and Industry University, [1,2] Department of Oil and Gas Engineering,
[1]Master, ather.gasimli@gmail.com
[2] Candidate of Technical Sciences, Associate Professor, natiq.hamidov@socar.az

ABSTRACT

With the aim of intensifying oil production and increasing the oil yield coefficient, various methods of influencing the formation and bottom zone are used. The application of methods of increasing oil production leads to an increase in productivity in oil wells. This is carried out by certain methods by restoring reservoir energy or by changing the physico-chemical properties of oil. If the oil yield coefficient is 20-40% as a result of the first impact and second impact methods, it can reach 30-60% during the third impact method.

In the field of intensification of oil production, numerous scientific-research works have been carried out, various technologies have been developed to increase the oil yield of layers. The analysis of the conducted studies shows that it is possible to divide the technologies of increasing the efficiency of the development into two parts. The first of these involves the application of the method to the layer as a whole, while in the second, the area subjected to processing is limited to the well bottom zone. For this reason, it is appropriate to divide the methods of oil production intensification into two classes as methods of influencing the formation and the bottom of the well. Therefore, the analysis of research works in the field of production intensification is carried out from this point of view below.

The creation of liquid in the gas phase accounts for both the hydrostatic pressure and the pressure used for losses in the processes mentioned. As a result, there is some error in the bottomhole pressure calculation. Therefore, it is a grave error to treat two-phase flow as one-phase flow.

The primary indicators used in hydrodynamic reports are wellhead parameters. Riser pipe pressure distribution and well bottom pressure are calculated using the provided parameters. As is common knowledge, the liquid flow frequently causes a blockage in a particular area of the lifter. In the aforementioned fountain well, it causes frictional loss. In light of what has been discussed, it can be concluded that research into the hydromechanics of two-phase systems is a critical matter for this.

The mentioned issue is also reflected in the indicator curves. Thus, the presence of liquid (formation water) at the bottom of the well or in the body of the well shows itself as an urgent issue in the operation process. This in turn creates many difficulties and causes the process to go wrong.

This view from David Ayton, head of technology at bp group, firmly places the NVE (enhancement of oil recovery coefficient) technology in the spotlight with expectations of implementation. bp produces more oil than any other international oil company (IOC) - more than 10% of the world's total oil production - with IPO technology.

How much oil can be extracted from a field (its rate of return) depends on four factors multiplied together. The thresholds with the most potential for growth are:
Pore-scale compression (displacement of oil with water or gas); and Containment (how effectively the fluid injected from the shock well spreads and how effectively it displaces the oil in the rocks between the shock and production wells.)
Thus, these are the areas where the main attention is concentrated for the development of NVAE technology of the company bp.
Keywords: new oil wells, oil production, production increase, Sangachal-Duvanni-Khara-Zira.

SANGAÇAL-DUVANNI-XƏRƏ-ZIRƏ YATAQLARINDA YENI NEFT QUYULARININ QAZILMASI ILƏ HASILATIN ARTIRILMASININ ARAŞDIRILMASI

Azər Qasımlı[1], Natiq Həmidov[2]
[1,2]Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, [1,2]Neft-qaz mühəndisliyi kafedrası,
[1]Magistr, ather.gasimli@gmail.com
[2] Texnika elmləri namizədi, dosent, natiq.hamidov@socar.az

XÜLASƏ

Neft hasilatının intensivləşdirilməsi və neftvermə əmsalını artırmaq məqsədi ilə laya və quyudibi zonaya müxtəlif təsir üsullardan istifadə olunur. Neftvermənin artırılması üsullarının tətbiqi neft quyularında məhsuldarlığın artmasına səbəb olur. Bu da müəyyən üsullarla lay enerjisinin bərpası və ya neftin fiziki-kimyəvi xüsusiyyətlərinin dəyişdirilməsi yolu ilə həyata kecirilir. İlkin təsir, ikinci təsir üsulları nəticəsində neftvermə əmsalı 20-40% olursa, üçüncü təsir üsulu zamanı 30-60%-ə çata bilir.
Neft hasilatının intensivləşdirilməsi sahəsində çoxsaylı elmi-tədqiqat işləri aparılmış, layların neftverimini artırmaq üçün müxtəlif texnologiyalar işlənib hazırlanmışdır.Aparılan tədqiqatların analizi göstərir ki, işlənmənin səmərəliliyinin artırılması texnologiyalarını iki qismə ayırmaq mümkündür. Bunlardan birinciləri üsulun laya bütövlükdə tətbiqini nəzərdə tutursa, ikincilərində isə işlənməyə məruz qalan sahə quyudibi zonası ilə məhdudlaşır. Bu səbəbdən neft hasilatının intensivləşdirilməsi üsullarının laya və quyudibinə təsir üsulları olaraq iki sinfə bölünməsi məqasədəuyğundur. Buna görə də hasilatın intensivləşdirilməsi sahəsində olan tədqiqat işlərinin təhlili aşağıda bu baxımdan aparılır.
Son zamanlar yeni texnologiyaların yaranmasına baxmayaraq, işlənmiş yataqlarda yeni quyuların qazılması və istismarının iqtisadi cəlbediciliyi mənfi xarakter alıb. Eyni zamanda, işlənmiş yataqların qazma dərəcəsi çox vaxt 60-80% təşkil edir. Məlum olduğu kimi, neft yataqlarının marjinal hissələri mürəkkəb, qeyri-müəyyən strukturu ilə xarakterizə olunur. Belə zonalarda ilkin geoloji əsasın təsdiq edilməməsi 30%-dən çox ola bilər. Sangaçal-Duvannı-Xərə-Zirə yataqlarının qazma dərəcəsini artırmaq və nəticədə ümumi səmərəli neftverməni artırmaq üsullarından istiadə olunur.
Açar sözlər: yeni neft quyuları, neft hasilatı, hasilatın artırılması, Sangaçal-Duvannı-Xərə-Zirə.

Giriş

Neft sənayesinin yuxarı seqmenti geoloji tədqiqatların yaradılması və torpaq hüquqlarının əldə edilməsini əhatə edən kəşfiyyat fəaliyyətlərini, quruda və dənizdə qazma işlərini əhatə edən hasilat fəaliyyətlərini ehtiva edir.

Neft hasilatı ən çox kapital tələb edən sahələrdən biridir: Bu, bahalı avadanlıq və yüksək ixtisaslı işçi qüvvəsi tələb edir. Şirkət neft və ya qazın harada yerləşdiyini müəyyən etdikdən sonra qazma planları başlayır. Bir çox neft şirkətləri ixtisaslaşdırılmış qazma firmaları ilə müqavilə bağlayır və işçi heyətinə və qazma qurğusunun gün tariflərinə görə ödəyir. Qazma dərinliyi, süxurun sərtliyi, hava şəraiti və sahənin məsafəsi qazma müddətinə təsir edə bilər. Ağıllı texnologiyalardan istifadə edərək məlumatların izlənilməsi real vaxt məlumatı və tendensiyaları təmin etməklə qazma səmərəliliyinə və quyu performansına kömək edə bilər. Hər bir qazma qurğusu eyni əsas komponentlərə malik olsa da, qazma üsulları neftin və ya qazın növündən və yerin geologiyasından asılı olaraq dəyişir.

Məqsəd

Qurudakı qazma qurğularında quyular ağır xam neft üçün hər quyu üçün yarım akrdan təbii qaz üçün 80 akr-a qədər bir sahədə qruplaşdırılır. Quyular qrupu neft və qazı kimyəvi və istilik prosesi vasitəsilə neft və qazın emal olunduğu hasilat və emal obyektinə göndərən karbon polad borularla birləşdirilir. Quruda hasilat şirkətləri bazar şərtlərinə cavab vermək üçün dəniz qazma qurğularından daha asan qazma qurğularını açıb söndürə bilirlər [5, s. 47]. Qeyd etmək vacibdir ki, neft və qaz quyularının qazılması yalnız bütün qaydalara və tələblərə ən ciddi şəkildə riayət olunmaqla həyata keçirilə bilər. Və bu heç də təəccüblü deyil, çünki olduqca təhlükəli və həssas bir materialla işləməlisən, onun çıxarılması hər halda səlahiyyətli bir yanaşma tələb edir. Və belələri ilə işləməyin bütün aspektlərini başa düşmək üçün ilk növbədə bu işin bütün əsaslarını və onun komponentlərini nəzərdən keçirmək lazımdır.

Beləliklə, bir quyu, insanın içərisinə girməyə ehtiyac olmadan yaradılan və silindrik formaya malik olan bir mədən işçisi adlanır - uzunluğu diametrindən dəfələrlə böyükdür. Quyunun başlanğıcı ağız, silindrik sütunun səthi gövdə və ya divar, obyektin dibi isə dibi adlanır.

Obyektin uzunluğu ağızdan aşağıya qədər ölçülür, dərinliyi isə oxun şaquli proyeksiyası ilə ölçülür. Belə bir obyektin ilkin diametri maksimumda 900 mm-dən çox deyil, son diametri nadir hallarda 165 mm-dən azdır - bu, neft və qaz quyularının qazılması adlanan prosesin spesifikliyi və onun xüsusiyyətləridir. Riskləri minimuma endirmək və qazmanın proqnozlaşdırıcı səmərəliliyini artırmaq üçün daimi geoloji və hidrodinamik modeldən, qazmadan əvvəl geoloji və hidrodinamik modelin yenilənməsindən istifadə olunur. Bu yaxınlarda məlumatların dəqiqləşdirilməsi nin statistik üsulları hazırlanmışdır ki, bu da yalnız nəzərdən keçirilən ərazidə quyunun uğurlu qazılması ehtimalını verir. Hər bir yanaşmanın öz üstünlükləri var və eyni zamanda bütün yanaşmalar bir-birini tamamlaya bilər. Məlumdur ki, neft və qaz hasilatı obyektləri modellərin bütöv bir iyerarxiyasından istifadəni tələb edir – diferensialdan inteqrala, deterministikdən adaptivliyə.

Metodlar

Sangaçal-Duvannı-Xərə-Zirə yataqlarında geoloji quruluşu dəqiqləşdirmək üçün bir neçə əlavə istiqamətləndirici quyu qazılmışdır ki, onların da geoloji-fiziki parametrləri nəzərdə tutulduğundan aşağı olmuşdur. Sahənin işlənmə ssenarisi olmadığından yatağın geoloji strukturunun pisləşməsi ilə qazma işləri dayandırılmışdır. Ərazidə ilk quyuların qazılması nəticəsində geoloji əsasda xeyli irəliləyiş əldə olunmuşdur. Layihəyə uyğun olaraq növbəti qazma işləri aparılıb və anbarın işlənməsi təsdiqlənmişdir [2, s. 43].

Qazma işlərinə başlamazdan əvvəl layihələndirilmiş quyu fondunun optimallaşdırılması zərurəti onunla bağlıdır ki, quyu ehtiyatı yalnız deterministik modellərdən istifadə etməklə neft yataqlarının işlənməsi üçün layihə və texnoloji sənədlərdə yerləşdirilir. Layihənin həssaslığının təhlili aparılarkən proqnozlaşdırılan neft hasilatı göstəricilərinin təsdiq edilməməsi riski məcmu əsasda qiymətləndirilir, ayrıca quyu yatağının qazılması riski isə nəzərə alınmır. Əslində, neft şirkətləri quyu yataqlarında yeni quyuların qazılmasının səmərəliliyini nəzərə alır və yeni quyunun planlaşdırılan debisində geoloji modelin təsdiq edilməməsi ilə bağlı bütün riskləri nəzərə alır, bu da qazmağı çox vaxt aşkar səmərəsiz edir.

Konkret quyu yataqlarının qazılmasını planlaşdırarkən alternativ modellərin tətbiqi zərurəti ilkin (başlanğıc) geoloji modellərdə təqdim ediləndən daha mürəkkəb geologiya ilə əlaqədardır, burada interpolyasiya üsulları ilə quyulararası boşluq proqnozlaşdırılır. Əslində neft layları yüksək təbii heterojenliyi ilə xarakterizə olunur. Belə ki, quyuların şəbəkəsindən bir qədər aralıda yerləşən qonşu quyular üçün geoloji və fiziki xüsusiyyətləri (litologiya, doyma, keçiricilik) əhəmiyyətli dəyişikliklərə məruz qalır və nəticədə məhsuldarlıq əmsalı geniş şəkildə dəyişə bilər [3, s. 12].

İşlənmiş yatağın artıq qazılmış sahələrində qazma işlərinin planlaşdırılmasına yaxınlaşaraq, geoloji modelə ən çox təsir edən aşağıdakı parametrləri müəyyən etmək mümkündür:

- strukturun mövqeyi,
- neft-su kontaktının vəziyyəti,
- neftlə doyma,
- kanal yataqlarının olması və ya olmaması.

Seçilmiş xüsusiyyətlərin dəyişkənliyi geoloji və hidrodinamik modellərin müxtəlif variantlarını qurmaq üçün yeni qazma sahələrində istifadə edilə bilər. Bu cür tədqiqatlar əsasında geoloji risklərə davamlı yataqların ayrı-ayrı bölmələrinin işlənməsi strategiyasının formalaşdırılmasına yanaşma formalaşmışdır [2, s. 20].

MQ çöküntüləri kəsilişinin V horizontundan yuxarıda yatan lay suları əsasən yüksək minerallaşmış (170 mq.ekv./100q və daha çox) XK tipli cod sulardan ibarət olub, dərinlik artdıqca minerallaşmanın azalması qeyd olunur. Bu istiqamətdə suların kimyəvi tərkibində qələvi torpaq metallarının artması, ümumi qələviliyin və sulfatlılığın çoxalması, $\frac{rNa}{rCl}$ >1 əmsalının artması bu suların hidrokarbonat - natrium tipinə keçməsini göstərir.

Mənimsənilmə və istismar prosesində sulaşmanın xarakterinə görə quyuların qruplara ayrılması 4.2 Ne - li cədvəldə verilmişdir.

Lay sularının V horizontdan axımı 48 quyudan alınmışdır. Suyun hasilatı 10 — 250 m3/gün arasında dəyişmişdir. Çox quyularda ilk istismar zamanı onların verdikləri məhsullarda sular qeydə alınmışdır. Səngəçal sahəsindən CŞ istiqamətinə tərəf, horizontun kəsilişində yeni qum dəstəsinin aşkar olması ilə əlaqədar olaraq, quyularda hasilatı və lay suları basqısının artması qeyd olunur.

Lay sularının minerallaşma diapazonu 41,08 - 76,10 mq.ekv. Cəmi 32,2 mq ekviv natrium və kalium ionları mövcuddur. Kalsium ionu 0,16 ilə 26,39 mq ekvivalent arasında dəyişir. 4,65 mq ekviv. həmin ion 274 nömrəli quyudadır. 16,63–34,9 mq ekv. xlor və 0,16-2,1 mq ekv. kontan. 303 nömrəli quyuda tələb olunan element 5,51 mq ekvivalent maksimum konsentrasiyaya çatmışdır ki, bu da 2,79 mq. ekvivalentdir. sulfat və 1,06 mq.ekv. suda naften turşusu. V horizontun laylı suları Palmer xarakteristikasına uyğun olaraq birinci (Si) və ikinci (Se) duzluluqlarına malikdir. Enerji tərkibi 2,32 - 8,76% təşkil edir. 27 saylı quyuda bu faiz 13,62% təşkil edir. V horizontun suları qarışıq — XK və SN tiplidirlər. Bunlar Sı S2A və SıAa siniflərin yaradırlar. Bu sular HKN tipli sulara keçid təşkil edirlər.

193 quyudan götürülmüş 3257 nümunə əsasında VII horizontun lay sularının hidrogeoloji və hidrokimyəvi xüsusiyyətləri öyrənilmişdir.

Qeyd edək ki, SDXZ ada yatağının V və VII horizontları lay təzyiqlərini sabit saxlamaq üçün müvafiq olaraq 1978 və 1971-ci illərdə inyeksiyaların qəbuluna başlayıb. Bu baxımdan, bu horizontların çöküntülərində hidrogeoloji və hidrokimyəvi şəraiti dəqiq müəyyən etmək üçün süni effektə qədərki dövrlərdə sınaqdan keçirilmiş və suvarılan quyuların analizlərindən bünövrə kimi istifadə edilmişdir.

Konturun arxasındakı bir neçə quyuda (52, 63, 343, 553 və s.) sutkalıq su çıxışı 160 m3 olmuşdur. çarpayının tağında bu üfüqün udulması zamanı, o cümlədən 28, 193, 205, 228, 358 və s. Quyularda gündəlik orta hesabla 58 m3 su hasil edilir. Bu quyular 1 nömrəli qəzanın yaxınlığında yerləşir. Quyulardan gələn su tez-tez aşağı sıxlıqlı və çox qələvi olduğundan, obyekt suyunu bölmənin aşağı stratiqrafik intervallarından alırdı.

VII horizontun hidrokimyəvi məlumatlarına görə yüksək qələviliyə və aşağı sıxlığa malik olan tektonik sular və müəyyən minerallaşmaya malik konturlararası sular hər ikisi sahədə mövcuddur. Bu horizontun lay mayelərinin minerallaşması ümumilikdə 46,98-87,76 mq arasında dəyişir. Ekviv. 12,13-dən 49,63 mq-a qədər xlor ekvivalenti mövcuddur və ümumi qələviliyin 0,22-6,54 mq ekvivalenti var. Ekvivalent vaxt ərzində dəyişir. Kalsium və maqnezium ionları üçün dalğalanma diapazonu müvafiq olaraq 0,08-1,40 və 0,01-0,95 mq.ekv təşkil edir.

B.A. Sulin, VII horizontun anbar suları qarışıqdır (HKN və SN), natrium bikarbonat tipli və SiAa sinfinə aiddir. Bu sulardakı ionlar aşağıdakı tipik nisbətlərə malikdir: anionlar üçün Cl > HCO3 > SO4: kationlar üçün Na+ K > Ca > Mq.

VII horizontun rezervuar sularında mövcud olan hidrokarbonat və karbonat ionları kifayət qədər çoxdur və orada yalnız iz miqdarda həll olunmuş üzvi turşular və qələvi torpaq metal duzları var. Yatağın qanad sahəsi ilə müqayisədə orada minerallaşma daha az olur. Trans-kontur zonasının minerallaşmanın artması və suyun qələviliyinin azalması CS-yə meyli regional planda qeyd olunur.

28 quyu VII horizontdan lay sularının axmasını təmin etmişdir. Yoxlama zamanı 95, 96, 548 və 691 saylı quyulardan təmiz lay suyu çəkilib. Quyular yuxarıda qeyd olunan VII horizontdan fərqli şəkildə su hasil edir. Burada quyuların su çıxışı arabir dəyişərək 300 m3/günə çatır.

Bu qurğudan müxtəlif quyulara (29, 201, 567 və 714) baxış keçirilərkən lay suları ilə birlikdə qaz da aşkar edilmişdir. Quyuların qaz hasilatı 50 000 m3 (201, 714 nömrəli quyu) ilə 230 və 250 min m3 arasında dəyişir (müvafiq olaraq 567 və 29 nömrəli quyular). Çıxarma prosesi zamanı bir neçə quyuya (87, 88, 89, 97, 343, 525, 529, 537 və 561) su vurulmuşdur. VIII üfüqün konturunun altındakı zona ilk dəfə 548, 571 və 722 nömrəli quyular tərəfindən istifadəyə verilmişdir.

Tədqiq olunan horizontun sulu təbəqələri strukturun arxa kontur zonasında (29, 95, 96), tektonik pozulmalara yaxın (201, 649) və qövs hissəsində (29, 95, 96) yerləşən quyulardan toplanmışdır.

Quyuların istismar və materialları belə nəticəyə gəlməyə əsas verir ki, VIII horizontun lay sularının təzyiqi yüksək, kollektorlarında kifayət qədər su, yüksək su çıxışı var.

VIII horizontun lay suları SiAa sinfi və xlorid qrupunun yarımqrupu olan HKN tiplidir. Bu horizontda lay sularında natrium və kaliumun miqdarı 39,39 mq ekviv, bu ionun minimal həddi isə 22,35 mq ekviv təşkil edir. kontan. Bu horizontda lay sularının ümumi minerallaşması 46,70-80,54 mq ekviv arasında dəyişir.

Maqnezium ionları 0,12-0,60 mq ekv, kalsium ionları isə 0,40 ilə 1,60 mq ekv arasında dəyişir. Xlor ionunun dəyişmə hədləri 19,88 ilə 33,59 mq ekvivalent arasında, sulfat ionunun hədləri isə 0,80 ilə 4,52 arasında dəyişir. İstismar prosesində VIII horizontun lay suları ilə bərabər, quyuların məhsullarında başqa mənşəli su tipinə də rast gəlinir. Bu qazkondensat yataqlarına xas olan kondensagen tipli sulardır. Bu tip sular həm 1982-ci il hesabatında (509, 522, 528, 529, 539 Ne-li) qeyd edilmiş və həm də sonradan təyin edilmiş (619,646,704 Ne-li) quyuların məhsullarından götürülmüş nümunələr əsasında öyrənilmişdir (cədvəl 6.4).

SDXZ ada yatağında 24 quyu QA açılıb. 12 quyuda (17, 88, 90, 95, 99, 521, 523, 525, 526, 543, 563 və 571) yoxlama işləri aparılıb. Yatağın 1, II, TV, V, VIII və XII bloklarına baxış keçirilib.

Sangaçal-Duvannı-Xərə-Zirə yataqlarında dəyişən modellərdə karbohidrogenlərin ehtiyatlarının və istehsalının dəyəri nəzərdən keçirilən parametrlərin xüsusi qiyməti ilə deyil, onların mümkün qiymətlərinin diapazonu ilə müəyyən edilir. Müvafiq olaraq həm ehtiyatların dəyəri, həm də istehsalın dəyəri dəyişə bilər. Dəyişən modellər giriş parametrlərinin qeyri-müəyyənliklərinin nəzərə alınmasına əsaslanaraq, mahiyyəti qazılmış ərazilərə xas olan əsas geoloji xüsusiyyətlərin qazılmamış ərazilərdə istifadə edilməsini təşkil edən faktla rüşvətləndirilməsi yolu ilə həyata keçirilir. Eyni zamanda qeyri-müəyyənliklərin hesablanması metodologiyasını seçərkən hər bir obyekt üçün fərdi yanaşma tələb olunur. Qazılmış sahədə seçilmiş geoloji xüsusiyyətlərin dəyişmə diapazonu qazılmamış sahələrə yayımlanır.

Neft yataqlarının işlənməsi üçün həddən artıq rəsmiləşdirilmiş texnoloji layihələndirmə sistemi böyük tənqidlərə səbəb olur. Texnoloji dizayn innovativ, yüksək keyfiyyətli ilkin məlumatlara əsaslanaraq tələb olunan həcmdə olmalıdır. Layihə sənədində yeni texnologiyaların tətbiqi nəzərdə tutulmalıdır. Texnoloji parametrləri proqnozlaşdırmaq üçün istifadə olunan yataqların geoloji və texnoloji modellərində məlumat çatışmazlığı ilə özbaşına fərziyyələr, əsassız analogiyalar, təxminlər qəbuledilməzdir. Modellər yatağın faktiki mədən və geoloji şəraitinə adekvat olmalıdır. Layihə-texnoloji sənədlərin zəif nöqtəsi hətta eyni regionda yer təkinin istifadəçiləri arasında fərqlənən xərc standartlarının qeyri-müəyyənliyi ilə əlaqədar işlənmə variantlarının iqtisadi əsaslandırılmasıdır. Qazaxıstanda bunun qarşısını almaq üçün layihə sənədlərinin iqtisadi ekspertizası təmin edilir. Proses dizayn sisteminin əhəmiyyətli çatışmazlıqlarından biri təsdiq edilmiş qərarların isteye bağlı olaraq həyata keçirilməsidir, çünki onların icrasına nəzarət yoxdur [4, s. 26].

Sangaçal-Duvannı-Xərə-Zirə yatağıda o cümlədən digər yeni qazılmış neft quyularının işlənməsinin səmərəliliyinin artırılması üzrə təkliflər aşağıdakılardır:

- İnnovativ texnologiyalardan istifadə etməklə neftin gücləndirilməsi üsullarının dövlət tərəfindən stimullaşdırılması və yüksək özlülüklü, şist kimi qeyri-ənənəvi ehtiyatların işlənməsi. Dövlət güzəştləri sahənin rentabelli işlənmə rejiminə keçməzdən əvvəl həyata keçirilməsinin ilkin mərhələsində vergi güzəştlərini nəzərdə tutmalıdır.

- İnnovativ texnologiyaların, çətin bərpa olunan, qeyri-ənənəvi ehtiyatların və onların kateqoriyalarının müəyyən edilməsi üçün qanuni olaraq aydın meyarlar müəyyən etmək lazımdır.
- Tələb olunan həcmdə etibarlı yüksək keyfiyyətli ilkin məlumatlara əsaslanan innovativ layihəyə çevrilməli olan yeni neft quyularının işlənməsinin texnoloji layihələndirilməsi sisteminin təkmilləşdirilməsi. Yataqların etibarlı geoloji və texnoloji modelləri əsasında yeni texnologiyaların sınaqdan keçirilməsini və həyata keçirilməsini təmin etməli olan layihə sənədlərinə tələbləri formalaşdırmaq lazımdır. Xərclərin həddən artıq qiymətləndirilməsinin qarşısını almaq üçün inkişaf variantlarının iqtisadi əsaslandırılması səviyyəsi sonrakı ekspertiza ilə artırılmalıdır.
- İnnovativ metodların sınaqdan keçirilməsinə xüsusi diqqət yetirilməlidir. Onların statusu qanunla tənzimlənməlidir.
- Quyuların işlənməsinin dövlət ekspertizası sisteminin tərkib hissəsi qanunla nəzərdə tutulmuş layihə göstəricilərinin işlənib hazırlanması və həyata keçirilməsinin monitorinqi olmalıdır [6, s. 10].

Nəticə

Fikrimizcə, qanunvericilik qaydasında layihə qərarlarının hazırlanması və icrasına nəzarəti təmin etmək lazımdır. Yalnız hasilat və qazma işlərinin dizayn səviyyələrini təmin etmək üçün deyil, həm də layihə sənədində nəzərdə tutulmuş bütün tədqiqatların aparılması üçün səy göstərmək lazımdır. Qanunvericilik qaydasında layihə həllərinin işlənib hazırlanması və həyata keçirilməsinin monitorinqini təmin etmək lazımdır. Yalnız hasilat və qazma işlərinin dizayn səviyyələrini təmin etmək üçün deyil, həm də layihə sənədində nəzərdə tutulmuş bütün tədqiqatların aparılması üçün səy göstərmək lazımdır. Qanunvericilik qaydasında layihə həllərinin işlənib hazırlanması və həyata keçirilməsinin monitorinqini təmin etmək lazımdır. Yalnız hasilat və qazma işlərinin dizayn səviyyələrini təmin etmək üçün deyil, həm də layihə sənədində nəzərdə tutulmuş bütün tədqiqatların aparılması üçün səy göstərmək lazımdır

ƏDƏBIYYAT

1. Development and exploitation of oil and gas fields.- Baku: Azernashr, 2020, /A.Kh. Mirzajanzadeh and others.
2. Theoretical bases of development and operation of oil and gas fields.
3. Development of oil fields.// textbook for universities.- M:, Nedra, 2016./ Yu.P. Zheltov
4. A.B. Suleymanov and others .Exploitation of offshore oil fields.- M:, Nedra 1986, 185 p.
5. Physics of oil formation. -Baku:, Maarif publishing house 2015, A.Kh. Mirzacanzade, Z.M. Ahmadov, R. Gurbanov
6. T.S. Salavatov, B.A. Osmanov . Increasing the productivity of wells.- Baku: ADNA, 2018

E-ISSN: 2674-5224
VOLUME 32 ISSUE 09 2023
ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL

ИССЛЕДОВАНИЯ ПО УВЕЛИЧЕНИЮ ДОБЫЧИ ЗА СЧЕТ БУРЕНИЯ НОВЫХ НЕФТЯНЫХ СКВАЖИН НА МЕСТОРОЖДЕНИЯХ САНГАЧАЛ-ДУВАННЫ-ХАРА-ЗИРА

Азер Гасымлы[1], Натиг Гамидов[2]
[1,2] Азербайджанский Государственный Университет Нефти и Промышленности,
[1,2] Кафедра Нефтегазового дела
[1] Степень магистра, ather.gasimli@gmail.com
[2] Кандидат технических наук, доцент, natiq.hamidov@socar.az

РЕЗЮМЕ

С целью интенсификации добычи нефти и повышения коэффициента нефтеотдачи применяют различные методы воздействия на пласт и призабойную зону. Применение методов повышения дебита нефти приводит к увеличению продуктивности нефтяных скважин. Это осуществляется определенными методами путем восстановления пластовой энергии или путем изменения физико-химических свойств нефти. Если при первом и втором способах воздействия коэффициент выхода нефти составляет 20-40 %, то при третьем способе воздействия он может достигать 30-60 %.
В области интенсификации добычи нефти проведены многочисленные научно-исследовательские работы, разработаны различные технологии повышения нефтеотдачи пластов.Анализ проведенных исследований показывает, что можно разделить технологии повышения нефтеотдачи эффективность разработки на две части. Первый из них предполагает применение метода к пласту в целом, тогда как во втором область, подвергаемая обработке, ограничивается призабойной зоной. По этой причине методы интенсификации добычи нефти целесообразно разделить на два класса как методы воздействия на пласт и забой скважины. Поэтому анализ исследовательских работ в области интенсификации производства проводится с этой точки зрения ниже.
Несмотря на появление в последнее время новых технологий, экономическая заманчивость бурения и эксплуатации новых скважин на разрабатываемых месторождениях стала отрицательной. При этом скорость бурения разрабатываемых залежей нередко составляет 60-80%. Применяются методы увеличения скорости бурения месторождений Сангачал-Дуванни-Хара-Зира и, как следствие, повышения общего эффективного дебита нефти.
Ключевые слова: новые нефтяные скважины, добыча нефти, прирост добычи, Сангачал-Дуванни-Хара-Зира.

Publication history

Article received: 08.05.2023
Article accepted: 22.05.2023
Article published online: 05.06.2023
DOI suffix: 10.36962/PAHTEI32092023-14

ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL
E-ISSN: 2674-5224
VOLUME 32 ISSUE 09 2023
22-33

IMPROVING ACCOUNTING OF DEPRECIATION IN PUBLIC SECTOR ENTERPRISES AND ORGANIZATIONS

Anvar Salahov [1], Ingilab Badalov[2]
[1,2] Azerbaijan State University of Economics, [1,2] Department of Economics and Technological Sciences,
[1] Docent, candidate of economic sciences, anver_salahov.58@mail.ru
[2] Master student, ibdlov@bk.ru

ABSTRACT

Strategic and correct use of tax cuts, increasing financial efficiency, protecting and renewing existing assets, and as a result, more profit and expansion of business activity are among the main priorities of the business owner. One of the ways to regulate such matters listed in accounting is with depreciation deductions. Depreciation describes the process of gradually depleting the value of a long-lived asset over its useful life. For example, long-term activities such as equipment, buildings, office equipment, patents or licensing systematically transfer their value to the goods, products or services to be created. This means that the asset moves from the balance sheet to the income (profit and loss) statement of the business. In other words, depreciation reflects the consumption of an asset over its useful life.
The essence of depreciation is not simply that the asset wears out materially. In this case, there would be no particular reason not to depreciate the assets. The enterprise (organization) gradually recovers the previous value of the depreciable object as a result of depreciation deductions. As a result, the restoration of this value has its effect on the sustainability of enterprise activity. Each enterprise buys a vehicle, technological equipment for processing, a building or a facility during its operation. Over time, those assets are put to use and begin to wear out. To update them, funds are needed. It is at this time that the main essence of depreciation emerges. Depreciation is the most natural way to protect assets and ensure the continuity of enterprise activity. The organization gradually recovers the previous value of depreciated assets as a result of depreciation deductions.
All long-term tangible and intangible assets are depreciated. Depreciation is the process of systematically allocating the cost of an asset over its useful life. Apart from land, assets recorded as fixed assets are subject to physical and mental wear and tear. They gradually lose their functionality and eventually become useless. This means that those fixed assets are no longer economically efficient for technical reasons and cannot perform their duties. The useful life of an asset is the period during which it benefits the enterprise (organization).
Incorrect calculation of depreciation deductions causes depreciation expenses to be misstated in the income statement and, as a result, the carrying amount of the asset to be misstated in the statement of financial position. Misrepresentation of numbers can reduce the quality of financial reports, deceive users of financial reports, damage the image of the enterprise (organization), and even lead to its departure from its own interests. An example of this can be the process of responding to bank loan applications. Banks evaluate the loan applications received by them and first of all look at the financial statements of the enterprise. If the figures in the financial status report are incorrectly reflected, banks can extend the term of those applications or turn them back, in other words, refuse to grant loans in cases where they can be approved.

In summary, depreciation deductions which are calculated more accurately and reflected in the accounting on time, can help organizations to objectively show the value of their assets, prepare more transparent and quality financial statements and determine the probability of financial risks that may occur. As a result, organizations can use their financial resources more efficiently and more accurately measure and reflect their costs in accounting.

Keywords: income statement, enterprise, organization, depreciation

İCTİMAİ SEKTORUN MÜƏSSİSƏ VƏ TƏŞKİLATLARINDA AMORTİZASİYA AYIRMALARI UÇOTUNUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Ənvər Salahov[1], İnqilab Bədəlov[2]
[1,2] Azərbaycan Dövlət İqtisad Universiteti, [1,2] "İqtisadiyyat və texnoloji elmlər" kafedrası
[1] Dosent, iqtisad elmləri namizədi, anver_salahov.58@mail.ru
[2] Magistr tələbəsi, ibdlov@bk.ru

XÜLASƏ

Amortizasiyanın mahiyyəti sadəcə olaraq aktivin maddi cəhətdən köhnəlməsindən ibarət deyil. Bu halda, aktivlərin amortizasiya edilməməsi üçün heç bir xüsusi səbəb olmayacaqdır. Müəssisə (təşkilat) amortizasiya ayırmaları nəticəsində amortizasiya obyektinin əvvəlki dəyərini tədricən bərpa edir. Nəticədə, bu dəyərin bərpası müəssisə fəaliyyətinin davamlılığına öz təsirini göstərir. Amortizasiya aktivləri qorumaq və müəssisə fəaliyyətinin davamlılığını təmin etmək üçün ən təbii üsuldur.

Amortizasiya ayırmalarının düzgün hesablanmaması amortizasiya xərclərinin mənfəət və zərər haqqında hesabatda təhrif edilməsinə və nəticədə maliyyə vəziyyəti haqqında hesabatda aktivin balans dəyərinin xətalı göstərilməsinə səbəb olur. Rəqəmlərin yanlış təqdim edilməsi maliyyə hesabatlarının keyfiyyətini aşağı sala, maliyyə hesabatlarının istifadəçilərini aldada, müəssisənin (təşkilatın) imicinə xələl gətirə, hətta onun öz maraqlarından uzaqlaşmasına səbəb ola bilər.

Açar sözlər: mənfəət və zərər haqqında hesabat, müəsisə, təşkilat, amortizasiya

Giriş

Vergi ayırmalarından strateji və düzgün istifadə, maliyyə səmərəliyinin artırılması, mövcud aktivlərin qorunması, yenilənməsi və nəticə olaraq daha çox mənfəət əldə edib müəssisə fəaliyyətinin genişlədilməsi kimi məsələlər müəssisə sahibinin əsas priotetlərindən biridir. Sadalanan həmin məsələləri mühasibat uçotunda tənzimləməyin bir yolu da amortizasiya ayırmalarıdır. Amortizasiya uzunmüddətli hər hansısa aktivin faydalı istismar müddəti ərzində onun dəyərinin tədricən xərclənməsi prosesini təsvir edir. Məsələn avadanlıqlar, binalar, ofis texnikası, patentlər və ya lisenziyalar kimi uzunmüddətli fəaliyyət nəticəsində öz dəyərini yaradılacaq əmtəə, məhsul və ya xidmətin üzərinə sistematik şəkildə ötürür. Bu o deməkdir ki, aktiv balans hesabatından müəssisənin mənfəət və ya zərər hesabatına keçir. Başqa sözlə, amortizasiya aktivin faydalı istifadə müddəti ərzində istehlakını əks etdirir.

ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL
E-ISSN: 2674-5224
VOLUME 32 ISSUE 09 2023

Məqsəd

Problemin aktuallığı. Aktivlərin təsnifatına yenidən nəzər yetirmək, amortizasiyasın iqtisadi mahiyyəti və metodlarını aydınlaşdırmaq və amortizasiya prosesinin düzgün aparılması məsələlərini tədqiq edərək ictimai sektorun müəssisə və təşkilatları üçün amortizasiya ayırmalarının uçotunun təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsidir.

Amortizasiya ayırmalarını düzgün şəkildə hesablanması və uçotda əks etdirilməsi maliyyə hesabatlarının daha doğru olmasına və şirkətin daha effektiv şəkildə idarə edilməsinə kömək edir. Müəssisələr gəlir və xərclərini daha dəqiq şəkildə qeydə ala bilirlər. Amortizasiya ayırmaları həm daxili həm xarici audit üçün vacib olan informasiyaları da özündə əks etdirir. Həmçinin amortizasiya ayırmaları müəssisənin maliyyə qaydalarına və qanunvericiliyə uyğunluğunu da təmin edir.

Qeyd olunanları nəzərə alaraq, İctimai sektorun müəssisə və təşkilatlarında amortizasiya ayırmalarının uçotunun təkmilləşdirilməsi məsələlərini aktual hesab etmək və bu istiqamətdə təklif və tövsiyələrin hazırlanmasını zəruri olduğunu söyləmək olar.

Metodlar

Aktivlərin təsnifatı. Aparılmış tədqiqat təhlil, sintez, müqayisə, ümumiləşdirmə, konkretləşdirmə metodları əsasında həyata keçirilmişdir. Tədqiqat işində ictimai sektor müəssisə və təşkilatları üçün amortizasiya ayırmalarının uçotunun inkişaf istiqamətləri araşdırılmışdır. Əldə edilən məlumatlar analiz edilmiş və tədqiqatın nəticələri yekunda cəmlənmişdir.

Bütün təşkilatların aktivləri vardır. Aktivlər müəssisə və ya təşkilatın keçmiş fəaliyyətləri nəticəsində yaranan, həmin müəssisə və ya təşkilat tərəfindən nəzarət olunan, son nəticə olaraq isə gələcəkdə hər hansısa iqtisadi səmərə gətirəcəyi ehtimal olunan iqtisadi varlıqlarıdır. Aktivlərin hökmən yaranma mənbəyi olmalıdır. Həmin mənbələr əsasən öhdəliklər və ya xüsusi kapital formasında olur. Aktivləri təsnifatına görə iki qrupa bölmək olar: **Qısamüddətli aktivlər** və **uzunmüddətli aktivlər**. Qısamüddətli aktivlərin bir digər adı cari aktivlər və ya dövriyyə vəsaitləridir. Cari aktivlər müəssisənin normal fəaliyyət dövründə xammal-material kimi istehsalda istifadə edəcəyi, satmağı və ya istehlak etməyi, ticarət üçün saxladığı, hesabat tarixindən sonra 12 ay ərzində reallaşdıracağını gözlədiyi hər hansı aktivlər, pul vəsaitləri və onun ekvivalentləri daxildir. Bütün digər aktivlər uzunmüddətli aktivlər kimi qeydə alınır (7).

Cari aktivlərə aiddir:

Pul vəsaitləri və onun ekvivalentləri - Bankdakı pul vəsaitləri, kassadakı pul vəsaitləri, pula tez çevrilə biləcək qiymətli kağızlar;

Ehtiyatlar - Xammal və material ehtiyyatları, ticarət üçün alınmış mallar, hazır məhsul;

Qısamüddətli debitor borclar - Əmtəə, mal və xidmət satışından daxil olacaq debitor borclar, icarə, faiz və s. mənbələrdən daxil olacaq debitor borclar;

Digər cari aktivlər - Təhtəlhesab şəxslərə verilmiş məbləğlər, aldığımız avans ödənişləri və s.

Uzunmüddətli aktivlər bir hesabat dövründə birdəfəlik pula çevrilmirlər. Onlar uzun müddət istifadə məqsədi ilə saxlanılır və istehsal prosesini həyata keçirirlər. Uzunmüddətli aktivlərə aiddir:

Əsas vəsaitlər - Bina, torpaq sahələri, avadanlıqlar, nəqliyyat vasitələri, bioloji aktivlər, təbii sərvətlər;

Qeyri-maddi aktivlər - Patentlər, lisenziyalar, know-how, qudvil, müəlliflik hüququ, proqram təminatları;

Maliyyə aktivləri - Digər müəssisələrin istiqraz və səhmlərinin alınması, onlara investisiya edilməsi yaxud borcların verilməsi;
Digər uzunmüddətli aktivlər - Uzunmüddətli alınmış avanslar uzunmüddətli debitor borcları gələcək dövrün xərcləri və s.
Aktivləri kateqoriyalarına görə daha iki qrupa bölmək olar: **Maddi aktivlər** və **qeyri-maddi aktivlər**. Maddi aktivlər fiziki formaya malik olan varlıqlardır. Onlara toxuna bilirik. Qeyri-maddi aktivlər isə qeyri-fiziki mülkiyyətdir. Onlara toxunmaq olmur. Qeyri-maddi aktivlərin fiziki formasının olmaması onların dəyərinin təyin edilməsində çətinliklər yarada bilir. Müəssisə və ya təşkilatlar ümumi aktivlərinin dəyərini maliyyə hesabatlarında əks etdirərək maliyyə hesabatlarının istifadəçilərinə müəssisənin toplam dəyəri haqda məlumatın yaranmasında kömək edir. Qeyri-maddi aktivlər də maddi aktivlər kimi həm müəssisənin toplam dəyərinin müəyyən edilməsində həm də onun fəaliyyətinin inkişafı üçün mühüm rol oynayır.
Qeyri-maddi aktivlər fiziki xarakter daşımayan aktivlərdir. Brendin tanınması və patentlər, ticarət nişanları, qudvil, know-how və müəllif hüquqları kimi əqli mülkiyyətlər qeyri-maddi aktivlərdir. Müəssisələr qeyri-maddi aktivlər yarada və ya əldə edə bilərlər. Məsələn, müəssisələr özləri patent yarada bilər. Qudvil isə qeyri-maddi aktiv olaraq balans hesabatında görünmür və uçota alınmış balans dəyəri yoxdur. Buna görə də, bir çox hallarda şirkət satın alındıqda, çox vaxt alış qiyməti balansdakı aktivlərin balans dəyərindən yuxarı olur.
Uzunmüddətli bütün maddi və qeyri-maddi aktivlər amortizasiya edilir. Amortizasiya aktivin faydalı istifadə müddəti ərzində dəyərinin sistematik bölüşdürülməsi prosesidir. Torpaqdan başqa, əsas vəsaitlərin tərkibində uçota alınan bütün aktivlər fiziki və mənəvi aşınmaya məruz qalır. Onlar tədricən özlərinin fəaliyyət göstərə bilmək funksiyalarını itirir və nəticədə yararsız hala düşürlər. Bu o deməkdir ki, həmin əsas vəsaitlər, texniki səbəblərə görə artıq iqtisadi cəhətdən əlverişsiz hala düşür və öz vəzifələrini yerinə yetirə bilmirlər. Aktivin faydalı istifadə müddəti onun müəssisəyə (təşkilata) fayda verdiyi müddətdir (4).

Aktivlərin amortizasiyası və iqtisadi mahiyyəti.
Aktivin faydalı istismar müddəti ərzində onun dəyərinin tədricən xərclənməsi prosesini təsvir edir. Bu o deməkdir ki, aktiv balans hesabatından mənfəət və ya zərər hesabatına keçir. Başqa sözlə, amortizasiya aktivin öz dəyərini hissə-hissə sistematik şəkildə yaradılacaq əmtəə məhsul və ya xidmətin üzərinə ötürməsi prosesidir. Amortizasiyanın əsas mahiyyəti aktivin sadəcə maddi olaraq köhnəlməsi demək deyildir. Bu halda aktivləri amortizasiya etməklə etməməyin hansısa xüsusi bir səbəbi olmazdı. Müəssisə (təşkilat) amortizasiya ayırmaları nəticəsində amortizasiya obyektinin əvvəlki dəyərini tədricən bərpa edir. Bu dəyərin bərpası isə nəticə olaraq müəssisə fəaliyyətinin davamlılığına və fasiləsizliyinə öz təsirini göstərir. Hər bir müəssisə fəaliyyət zamanı özünə nəqliyyat vasitəsi, emal üçün texnoloji avadanlıq, bina yaxud qurğu alır. Zaman keçdikcə həmin aktivlər istifadəyə verilir və köhnəlməyə başlayırlar. Onları yeniləmək üçün isə vəsaitə yəni pula ehtiyyac yaranır. Məhz elə bu vaxt amortizasiyanın başlıca mahiyyəti ortaya çıxır. Amortizasiya aktivləri qorumağın, müəssisə fəaliyyətinin davamlılığını və fasiləsizliyini təmin etməyin ən təbii üsuludur. Müəssisə amortizasiya ayırmaları nəticəsində amortizasiya obyektinin əvvəlki dəyərini tədricən bərpa edir. Sözü gedən proses bu cür baş verir:
• Müəssisə ilk öncə hər hansısa bir avadanlıq alır;
• Həmin avadanlığın ilkin dəyəri müəyyən edilir;
• İstehsal zamanı avadanlıqdan istifadə edilir və o öz dəyərini məhsulun üzərinə ötürməyə başlayır;

• Amortizasiya ayırmaları əmtəənin, məhsulun və ya xidmətin maya dəyərinə oturur yəni onun maya dəyərinin formalaşmasına təsir göstərən ünsürlərdən biri olur.
Daha sonra avadanlıq köhnələndə müəssisə onu ləğv etmə və yenisi ilə əvəz edə bilmə imkanına sahib olur. Müəssisə fəaliyyətinin davamlılığı və fasiləsizliyi amortizasiya prosesi üzərindən bu cür təmin olunur.
Amortizasiyanın səhv hesablanması mənfəət və zərər haqqında hesabatda amortizasiya xərclərinin səhv göstərilməsinə və nəticə olaraq maliyyə vəziyyəti haqqında hesabatda da aktivin balans dəyərinin xətalı göstərilməsinə səbəb olur. Rəqəmlərin yalnış əks olunması maliyyə hesabatlarının istifadəçilərini aldada, müəssisənin (təşkilatın) imicinə zərər toxundura hətta onun öz maraqlarından belə uzaqlaşmasına gətitib çıxara bilər. Buna bankların kredit müraciətlərinə cavab vermə prosesi misal ola bilər. Banklar onlara gələn kredit müraciətlərini qiymətləndirərək ilk növbədə müəssisənin maliyyə hesabatlarına baxırlar. Maliyyə vəziyyəti haqqında hesabatda rəqəmlər səhv əks etdirilərsə, banklar həmin müraciətlərin müddətini uzada və yaxud geri çevirə yəni təsdiq edə biləcəyi vəziyyətdə kredit verməkdən imtina edə bilərlər.

Amortizasiya növləri.

Mühasibat uçotu (maliyyə hesabatı) məqsədləri üçün şirkət altı amortizasiya metodundan birini seçə bilər: düz xətt, azalan qalıq, illərin cəmi rəqəmləri, annuitet, istehsal vahidi və mənfi amortizasiya. Mühasibat uçotu üçün yalnız dörd amortizasiya metodundan istifadə edilə bilər: düz xətt, azalan qalıq, illərin cəmi rəqəmləri və istehsal vahidləri.
Amortizasiyanı hesablamaq üçün əsas dörd şeyi bilmək lazımdır: aktivin ilkin dəyəri, aktivin balans dəyəri, aktivin faydalı istismar müddəti və aktivin ləğv etmə dəyəri.
İlkin dəyər - Aktiv satın alınarkən ilkin dəyər metoduna əsasən dəyərləndirilir. Bunun bir digər adı isə satınalma dəyəridir. Həmin halda aktivin ilkin dəyərinin müəyyən edilməsində bu xərclər nəzərə alınır:
• Satın alınma qiyməti;
• Gömrük rüsumu və vergilər;
• Satınalma ilə bağlı birbaşa yükləmə daşınma və boşaldılma xərcləri;
• Satınalma ilə bağlı birbaşa digər məsrəflər.
İlkin dəyər hesablanan zaman nəzərə alınmayan xərclərə aiddir:
• Müəssisədən kənara daşınma xərcləri.
Balans dəyəri - Yığılmış amortizasiya və qiymətdən düşmə zərəri çıxılandan sonra aktivin balansda tanınan dəyəridir.
Faydalı istismar müddəti - Aktivin fayda verə biləcəyi müddət və ya dövr hesab edilir.
Ləğvetmə dəyəri (qalıq dəyəri) - Aktivin faydalı istismar müddətinin sonunda bütünlükdə özünün yaxud da onun ayrı-ayrı detalların, hissələrinin və parçalarının satılmasından ehtimal edilən dəyərdir.
Əsas istifadə olunan metodlar aşağıdakılardır:
Düz xətt metodu - Ən sadə amortizasiya üsuludur. Aktivin dəyəri sıfıra çatana qədər hər il eyni məbləğdə amortizasiya olunur. Düsturu bu formadadır:
(ilkin dəyər - ləğvetmə dəyəri)/faydalı istismar müddəti;
Azalan qalıq metodu - Aktivin faydalı istifadə müddətinin sonrakı illərindən fərqli olaraq, əvvəlki illərdə daha böyük məbləğin xərclənməsi ilə nəticələnir. Metod aktivlərin adətən ilk illərində sonrakı illərinə nisbətən daha məhsuldar olması faktını əks etdirir. Düsturu bu formadadır:
(balans dəyəri - yığılmış amortizasiya)*amortizasiya dərəcəsi;

İstehsal vahidi metodu - Aktivləri onun faydalı istifadə müddəti ərzində istifadə edilmiş saatların ümumi sayına və ya aktivdən istifadə etməklə istehsal olunacaq vahidlərin ümumi sayına əsasən amortizasiya edir. Düsturu bu formadadır:
(ilkin dəyər - ləğvetmə dəyəri) / faydalı istismar müddətində istehsal həcmi.

Amortizasiya sahəsində uçot siyasətinin düzgün aparılması.
Təşkilati-hüquqi formalarından asılı olmayaraq müəssisələr öz uçot siyasətlərini qururlar. Uçot siyasətinin idarə edilməsi və təşkili, qaunvericilik və normativ aktlar tərəfindən icazə verilən üsullardan birinin seçilməsindən ibarətdir. Uçot siyasəti baş mühasib tərəfindən hazırlanır. Daha sonra isə müəssisə rəhbəri tərəfindən təsdiq edilir və təsdiq olduğu ildən sonrakı ilin yanvar ayının 1-dən tətbiq olunmağa başlayır. Tətbiq edilmiş uçot siyasəti müəssisənin bütün filiallarını, nümayəndəliklərini və bölmələrini əhatə edir. Əgər müəssisənin uçot siyasətində dəyişiklər baş veribsə, müəssisə onu dərhal elan etməlidir. Hər bir müəssisə öz uçot siyasətini qurmaqda azaddır. Uçot siyasəti müəssisənin subyektiv cari və uzunmüddətli məqsədlərindən birbaşa asılıdır (6).
Müəssisələr uçot siyasətini seçdikdə uçotun prinsiplərinə əməl etməlidirlər. Həmin prinsiplərə aiddir:
• Müəssisənin fəaliyyətinin fasiləsizliyi prinsipi - Müəssisənin hesabatının hazırlanmasında onun fəaliyyətinin ən azı 1 il davam edəcəyi şərti nəzərə alınmalıdır;
• Ehtiyatlılıq və konservatizm prinsipi - Xərclər dərhal uçota alınır, mənfəət isə əldə olunana qədər uçota alınmır;
• Əhəmiyyətlilik prinsipi - Bəzi əməliyyatlar müəssisənin fəaliyyətinə o qədər də təsir etmir və bu cür əməliyyatların hesabatda əks olunmaması əhəmiyyət daşımır;
• Uyğunluq prinsipi - Müəssisənin gəlirləri və xərcləri faktiki alınma və ya ödəmə günü deyil, yaranma günü uçota salınmalıdır;
• Müstəqil təsərrüfat subyekti prinsipi - Müəssisənin əmlakı və öhdəlikləri onun sahibinin əmlak və öhdəliklərindən ayrıdır;
• Sabitlik prinsipi - Müəssisə öz uçot siyasətini yalnız istisna hallarda dəyişdirə bilər. Bu prinsip müəssisənin hesabatlarının ildən-ilə təhlil edilməsinə şərait yaradır;
• İkilik prinsipi - Əgər müəssisənin hesabatında hər-hansı bir rəqəm göstərilirsə onda rəqəmin mənbəyi də hesabatda əks olunmalıdır;
• Realizasiya prinsipi - Mallar çatdırılanda, xidmətlər görüləndə hesabatda göstərilir.
İctimai sektor müəssisə və təşkilatlarında uçot siyasətində və uçot qiymətlərində edilən dəyişikliklərə və səhvlərin düzəldilməsinə dair məlumatın açıqlanması və uçot qaydaları ilə yanaşı, uçot siyasətinin seçilməsi və dəyişdirilməsi üçün istifadə olunan meyarların müəyyən olunması məsələləri İctimai Sektor üçün 3 №li Mühasibat Uçotunun Beynəlxalq Standartı "Uçot siyasəti, uçot qiymətləndirmələrində dəyişikliklər və səhvlər" ilə tənzimlənir. Bu standart uçot siyasətinin seçilməsi və tətbiqi zamanı, habelə uçot siyasətində və uçot qiymətlərində dəyişikliklərin və əvvəlki hesabat dövrünün səhvləri üzrə düzəlişlərin uçotu zamanı tətbiq edilir.
Uçot siyasətinin seçilməsi və tətbiq edilməsi məsələlərini həmin standartda öz əksini tapır. Standarta əsasən İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartı hansısa əməliyyata yaxud hadisəyə tətbiq edilirsə, həmin əməliyyat və ya hadisəyə tətbiq ediləcək uçot siyasəti standartda göstərilən uçot siyasətinə uyğun olmalıdır. Maliyyə hesabatlarına uçot siyasətinin tətbiq edildiyi əməliyyatlar və hadisələr uyğun və dürüst şəkildə təqdim olunmalıdır. Uçot siyasətinin tətbiq edilməsi nəticə olaraq ciddi əhəmiyyət kəsb etmədikdə, həmin siyasətin

tətbiqi tələb olunmur. Maliyyə hesabatlarının təqdim edilməsi zamanı əhəmiyyətli olmayan kənarlaşmalara yol vermək və onları düzəldilməmiş saxlamaq isə məqbul sayılmır.

Uçot siyasətində müəyyən edilən məsələlərə aiddir:

• Mühasibatlıq şöbəsinin işini təşkil etmək;
• Əsas vəsait və qeyri-maddi aktivlərə amortizasiyanın hesablanma qaydasını müəyyən edilməsi;
• Əsas vəsaitlərin uçotu, onların təmiri və təmirin aparılma qaydasının təyin edilməsi;
• Mühasibat uçotunun hesablar planının işlənilməsi;
• Qeyri-maddi aktivlərə hesablanmış amortizasiyanın əks etdirilməsi üçün sxematik yazılışların seçilməsi;
• Auditor təşkilatları və digər təşkilatlarla qarşılqlı əlaqə sisteminin təyin edilməsi;
• Gələcək xərclər üçün ehtiyatların siyahısının tərtib edilməsi;
• Gələcək dövrün gəlirləri və xərclərinin uçotu variantının seçilməsi;
• Ehtiyat kapitalının uçotunun aparılma qaydalarının müəyyən edilməsi;
• Daxili uçot, hesabat və nəzarət sisteminin seçilməsi;
• Əvəzsiz alınmış pul və material ehtiyatlarının uçotu variantının seçilməsi;
• Uçot məlumatlarının texnoloji işlənməsini həyata keçirmək, onları elektron formalarda əks etdirmək;
• Məqsədli maliyyələşmələrin istifadəsi və onun uçotu variantının seçilməsi;
• Məzənnə fərqi və onun uçotu qaydasının təyin edilməsi;
• Xalis mənfəətin müəyyən edilməsi və bölüşdürülməsi variantinin seçilməsi;
• Əmlak və öhdəliklərin inventarizasiyası qaydasını təyin etmək və s.

Müəssisənin uçot siyasətində dəyişiklər baş veribsə, müəssisə onu dərhal elan etməlidir. Müəssisənin rəhbərliyin dəyişməsi, qanunvericilikdə olan tələblərdəki yeniliklər yaxud müəssisənin fəaliyyətinin başqa bir sahəyə istiqamətlənməsi kimi məcburi hallarda uçot siyasətlərində dəyişikliklər edə bilərlər. Bu dəyişikliklər bəzən cari dövrə təsir edə bildiyi halda bəzən isə gələcək dövrlərə təsir edə bilir. Məsələn maya dəyərinin hesablanması metodundakı yaxud ümidsiz borcların qiymətləndirilməsindəki dəyişikliklər cari dövrün mənfəət və zərərinə təsir etdiyindən cari dövrdə tanınır. Lakin amortizasiya olunmuş aktivlər həm cari müddət ərzində həm də aktivin faydalı istifadə müddəti ərzində hər gələcək müddət üçün amortizasiya xərcinə təsir edir. Hər iki halda cari dövrə aid olan dəyişikliyin nəticəsi cari dövrdə gəlir və ya xərc kimi tanınır. Gələcək hesabat dövrləri üzrə təsir isə (əgər mövcud olarsa) gələcək hesabat dövrlərində tanınır.

Amortizasiya ayrılmalarının hesablanmasının və uçotunun normativ və hüquqi əsasları.

Azərbaycan Respublikasında mühasibat uçotunun bütün mövcud sahələri Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında" Qanunu ilə tənzimlənir. Qanunun 4-cü maddəsi mühasibat uçotu sahəsində dövlət tənzimləməsi məsələlərini özündə əks etdirir. Həmin maddənin 1-ci bəndində qeyd edilir:

4.1. Azərbaycan Respublikasında mühasibat uçotu sahəsində dövlət tənzimləməsinin əsas məqsədi ölkədə mühasibat uçotunun aparılmasını və maliyyə hesabatlarının tərtib olunmasını Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları və uçot qaydaları əsasında təmin etməkdən ibarətdir (3).

Qanunun 4.1-ci maddəsinin məzmunundan göründüyü kimi, hazırda ölkəmizdə mühasibat uçotu və maliyyə hesabatı 3 növ beynəlxalq standartlar əsasında tənzimlənir:

• Maliyyə Hesabatlarının Beynəlxalq Standartları;
• Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları;
• İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları.

İctimai sektorun müəssisə və təşkilatları üçün torpaq tikili avadanlıqların amortizasiyasının uçotu məsələləri İctimai Sektor üçün 17 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı "Torpaq, tikili və avadanlıqlar" ilə, qeyri-maddi aktivlərin amortizasiyasının uçotu məsələləri isə İctimai Sektor üçün 31 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı "Qeyri-maddi aktivlər" ilə tənzimlənir. Standartların əsas məqsədi torpaq, tikili, avadanlıqlar və qeyri-maddi aktivlər ilə bağlı mühasibat uçotu məlumatlarını açıqlamaqdan ibarətdir.

Mühasibat uçotu və maliyyə hesabatının tənzimlənməsində beynəlxalq standartlarla yanaşı, uçot qaydalarından da istifadə edilir. Qeyd etməliyik ki, həmin uçot qaydaları beynəlxalq standartların tələblərinə uyğun hazırlanmışdır. Həmin qaydalara aiddir:

• Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları;
• Kiçik və orta sahibkarlıq subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları;
• İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları (2).

Amortizasiya ayırmalarının uçotunun hesablanması məsələləri.

Vergi məcəlləsi amortizasiyanın hesablanması və uçotunda da mühüm rol oynayır. Vergi orqanları adətən mühasibat uçotu standartlarından fərqli qaydalara malik ola bilirlər. Hətta bəzi hallarda vergi qanunları müəssisələrə vergidə güzəştlər təklif edən sürətləndirilmiş amortizasiyadan istifadəyə icazə verə bilər. Məsələn, ölkəmizdə mikro sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlər 2, kiçik sahibkarlıqla məşğul olan subyektlər isə 1.5 əmsal ilə sürətləndirilmiş amortizasiyadan istifadə edə bilərlər. Amortizasiya ayırmaları normalarının tənzimlənməsi birbaşa olaraq Azərbaycan Respublikasının Vergi məcəlləsinin 114-cü maddəsində (Amortizasiya ayırmaları və gəlirdən amortizasiya olunan aktivlər üzrə çıxılan məbləğlər) öz əksini tapır. Həmin maddəyə əsasən amortizasiya normaları:

- binalar, tikililər və qurğular - 7%-dək;
- maşınlar və avadanlıq - 20%-dək;
- yüksək texnologiyalar məhsulu olan hesablama texnikası - 25%-dək;
- nəqliyyat vasitələri - 25%-dək;
- iş heyvanları - 20%-dək;
- geoloji-kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər - 25%-dək;
- qeyri-maddi aktivlər - istifadə müddəti məlum olmayanlar üçün 10 faizədək, istifadə müddəti məlum olanlar üçün isə illər üzrə istifadə müddətinə mütənasib məbləğlərlə;
- digər əsas vəsaitlər - 20%-dək;

Amortizasiya edilmir;

- elmi-tədqiqat, tədris və təcrübə məqsədi üçün kabinetlərdə və laboratoriyalarda istifadə edilən avadanlıqlar, eksponatlar, nümunələr, fəaliyyətdə olan və olmayan modellər, maketlər və başqa əyani vəsaitlər;

- məhsuldar heyvanlar (damazlıq inəklər, camışlar, madyanlar, dəvələr, marallar, donuzlar, qoyunlar, keçilər, döllük buğalar, kəllər, ayğırlar, nərlər, qabanlar, qoçlar, təkələr və bunlar kimi digər məhsuldar heyvanlar);
- heyvanxanalarda və digər analoji müəssisələrdə olan heyvanat aləminin eksponatları;
- istismar vaxtı çatmayan çoxillik əkmələr;
- kitabxana fondları, kinofondlar (video, audio, foto), səhnə rekvizitləri, muzey sərvətləri (eksponatları);
- tam amortizasiya olunmuş əsas vəsaitlər, onlar istismara yararlı olduğu hallarda;
- konservasiya edilmiş əsas vəsaitlər;
- ümumi istifadədə olan avtomobil yolları;
- ümumi istifadədə olan parklardakı avadanlıqlar;
- istismara verilməmiş anbarda olan əsas vəsaitlər (1).

İctimai sektor müəssisə və təşkilatlarında amortizasiya ayırmaları uçotunun təkmilləşdirilməsi istiqamətləri. Amortizasiya ayırmaları bütövlükdə, bütün müəssisə və təşkilatlar üçün maliyyə hesabatının mühüm aspektidir və təşkilatın maliyyə vəziyyətinin dəqiq və şəffaf hesabatını təmin etmək üçün ona təfərrüatla diqqət yetirilməsini tələb edir. Təşkilatlar öz maliyyə hesabatlarına amortizasiya xərclərini daxil edirlər. Mənfəət və zərər haqqında hesabatın əsas tərkib hissələrindən biri də amortizasiya ayırmalarıdır.

İctimai sektorun müəssisə və təşkilatlarında amortizasiya ayırmalarının təkmilləşdirilməsi istiqamətlərini müəyyən etmək üçün ümumilikdə mühasibat uçotunun inkişaf istiqamətləri müəyyən edilməli və araşdırılmalıdır. Mühasibat uçotu istənilən müəssisə üçün vacib bir fəaliyyətdir. Müəssisələri uğurla idarə etmək, maliyyə resurslarından səmərəli istifadə etmək və sağlam maliyyə strukturunu yaratmaq üçün mühasibat uçotunun düzgün və vaxtında aparılması zəruridir. Buna görə də, mühasibat uçotu praktikaları zaman keçdikcə inkişaf etmiş və dəyişmişdir. Günümüzdə mühasibat uçotunun təkmilləşdirilməsinin əsas bir neçə istiqamətini vurğulaya bilərik:

- Rəqəmsallaşdırma və avtomatlaşdırma: Rəqəmsallaşdırma və avtomatlaşdırma texnologiyaları mühasibat proseslərini sürətləndirmək, dəqiqliyi artırmaq və iş yükünü azaltmaq üçün istifadə edilə bilər. Müəssisələr üçün səhvləri azaltmaq, səmərəliliyi artırmaq üçün mühasibatlıqla bağlı fəaliyyətlərini avtomatlaşdırmaq və rəqəmsallaşdırmaq vacibdir. Elektron mühasibat uçotu xüsusi mühasibatlıq proqramlarından istifadə etməklə aparılır. Elektron mühasibat uçotu düzgün planlaşdırıldıqda və həyata keçirildikdə təşkilatların maliyyə göstəricilərini yaxşılaşdıra, qərarların qəbulunu təkmilləşdirə və mühasibatlıq proseslərini optimallaşdıra bilər. Məsələn bu yol ilə maliyyə hesabatı proseslərini daha effektiv hazır etmək mümkündür. Maliyyə hesabatları prosesləri müəssisələrin maliyyə vəziyyətini, fəaliyyətini və pul vəsaitlərinin hərəkətini əks etdirən mühüm alətlərdir. Ancaq bu proseslər çox vaxt mürəkkəb və vaxt aparan ola bilər. Buna görə də, müəssisələr maliyyə hesabatları proseslərini sadələşdirmək üçün avtomatlaşdırılmış elektron mühasibat uçotu proqamlarından istifadə edə bilər (12).
- Təlim və təcrübənin artırılması: Müəssisələrin mühasibatlıq şöbələrinin fəaliyyətində ixtisaslaşmış kadrların təşkili, hazırda işləyənlərin təlim və təcrübələrinin artırılması kimi məsələlər yaranan çətin vəziyyətlərə daha yaxşı uyğunlaşmaq və bu sahədə son dövrlərə uyğun həllər tapmaq üçün əhəmiyyətli rol oynayır.

- Bulud texnologiyası (cloud): Müəssisələrə mühasibat qeydlərini təhlükəsiz saxlamağa və idarə etməyə imkan verir. Bulud əsaslı mühasibat proqramları müəssisələrə mühasibat uçotunu istənilən cihazdan aparmağa şərait yaradır və müəssisələrə resurslarını optimallaşdırmağa kömək edir.
- Beynəlxalq standartlara uyğunlaşma: Standartlar zamanla dəyişir və getdikcə təkmilləşirlər. Müəssisələr yeni mühasibat uçotu standartlarına uyğun olaraq uçot və hesabatlar aparmalı olurlar. Buna görə də müəssisələr üçün yeni mühasibat standartlarına uyğunlaşmaları və fəaliyyətlərinə tətbiq etmələri vacibdir.
- Digər bir istiqamət isə, mühasibatlıq fəaliyyətinin strategik bir funksiya kimi idarə edilməsidir. Mühasibatlıq işləri rəqəmlərin qruplaşdırılması və hesablanması ilə məhdudlaşmamalı həmçinin müəyyən bir mövqeyə düşmədən öncə daha ətraflı analiz edilməsi, bir şirkətin uzunmüddətli məqsədlərinin, inkişaf strategiyalarının və idarə etmə strukturlarının formalaşdırılması ilə bağlı məsələləri də əhatə etməlidir. Bu, şirkətin fəaliyyətini daha optimal və səmərəli bir şəkildə idarə etmək və müxtəlif riskləri qarşısını almaq üçün dəyərli bir vasitədir (13).

İctimai sektorunun müəssisə və təşkilatlarında amortizasiya ayırmalarının uçotunu təkmilləşdirmək üçün həmçinin aşağıdakı addımları atmaq olar:

- Aktivlərin idarə edilməsi siyasətinin hazırlanması: Aktivlərin identifikasiyası, təsnifatı və qiymətləndirilməsini özündə birləşdirən hərtərəfli aktivlərin idarə edilməsi siyasəti təşkilatlara öz aktivlərinin uçotunu aparmağa və düzgün amortizasiya ayırmalarının aparılmasını təmin etməyə kömək edir.
- Dəqiq qeydlərin aparılması: Alınma tarixi, dəyəri, faydalı istifadə müddəti və istifadə olunan amortizasiya metodu daxil olmaqla, bütün aktivlər üçün dəqiq qeydlər aparılmalıdır. Bu məlumat düzgün amortizasiya ayırmalarını hesablamaq və aktivlərin qalıq dəyərini izləmək üçün istifadə olunur.
- Müntəzəm olaraq müəssisənin aktivlərinin auditinin həyata keçirilməsi: Artıq istifadə olunmayan və ya xaric edilmiş aktivləri müəyyən etməyə və amortizasiya ayırmalarının hesablanmasına təsir göstərə bilər.
- Peşəkar məsləhətlərdən faydalanmaq: Təşkilatlar amortizasiya ayırmalarının uçotunu düzgün apardıqlarını və müvafiq mühasibat uçotu standartlarına və vergi qaydalarına riayət etmələrini təmin etmək üçün mühasibat uçotu mütəxəssislərinin məsləhətinə müraciət edə bilərlər.
- Sistemli və vahid amortizasiya siyasətinin qəbul edilməsi: Aktivlərinin iqtisadi faydalı istifadə müddətini əks etdirən sistemli və vahid amortizasiya siyasətini qəbul etməlidirlər. Bu siyasət obyektiv meyarlara əsaslanmalı və ardıcıl olaraq bütün aktivlər üzrə tətbiq edilməlidir.
- Aktivlərin yenidən qiymətləndirilməsi: Aktivlərinin balansda olan dəyərinin bazardakı ədalətli dəyəri ilə uyğunlaşmasını təmin etmək üçün müntəzəm olaraq aktivlərin yenidən qiymətləndirilməsi aparılmalıdır. Bu, onlara aktivlərin dəyişdirilməsi və xaric edilməsi ilə bağlı əsaslandırılmış qərarlar qəbul etməyə imkan verə bilər.
- Aktivlərin idarə edilməsi sistemi ilə inteqrasiya: Müəssisələr aktivlərin lazımi şəkildə izlənilməsini və faydalı istifadə müddəti ərzində saxlanmasını təmin etmək üçün öz amortizasiya siyasətlərini aktivlərin idarəetmə sistemləri ilə birləşdirməlidirlər.

Bütün bu istiqamətlər müəssisələrin maliyyə göstəricilərini yaxşılaşdırmağa kömək edə bilər. Lakin bu yeniliklərin tətbiqi prosesində müəssisələr öz maliyyə resurslarından düzgün istifadə etməlidirlər. Hər hansı texnoloji yeniliyi tətbiq etməzdən əvvəl mövcud mühasibat uçotunun çatışmazlıqlarının vaxtında aradan qaldırılması da vacibdir.

Nəticə

Beynəlxalq standartlar əsasında məlumatların izlənilməsi, araşdırılması müqayisəsi və onların bir-biri ilə uyğunlaşdırılması daha asan hal alır. Həmçinin, bu cür məlumatlar müxtəlif təşkilatlar arasındakı məsələləri daha anlaşıqlı hala gətirir. Yerli və xarici investorlar, təşkilatlar və digər maliyyə hesabatlarının istifadəçiləri bir-biri ilə sanki vahid dildə danışaraq qarşılıqlı anlayış yarada bilərlər. Bu da müxtəlif məsələlərin həllində daha sürətli bir şəkildə təşkilatların daha operativ və effektli şəkildə işləməsinə imkan yarada bilər. Təşkilatlar həmçinin daha keyfiyyətli və effektli audit prosesləri həyata keçirirlər. Bunun nəticəsində daha mükəmməl mühasibatlıq və maliyyə idarəetmə sistemi qurmağa imkan yaranır. Auditorlara lazım olan sənədlərin və orada əks etdirilən məlumatların tamlığı və sistematikliyi nəinki amortizasiya ayırmalarının uçotunda birbaşa uçotun bütün sahələrində audit işinin də daha dəqiq və səmərəli olmasına gətirib çıxara bilər.

Daha dəqiq hesablanmış amortizasiya ayırmaları təşkilatlara aktivlərinin dəyərini obyektiv şəkildə göstərməyə və baş verə biləcək maliyyə risklərinin ehtimalını müəyyənləşdirməyə yardımçı ola bilər. Təşkilatlar artıq maliyyə resurslarından daha səmərəli istifadə edə və öz xərclərini daha dəqiqliklə ölçüb uçotda əks etdirə bilərlər.

Elektron mühasibat proqramları vasitəsi ilə kompüter və informasiya texnologiyalarının istifadə edərək hesablamaları daha tez və dəqiq şəkildə emal etməyə, maliyyə hesabatlarını daha asan yaratmağa və vaxta qənaət etməyə kömək edə bilər. Bu proqramlar vasitəsi ilə amortizasiya ayırmaları, əmək haqqı, maya dəyərinin hesablanması kimi məsələləri tam dəqiqliklə hesablamaq mümkündür. Bu isə müəssisələrdə səhvlərin sıfıra endirilməsini təmin edə bilər. Bu proqramlardakı istifadəçi girişinə nəzarət, məlumatların əlavə nüsxəsi və onların bərpası, məlumatların bütünlükdə şifrələnməsi kimi təhlükəsizlik mexanizmləri ilə maliyyə məlumatlarını özündə əks etdirən sənədlərin məxfiliyini təmin etmək, eləcə də onların itməsi və yırtılması hallarının qarşısı böyük ölçülərdə alına bilər.

ƏDƏBIYYAT

1. Azerbaycan Respublikasinin Vergi Mecellesi; https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi
2. Azerbaycan Respublikasi Maliyye Nazirliyinin Kollegiyasinin 25 dekabr 2018-ci il tarixli Q-13 nomreli qerari; https://e-qanun.az/framework/41103
3. Muhasibat uchotu haqqinda Azerbaycan Respublikasinin Qanunu; https://e-qanun.az/framework/5458
4. Abbasov Q. “Muhasibat (Maliyye) uchotu”.-2003, 582 seh.
5. Abbasov Q. “Muhasibat uchotu” //derslik.- Baki, 2015,485 seh.
6. Aliyeva A.H. “Muhasibat uchotu”// derslik.- Baki, 2016, 256 seh.
7. Hesenov E., Elimerdanov E. (2021). “Muhasibat uchotu”.- Naxchivan, 2021,363 seh.
8. Rzayev Q. “Muhasibat uchotu və audit”.- Baki: “Elm”,2008, 482 seh.

9. Salahov E. S. “Muhasibat uchotunun komputerleshdirilmesi”.- Kooperasiya neshriyyati, 2008, 236 seh.
10. Salahov E. S., Azerbaycanda muhasibat uchotunun inkishafinin muasir aspektleri
11. Ionescu, B. Traditional Accounting vs. Cloud Accounting. /Proceedings of the 8th International Conference.-2013
12. Guney A. Role of technology in accounting and e-accounting. //Procedia-Socialand Behavioral Sciences.-2014
13. Ghasemi, M., Shafeiepour, V., Aslani, M., Barvayeh, E. The impact of Information Technology (IT) on modern accounting systems. //Procedia Social and Behavioral Sciences.-2011

СОВЕРШЕНСТВОВАНИЕ УЧЕТА АМОРТИЗАЦИИ В ПРЕДПРИЯТИЯХ И ОРГАНИЗАЦИЯХ БЮДЖЕТНОЙ СФЕРЫ

Анвар Салахов[1], Ингилаб Бадалов[2]
[1,2] Азербайджанский Государственный Экономический Университет
[1,2] Кафедра Экономики и Технологических Наук
[1] Доцент, кандидат экономических наук, anver_salahov.58@mail.ru
[2] Магистрант, ibdlov@bk.ru

РЕЗЮМЕ

Суть амортизации заключается не только в том, что актив изнашивается материально. В этом случае особых причин не амортизировать активы не будет. Предприятие (организация) постепенно восстанавливает прежнюю стоимость амортизируемого объекта за счет амортизационных отчислений. В результате восстановление этой величины оказывает влияние на устойчивость деятельности предприятия. Амортизация является наиболее естественным способом защиты активов и обеспечения непрерывности деятельности предприятия.
Неправильный расчет амортизационных отчислений приводит к искажению амортизационных отчислений в отчете о доходах и, как следствие, к искажению балансовой стоимости актива в отчете о финансовом положении. Искажение цифр может снизить качество финансовой отчетности, ввести в заблуждение пользователей финансовой отчетности, нанести ущерб имиджу предприятия (организации) и даже привести к ее отступлению от собственных интересов.
Ключевые слова: отчёт о доходах, компания, предприятие, амортизация.

Publication history

Article received: 08.05.2023
Article accepted: 22.05.2023
Article published online: 05.06.2023
DOI suffix: 10.36962/PAHTEI32092023-22

ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL
E-ISSN: 2674-5224
VOLUME 32 ISSUE 09 2023
34-48

MANAGEMENT WITH FUZZY LOGIC OF ELECTRICAL ENERGY OBTAINED FROM SOLAR PANELS AND APPLICATION IN SMART HOME SYSTEMS

Ahmad Asimov[1], Samir Alakbarli[2], Mammad Mammadzada[3]
[1,3] Khazar University, [2]Azerbaijan State Oil and Industry Univerisity,
[1,2,3]Department Electronic and Automation,
[1]Teacher, PhD, Member of Physical İnstitute, ahmad.asimov@khazar.org
[2]Teacher, samir.alakbarli@gmail.com
[3]Master student, mammad.mammadzada@outlook.com

ABSTRACT

A smart building's (home) energy supply difficulties are considered, along with potential backup power sources. The components of a smart building's energy supply system and life support subsystem are examined, along with the roles allocated to the energy management system. It is also demonstrated whether such a system might be developed to reduce the amount of electricity and solar energy used in the building. The proposed form of the building automation system considers the properties of alternate power sources and potential use limitations. The use of fuzzy set theory in energy management strategies for smart buildings is demonstrated, along with the characteristics of such intelligent control.
Keywords: Smart home, photovoltaic panel (PV), renewable energy, DC/DC converter, DC/AC inverter, fuzzy logic controller.

Introduction

Currently, the development of electrical networks mainly faces two problems. The resulting complex closed, and multi-level system cannot function without strict control mechanisms (automatic control), further development of the system requires the involvement of new territories, which is costly in the context of the introduction of private land ownership. In the current conditions, the ideology of using smart networks (Smart Grid) looks very promising, which makes it possible to provide convenient management and increase network throughput. An important element of "smart" energy systems are flexible alternating current transmission systems (FACTS). Various types of FACTS devices have been developed and used so far.

FACTS devices of the first generation (FACTS -1) include devices that ensure voltage regulation (reactive power) and the necessary level of reactive power compensation in electrical networks. Second-generation FACTS devices (FACTS-2) are based on fully controlled power electronics that regulate mode parameters. FACT-2 devices are characterized by the possibility of vector control, which consists in holding the magnitude and phase of the voltage vector in the nodes of the electrical network. A new class of controlled FACTS devices consists of distributed controlled network devices (D-FACTS) or "smart" conductors that allow the inductive reactance of the overhead line to be varied.

When making changes in complex systems such as power grids, the theoretical approach takes more time and the experimental approach is expensive. In this regard, the use of simulation when introducing new devices into the system greatly simplifies the calculation process. In modelling, to study a real object, an analogue of its abstract copy is built. The simplest form of modelling is imitation. This ensures the visibility of the processes and the use of the performance of the computer equipment in the simulation. The accuracy of simulation modelling depends on the developed model and modelling tools. Using simulation modelling on modern computers enables a broad and relatively deep study of various technical objects without theoretical or physical research tools. Research in this area can be carried out by simulating the inclusion of FACTS equipment in the power system in the Power World program.

In the paper, a 9-node scheme was simulated according to the IEEE (Institute of Electrical and Electronics Engineers) standard to improve energy efficiency, and a steady-state calculation was performed using the Power World program. In the program, a 9-node circuit was designed based on the voltage values at the nodes and the load currents in the overhead line, and the voltage changes at the nodes were obtained. FACTS devices are classified according to the composition and connection scheme of the power line, and the addition of FACTS devices connected in series to the two most heavily loaded power lines of the system is justified. The results of the steady

state 9-node scheme were compared in the presence and absence of the device. As a result, the capacity of the line has increased, the voltage level at the nodes has improved, and the efficiency of the line for power transmission has increased. The FACTS tool improved system stability.
Power World software can be used to model electrical networks, identify the most (or least) loaded components, and improve power performance by inserting FACTS devices into those components. In addition, by comparing, you can determine which device according to the connection scheme and composition has a better effect on the network.
Keywords: FACTS, The settled modes, IEEE 9-node test circuit, Flexible control transmission systems, Power World, Power system analysis

ELEKTRİK ŞƏBƏKƏLƏRİNİN SƏMƏRƏLİLİYİNİN MÜASİR ÜSULLARLA ARTIRILMASININ MODELLƏŞDİRİLMƏSİ

Elşən Manafov[1], Tofiq Yaqublu[2], Fərid Hüseynov[3]
[1]"Energetika və Avtomatika" kafedrasının dosenti, texnika üzrə fəlsəfə doktoru, elshan_manafov@mail.ru
[2]"Enerji Sisteminin Rejiməri" şöbəsinin baş mütəxəsisi,
[3]"Energetika və Avtomatika" kafedrasının müəllimi,
[1,3]Milli Aviasiya Akademiyası,
[2]Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu,

XÜLASƏ

Hazırda elektrik enerjisi şəbəkələrinin inkişafı əsasən iki problemlə qarşılaşır. Yaranmış mürəkkəb qapalı və çoxsəviyyəli sistem sərt idarəetmə mexanizmləri (avtomatik idarəetmə) olmadan işləyə bilmir, sistemin gələcək inkişafı yeni ərazilərin cəlb edilməsini tələb edir ki, bu da torpağa xüsusi mülkiyyətin tətbiqi kontekstində baha başa gəlir. Mövcud şəraitdə ağıllı şəbəkələrin (Smart Grid) tətbiqi ideologiyası çox perspektivli görünür ki, bu da rahat idarə olunmanı təmin etməyə və şəbəkələrin ötürmə qabiliyyətini artırmağa imkan verir. "Ağıllı" enerji sistemlərinin mühüm elementi dəyişən cərəyan elektrik ötürmə sistemlərinin idarəolunan (çevik) qurğularıdır (Flexible Alternating Current Transmission System - FACTS). İndiyədək müxtəlif növ FACTS qurğuları hazırlanmış və istifadə edilmişdir.
Birinci nəsil FACTS qurğularına (FACTS-1) gərginliyin tənzimlənməsini (reaktiv güc) və elektrik şəbəkələrində reaktiv gücün tələb olunan kompensasiya dərəcəsini təmin edən qurğular daxildir. İkinci nəsil FACTS qurğularına (FACTS-2) rejim parametrlərini tənzimləyən tam idarəolunan güc elektronikası cihazlarının bazasına əsaslanan qurğular daxildir. FACTS-2 qurğuları elektrik şəbəkəsi qovşaqlarında gərginlik vektorunun qiymət və fazasının tənzimlənməsinə malik olan vektorlu tənzimləmə qabiliyyəti ilə xarakterizə olunur. Yeni sinif idarə olunan FACTS qurğuları paylanmış idarə olunan şəbəkə qurğularından (D-FACTS) yaxud hava xəttinin induktiv müqavimətini dəyişməyə imkan verən "ağıllı" naqillərdən ibarətdir.
Elektrik enerjisi şəbəkələri kimi mürəkkəb sistemlərdə dəyişikliklərin aparılması zamanı nəzəri yanaşma daha çox vaxt, eksperimental yanaşma isə material xərc aparır. Bununla əlaqədar yeni qurğuların sistemə daxil edilməsi zamanı modelləşdirmənin tətbiqi hesablama prosesini əhəmiyyətli dərəcədə yüngülləşdirir. Modelləşdirmə zamanı real obyekti tədqiq etmək məqsədilə onun mücərrəd sürətindən ibarət olan analoqu qurulur. Modelləşdirmənin ən sadə yolu

imitasiyadır. Belə ki, imitasiya zamanı proseslərin əyaniliyi və kompüter texnikasının gücündən istifadə təmin olunur. İmitasiya modelləşdirməsində dəqiqlik işlənmiş modeldən və modelləşdirmə vasitələrindən asılıdır. Müasir kompüterlərdə imitasiya modelləşdirməsinin tətbiqi nəzəri yaxud fiziki tədqiq vasitələrinin əlçatmazlığı zamanı müxtəlif texniki obyektlərin geniş və kifayət qədər dərin şəkildə öyrənilməsinə imkan yaradır. FACTS qurğusunun enerji sisteminə daxil edilməsini Power World proqram təminatında modelləşdirməklə bu sahədə tədqiqat işləri aparmaq mümkündür.
Məqalədə enerji səmərəliliyinin artırılması üçün IEEE (Insitute of Electrical and Electronics Engineers) standartına uyğun 9 düyünlü sxemin modelləşdirilməsi yerinə yetirilmiş, Power World proqram təminatı ilə qərarlaşmış rejimin hesabatı aparılmışdır. Düyünlərdəki gərginliklər, hava xətlərindəki yük axınlarının qiymətlərinə əsasən proqram təminatında 9 düyünlü sxem tərtib edilmiş və düyünlərdəki gərginlik dəyişməsi əldə olunmuşdur. Ötürmə xəttinə qoşulma sxeminə və tərkibinə görə FACTS qurğuları təsnif olunmuş, sistemin ən çox yüklənən iki elektrik veriliş xəttinə ardıcıl birləşən FACTS quruğusunun əlavə edilməsi əsaslandırılmışdır. Qurğunun mövcudluğu və olmadığı hallarda 9 düyünlü sxemin qərarlaşmış rejimdəki nəticləri müqayisə edilmişdir. Nəticədə xətlərin buraxma qabiliyyəti artmış, düyünlərdə gərginlik səviyyəsi yaxşılaşmış, ötürücü xətlərin səmərəliliyi yüksəlmişdir. FACTS qurğusu sistemin dayanıqlığını artırmışdır.
Power World proqram təminatında elektrik şəbəkələrini modelləşdirərək ən çox (yaxud ən az) yüklənmiş hissələri təyin etmək, həmin hissələrə FACTS qurğularını daxil etməklə elektrik enerjisinin göstəricilərini yaxşılaşdırmaq olar. Bundan əlavə qoşulma sxeminə və tərkibinə görə hansı qurğunun şəbəkəyə daha yaxşı təsir etməsini müqayisə ilə müəyyənləşdirmək mümkündür.
Açar sözlər: FACTS qurğusu, qərarlaşmış rejim, IEEE 9 düyünlük test sxemi, çevik idarə olunan ötürücü sistemlər, Power World, enerji sisteminin təhlili

Giriş

Hazırda elektrik enerjisi şəbəkələrinin inkişafı iki problemlə üzləşir: yaranmış mürəkkəb qapalı və çoxsəviyyəli sistem sərt idarəetmə mexanizmləri (avtomatik idarəetmə) olmadan işləyə bilmir, sistemin gələcək inkişafı yeni ərazilərin cəlb edilməsini tələb edir ki, bu da torpağa xüsusi mülkiyyətin tətbiqi kontekstində baha başa gəlir. Mövcud şəraitdə ağıllı şəbəkələrin (Smart Grid) tətbiqi ideologiyası çox perspektivli görünür ki, bu da rahat idarə olunmanı təmin etməyə və şəbəkələrin ötürmə qabiliyyətini artırmağa imkan verir. "Ağıllı" enerji sistemlərinin mühüm elementi dəyişən cərəyan elektrik ötürmə sistemlərinin idarəolunan (çevik) qurğuları - Dəyişən Cərəyanı Çevik Ötürmə Sistemidir (Flexible Alternating Current Transmission System - FACTS). İndiyədək müxtəlif növ FACTS qurğuları hazırlanmış və istifadə edilmişdir.
Kompensasiya prosesinin həyata keşirmək üçün FACTS qurğuları enerji sisteminə şunt kimi əlavə edilir və idarəolunan cərəyan mənbəyi kimi fəaliyyət göstərir. Hazırda tətbiq olunan uzununa kompensasiya güc əmsalının artırılması üçün istifadə olunur. Belə ki, uzun məsafəli elektrik veriliş xətlərində uzununa induktiv müqavimət yarandığından, xəttin cərəyan vektoru gərginlik vektorundan geridə qalır və güc əmsalı induktiv cərəyanın təsiri ilə azalır. Bunu kompensasiya etmək üçün xəttə uzununa qaydada tutum cərəyanı yaradan tutum elementi qoşulur. Çox kiçik yüklənmələrdə (yaxud yüksüz rejimlərdə) xəttdən kiçik cərəyan axdığından tələbatçılar tərəfdə gərginlik artır və şuntlayıcı reaktorlardan ibarət olan eninə kompensasiyadan istifadəyə ehtiyac yaranır. Eninə kompensasiya xəttin buraxma qabiliyyətini artırır [1-3, 5].

Birinci nəsil FACTS qurğularına (FACTS-1) gərginliyin tənzimlənməsini (reaktiv güc) və elektrik şəbəkələrində reaktiv gücün tələb olunan kompensasiya dərəcəsini təmin edən qurğular daxildir. İkinci nəsil FACTS qurğularına (FACTS-2) rejim parametrlərini tənzimləyən tam idarə olunan güc elektronikası cihazlarının bazasına əsaslanan qurğular daxildir. FACTS-2 qurğuları elektrik şəbəkəsi qovşaqlarında gərginlik vektorunun qiymət və fazasının tənzimlənməsinə malik olan vektorlu tənzimləmə qabiliyyəti ilə xarakterizə olunur.

Yeni sinif idarə olunan FACTS qurğuları paylanmış idarə olunan şəbəkə qurğularından - Distributed FACTS (D-FACTS) yaxud hava xəttinin induktiv müqavimətini dəyişməyə imkan verən "ağıllı" naqillərdən ibarətdir. D-FACTS qurğuları aşağıdakılara bölünür:

- ardıcıl qoşulmuş paylanmış statik kompensatorlar (Distributed Static Series Kompensator - DSSC);
- ardıcıl qoşulmuş paylanmış reaktorlar (Distributed Series Reactor - DSR);
- ardıcıl qoşulmuş paylanmış kondensatorlar (Distributed Series Capacitor - DSC);
- ardıcıl qoşulmuş cəmlənmiş statik kompensatorlar (Tower Router - TRU).

Mürəkkəb sistemlərdə dəyişikliklərin aparılması zamanı nəzəri yanaşma daha çox vaxt, eksperimental yanaşma isə material xərc aparır. Bununla əlaqədar yeni qurğuların sistemə daxil edilməsi zamanı modelləşdirmənin tətbiqi hesablama prosesini əhəmiyyətli dərəcədə yüngülləşdirir. Modelləşdirmə zamanı real obyekti tədqiq etmək məqsədilə onun mücərrəd sürətindən ibarət olan analoqu qurulur. Modelləşdirmənin ən sadə yolu imitasiyadır. Belə ki, imitasiya zamanı proseslərin əyaniliyi və kompüter texnikasının gücündən istifadə təmin olunur. İmitasiya modelləşdirməsində dəqiqlik işlənmiş modeldən və modelləşdirmə vasitələrindən asılıdır. Müasir kompüterlərdə imitasiya modelləşdirməsinin tətbiqi nəzəri yaxud fiziki tədqiq vasitələrinin əlçatmazlığı zamanı müxtəlif texniki obyektlərin geniş və kifayət qədər dərin şəkildə öyrənilməsinə imkan yaradır. FACTS qurğusunun enerji sisteminə daxil edilməsini Power World proqram təminatında modelləşdirmək mümkündür [2, 5, 4-7].

Məqsəd

IEEE standartına uyğun 9 düyünlü sxemə uyğun olaraq Power World proqram təminatında qurmaq üçün elektrik veriliş xəttinin cədvəl 1-də verilimiş parametlərindən istifadə ediləcəkdir.

Cədvəl 1. Elektrik veriliş xəttinin parametləri

Düyündən	Düyünə	R	X	B
1	2	0.018	0.054	0.0045
1	8	0.014	0.036	0.003
2	9	0.006	0.03	0.0028
2	3	0.013	0.036	0.03
3	4	0.01	0.05	0
4	5	0.018	0.056	0
5	6	0.02	0.06	0
6	7	0.015	0.045	0.0038
6	9	0.002	0.066	0
7	8	0.032	0.076	0


7	9	0.022	0.065	0

Generatorun və yüklərin parametləri cədvəl 2-dəki kimi proqram təminatına daxil edilir.

Cədvəl 2. Generator və yüklərin parametrləri.

Düyün	**Gərginlik dəyişməsi, nisbi vahidlə**	**Generator**					**Yük**	
		Nominal aktiv güc, MVt	Min aktiv güc, MVt	Max aktiv güc, MVt	Min reaktiv güc, MVAR	Max reaktiv güc, MVAR	Aktiv güc, MVt	Reaktiv güc, MVAR
1	1.03	0	50	200	.	.	.	.
2	1.04	80	50	200	0	250	20	10
3	1	.	.	.	.		25	15
4	1	.	.	.	.	.	10	5
5	1	.	.	.	.	.	40	20
6	1	.	.	.	.	.	60	40
7	1.01	120	50	100	0	100	10	5
8	1	.	.	.	.	.	80	60
9	1	.	.	.	.	.	100	80

Power World proqram təminatında qurulmuş 9 düyünlü sxemdə (FACTS qurğusuz) qərarlaşmış rejimin yük axınları şəkil 2-də verilmişdir. Bundan əlavə gərginlik dəyişməsini təhlil etmək üçün proqram təminatında qurulmuş modelin düyünlərində alınmış verilənlər cədvəl 3-də təsvir edilmişdir.



Şəkil 2. IEEE 9 düyünlü sxemin yük axınları

Cədvəl 3. Proqram təminatının təqdim etdiyi düyünlərdə gərginlik dəyişməsi.

№	Nom gərginlik, kV	Gərginlik, kV	Faizlə ifadə, %	Bucaq	Yük, MVt	Yük, MVAR	Generator, MVt	Generator, MAR
1	138	142.1	3%	0			281.08	6.51
2	138	141.8	3%	-4.69	20	10	80	250
3	138	137.1	-1%	-6.09	25	15	0	0
4	138	133.1	-4%	-7.8	10	5		
5	138	128.7	-7%	-9.36	100	50		
6	138	131.4	-5%	-7.82	120	80		
7	138	137.7	0%	-4.96	10	5	120	100
8	138	137.5	0%	-2.33	80	60		
9	138	135.8	-2%	-6.14	100	80		

Cədvəl 4-də FACTS qurğuları ötürmə xəttinə qoşulma sxeminə və tərkibinə görə təsnif olunmuşdur.

Cədvəl 4. FACTS qurğularının təsnifatı.

FACTS idarəetmə qurğularının ötürmə xəttinə qoşulma sxemləri			
Ardıcıl	Paralel	Kombinə edilmiş ardıcıl-ardıcıl	Kombinə edilmiş paralel-paralel
Tristorla idarə olunan ardıcıl kondesator (TCSC)	Tristorla idarə olunan Statik VAR kompensator (TCSVC)	Xətlər arası güc axının tənzimləyicisi (İPFC)	Vahid enerji axını tənzimləyicisi (UPFC)
Statik sinxron ardıcıl kompensator (SSSC)	Statik kompensator (STATCOM)		

Tədqiqat işində elektrik veriliş xəttinin ötürücülük qabiliyyətini artımaq üçün tristorla idarə olunan ardıcıl kondesator əsaslı (TCSC) FACTS qurğusunun sistemə daxil edilməsi modelləşdiriləcəkdir.
TCSC-nin ötürücü xəttdə olduğu və olmadığı halda aşağıdakı düsturlarla təyin olunur.

$$\Delta y_{ij} = y_{ij} - y_{ij\,(TCSC)} = \left(g_{ij} + jb_{ij}\right) - \left(g_{ij} + jb_{ij}\right)_{TCSC}$$

$$g_{ij} = \frac{r_{ij}}{\sqrt{r_{ij}^2 + x_{ij}^2}} \qquad b_{ij} = -\frac{x_{ij}}{\sqrt{r_{ij}^2 + x_{ij}^2}}$$

$$g_{ijTCSC} = \frac{r_{ij}}{\sqrt{r_{ij}^2 + (x_{ij} + x_c)^2}} \qquad b_{ijTCSC} = -\frac{x_{ij} + x_c}{\sqrt{r_{ij}^2 + (x_{ij} + x_c)^2}}$$

Dəyişən cərəyan elektrik veriliş xətti ilə ötürülən güc elektrik veriliş xəttinin uclarındakı gərginlikdən, gərginlik vektoru arasındakı bucaqdan və xəttinin ümumi reaktiv müqavimətindən asılıdır. Belə xəttlə ötürülən gücün idarə olunması xəttin uclarında gərginliyin stabilləşdirilməsi, xəttin

ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL

ümumi reaktiv müqavimətinin və ya gərginlik vektorları arasındakı bucağın dəyişdirilməsi yolu ilə mümkündür:

$$P_{ij} = \frac{U_i U_j}{X_{ij}} \sin(\delta_i - \delta_j) \quad Q_i = \frac{U_i (U_i - U_j \cdot \cos\delta)}{X_{ij}}; \quad Q_j = \frac{U_j (U_j - U_i \cdot \cos\delta)}{X_{ij}}$$


burada U_i, U_j – xəttin uclarında gərginliklər; X_{ij} – xəttin ümumi reaktiv müqaviməti; $\delta=\delta_i - \delta_j$ isə – U_i və U_j vektorları arasındakı bucaqdır.

Elektrik verilişinin işinin idarə olunması üçün güc elektronikası bazasında işlənib hazırlanmış qurğular eyni zamanda yuxarıdakı kəmiyyətlərin hər üçünə (U, X_L, δ) təsir etməyə və nəticədə enerji sisteminin işinin effektivliyinin yüksəlməsinə və rejimlərinin çevik idarə olunmasına imkan verir. Bundan əlavə FACTS qurğuları bu parametrləri cəld və effektiv üsulla tənzimləyə bilir ki, nəticədə bu qurğulardan idarəetmədə dinamik elementlər qismində istifadə olunur [4-8, 9-11].

Elektrik verilişinin işinin idarə edilməsi üçün güc elektronikası bazasında qurğuların tətbiqi gərginliyin stabilləşməsinə, alçaq tezlikli rəqslərin sönməsinə, statik və dinamik dayanıqlığın artırılmasına, güc axınlarının paylanmasının optimallaşmasına, nəticədə isə şəbəkənin yük buraxma qabiliyyətinin artmasına və itkilərin azalmasına səbəb olur. Modelləşdirmədə IEEE 9 düyünlü test sxemində ardıcıl birləşdirilmiş FACTS qurğusu istifadə ediləcəkdir.

Metodlar

Modelləşdirmədə sxemin ən çox yüklənmiş xəttinə ardıcıl biləşdirilmiş FACTS qurğusunun qoşulması nəzərdə tutulmuşdur. Bunun üçün şəkil 4-də modeldə elektrik veriliş xətlərinin yüklənmə faizinə uyğun yük axınlarına diqqət yetirək.



Şəkil 4. Elektrik veriliş xəttinin yüklənmə faizləri


ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL
E-ISSN: 2674-5224
VOLUME 32 ISSUE 09 2023

Ən çox yüklənmiş 4 elektrik veriliş xəttinin yüklənmə qiymətləri cədvəl 5-də verilmişdir. Ən çox yüklənmə faizi olan 2 xəttə FACTS qurğusunun qoşulmasını və FACTS qurğusu olan vəziyyətdə modelin qərarlaşmış rejiminin hesablanmasını həyata keçirək.

Cədvəl 5. İEEE 9 düyünlü test sxemində ən çox yüklənmiş 4 elektrik veriliş xətti.

Düyündən	Düyünə	Aktiv güc, MVt	Reaktiv güc, MVAR	Yüklənmə faizi
1	2	147.45	-38.26	76%
		143.52	49.58	
1	8	133.54	44.74	70%
		130.92	-38.31	
2	9	110.61	125.89	84%
		109.02	-118.19	
7	6	125.72	61.41	70%
		122.77	-52.92	

Şəkil 5-də 2-9 düyünlərini birləşdirən və 84 % yüklənmiş elektrik veriliş xəttinə, 1-2 düyünlərini biləşdirən və 76 % yüklənmiş elektrik veriliş xəttinə ardıcıl birləşdirilmiş FACTS qurğusunun qoşulmasından sonrakı nəticələr verilmişdir. Nəticədə xətlərin yük götürmə qabiliyyəti artmış, düyünlərdə gərginlik səviyyəsi yaxşılaşmış, ötürücü xətlərin səmərəliliyi yüksəlmişdir.



FACTS

ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL


Şəkil 5. FACTS qurğusu qoşulduqdan sonra hesablanmış qərarlaşmış rejim

Modelləşdirmənin nəticələrinə əsasən ən çox yüklənmiş xətlərə FACTS qurğusunun qoşulmasından əvvəlki və sonrakı vəziyyətlərdə ötürmə parametləri cədvəl 6-da verilmişdir.


Cədvəl 6. FACTS qurğusu qoşulmazdan əvvəl və sonra elektrik veriliş xətlərinin güc parametrləriş

Düyündən	Düyünə	FACTS qurğusuz			FACTS qurğusu ilə		
		Aktiv güc, MVt	Reaktiv güc, MVAR	Yüklənmə faizi, %	Aktiv güc, MVt	Reaktiv güc, MVAR	Yüklənmə faizi, %
1	2	147.45	-38.26	76%	85.94	-20.69	44%
		143.52	49.58		84.62	24.19	
1	8	133.54	44.74	70%	104.84	43.01	57%
		130.92	-38.31		103.14	-38.96	
2	9	110.61	125.89	84%	69.8	67.14	48%
		109.02	-118.19		69.26	-64.76	
7	6	125.72	61.41	70%	117.07	59.67	66%
		122.77	-52.92		114.53	-52.42	

FACTS qurğusu qoşulduqdan sonra yüklənmə faizi azalan elektrik veriliş xəttinin yük götürmə qabiliyyəti artmışdır. Əlavə işlədicilər qoşulsa belə sistem dayanıqlığını saxlayacaqdır. FACTS qurğusu sxemə əlavə edilərkən şəkil 6-da verilmiş aşağıdakı parametrlərdən istifadə edilmişdir.



ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL
E-ISSN: 2674-5224
VOLUME 32 ISSUE 09 2023



Şəkil 6. FACTS qurğusunun əlavə edilmə parametrləri

Cədvəl 7-də modelləşdirmə zamanı TCSC (Tristorla idarə olunan ardıcıl kondansator) ardıcıl biləşdirilmiş FACTS qurğusunun ötürmə xəttinə göstəridiyi təsir göstəriciləri verilmişdir.

Cədvəl 7. TCSC FACTS qurğusunun göstəriciləri

Düyündən	Düyünə	X $_{per}$, (µH)	I_0 %	I_{lim} %	Max % of Line X	X_{inj} (µH)	I_0 (A)	I_{lim} (A)
1	2	47	90	100	30	0	1058.06	1175.62
2	9	47	90	100	30	0	1058.06	1175.62

Power World proqram təminatında şəbəkəyə TCSC (Tristorla idarə olunan ardıcıl kondansator) FACTS qurğusu qoşduqdan sonra düyünlərdəki gərginlik dəyişməsi cədvəl 8-də vermişdir.

Cədvəl 8. FACTS qurğusu qoşduqdan sonra düyünlərdəki gərginlik dəyişməsi

№	Nom gərginlik, kV	Gərginlik, kV	Faizlə ifadə,%	Bucaq	Yük, MVt	Yük, MVAR	Generator, MVt	Generator, MAR
1	138	142.14	3%	0			276.72	1.63
2	138	141.706	3%	-2.71	20	10	80	250
3	138	137.398	0%	-4.1	25	15	0	0
4	138	133.89	-3%	-5.75	10	5		
5	138	130.116	-6%	-7.25	100	50		
6	138	133.433	-3%	-5.7	120	80		
7	138	139.38	1%	-3.14	10	5	120	91.66
8	138	138.156	0%	-1.76	80	60		
9	138	138.449	0%	-3.65	100	80		

Cədvəl 9. Düyünlərdə gərginlik dəyişməsinin müqayisəsi.

Düyün	FACTS qurğusuz gərginlik düşgüsünün faizi	FACTS qurğusu daxil edildikdə gərginlik düşgüsünün faizi
1	3%	3%
2	3%	3%
3	-1%	0%
4	-4%	-3%
5	-7%	-6%
6	-5%	-3%
7	0%	1%
8	0%	0%
9	-2%	0%

Nəticə

FACTS qurğusunun mövcudluğu və olmadığı hal üçün düyünlərdə gərginlik dəyişməsinin müqayisəli təhlilindən (cədvəl 9) göründüyü kimi FACTS qurğusu düyünlərdə olan gərginlik düşgüsünü yaxşılaşdırmış və sistemin dayanıqlığını artırmışdır. Həmçinin ən çox yüklənmiş elektrik veriliş xətlərinin yüklənməsi xeyli azalmışdır. Yüklənmə 1 – 2 düyünlər arası xəttdə 76 %-dən 44 %-ə, 1 – 8 düyünlər arası xəttdə 70 %-dən 57 %-ə, 2 – 9 düyünlər arası xəttdə 84 %-dən 48 %-ə, 7 – 9 düyünlər arası xəttdə 70 %-dən 66 %-ə düşmüşdür.

Beləliklə, Power World proqram təminatında elektrik şəbəkələrini modelləşdirərək ən çox (yaxud çox az) yüklənmiş hissələri təyin etmək, həmin hissələrə FACTS qurğularını daxil etməklə elektrik enerjisinin göstəricilərini yaxşılaşdırmaq olar. Bundan əlavə qoşulma sxeminə və tərkibinə görə hansı qurğunun şəbəkəyə daha yaxşı təsir etməsini müqayisə ilə müəyyənləşdirmək mümkündür.

ƏDƏBİYYAT

1. Vanishree, J.; Ramesh, V. Optimization of Size and Cost of Static VAR Compensator using Dragonfly Algorithm for Voltage Profile Improvement in Power Transmission Systems.// Int. J. Renew. Energy Res.- 2018, pp. 8, 56–66.
2. Merah, H.; Gacem, A.; Ben Attous, D.; Lashab, A.; Jurado, F.; Sameh, M.A. Sizing and Sitting of Static VAR Compensator (SVC) Using Hybrid Optimization of Combined Cuckoo Search (CS) and Antlion Optimization (ALO) Algorithms. Energies.- 2022, pp.15, 4852. [CrossRef]
3. Rambabu, M.; Kumar, G.V.N.; Sivanagaraju, S. An intermittent contingency approach with optimal placement of static VAR compensator in a renewable-integrated power systems.// Int. J. Ambient Energy.- 2021, pp. 42, 1551–1561. [CrossRef]
4. Biswas, P.P.; Arora, P.; Mallipeddi, R.; Suganthan, P.N.; Panigrahi, B.K. Optimal placement and sizing of FACTS devices for optimal power flow in a wind power integrated electrical network. //Neural Comput. Appl.- 2021, pp. 33, 6753–6774. [CrossRef]
5. Balachennaiah, P.; Reddy, P.H.; Raju, U.N.K. A novel algorithm for voltage stability augmentation through optimal placement and sizing of SVC. /In Proceedings of the IEEE

International Conference on Signal Processing Informatics Communication and Energy Systems (SPICES), Kozhikode.- India, 19–21 February 2015; pp. 1–5.
6. Pertl, M.; Weckesser, T.; Rezkalla, M.M.; Marinelli, M. Transient stability improvement: A review and comparison of conventional and renewable-based techniques for preventive and emergency control. Electr. Eng.- 2017, pp. 100, 1701–1718. [CrossRef]
7. Barrios-Martínez, E.; Ángeles-Camacho, C. Technical comparison of FACTS controllers in parallel connection.// J. Appl. Res. Technol. -2017, pp. 15, 36–44. [CrossRef]
8. Gandoman, F.H.; Ahmadi, A.; Sharaf, A.M.; Siano, P.; Pou, J.; Hredzak, B.; Agelidis, V.G. Review of FACTS technologies and applications for power quality in smart grids with renewable energy systems.// Renew. Sustain. Energy Rev.- 2018, pp. 82, 502–514.[CrossRef]
9. Katsivelakis, M.; Bargiotas, D.; Daskalopulu, A. Transient Stability Analysis in Power Systems Integrated with a Doubly-Fed Induction Generator Wind Farm./ In Proceedings of the 2020 11th International Conference on Information, Intelligence, Systems and Applications, Piraeus.- Greece, 15–17 July 2020; pp. 1–7.
10. Pasiopoulou, I.; Kontis, E.; Papadopoulos, T.; Papagiannis, G. Effect of Load modelling on power systems stability studies./ In Proceedings of the 12th Mediterranean Conference on Power Generation, Transmission, Distribution and Energy Conversion MEDPOWER 2020, Virtual, 9–12 November 2020; Institution of Engineering and Technology (IET): Stevenage.- UK, 2021; pp. 435–440.
11. Tina, G.M.; Licciardello, S.; Stefanelli, D. Strategic role of new power generation assets for the security of the future Italian power system. /In Proceedings of the 2019 IEEE International Conference on Environment and Electrical Engineering and 2019 IEEE Industrial and Commercial Power Systems Europe (EEEIC/I&CPS Europe), Genova.- Italy, 10–14 June 2019; pp. 1–6.

МОДЕЛИРОВАНИЕ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ЭЛЕКТРИЧЕСКИХ СЕТЕЙ СОВРЕМЕННЫМИ МЕТОДАМИ

Эльшан Манафов[1], Тофик Ягублу[2], Фарид Гусейнов[3]
[1]Доцент кафедры “Энергетика и автоматика”, доктор философии по технике, elshan_manafov@mail.ru
[2] Главный специалист отдела “Режим энергосистемы”
[3]Преподователь кафедры “Энергетика и автоматика”
[1,3] Национальная Академия Авиации Азербайджана,
[2]Азербайджанский научно-исследовательский и проектно-исследовательский энергетический институт.

РЕЗЮМЕ

В настоящее время развитие электрических сетей в основном сталкивается с двумя проблемами. Образовавшаяся сложная замкнутая и многоуровневая система не может работать без жестких механизмов управления (автоматического управления), дальнейшее развитие системы требует вовлечения новых территорий, что дорого обходится в условиях

введения частной собственности на землю. В текущих условиях весьма перспективной выглядит идеология применения интеллектуальных сетей (Smart Grid), позволяющая обеспечить удобное управление и увеличить пропускную способность сетей. Важным элементом "умных" энергосистем являются гибкие системы передачи переменного тока (Flexible Alternating Current Transmission System - FACTS). На сегодняшний день разработаны и используются различные типы устройств FACTS.

К устройствам FACTS первого поколения (FACTS -1) относятся устройства, обеспечивающие регулирование напряжения (реактивной мощности) и необходимую степень компенсации реактивной мощности в электрических сетях. К устройствам FACTS второго поколения (FACTS-2) относятся устройства, созданные на базе полностью управляемых приборов силовой электроники, которые регулируют параметры режима. Устройства ФАКТ-2 характеризуются возможностью векторного регулирования, заключающегося в регулировании величины и фазы вектора напряжения в узлах электросети. Новый класс управляемых устройств FACTS состоят из распределенных управляемых сетевых устройств (D-FACTS) или "умные" проводов, позволяющих изменять индуктивное сопротивление воздушной линии.

При внесении изменений в сложные системы, такие как электрические сети, теоретический подход требует больше времени, а экспериментальный подход дорого обходится. В связи с этим применение моделирования при внедрении в систему новых устройств значительно облегчает процесс расчета. При моделировании для изучения реального объекта строится аналог его абстрактной копии. Самый простой способ моделирования — имитация. Таким образом обеспечивается наглядность процессов и использование мощности компьютерного оборудования при моделировании. Точность имитационного моделирования зависит от разработанной модели и инструментов моделирования. Применение имитационного моделирования на современных компьютерах позволяет проводить широкое и достаточно глубокое изучение различных технических объектов при отсутствии теоретических или физических инструментов исследования. Провести исследования в этой области возможно путем моделирования включения оборудования FACTS в энергосистему в программе Power World.

В статье было выполнено моделирование 9-узловой схемы по стандарту IEEE (Institute of Electrical and Electronics Engineers) для повышения энергоэффективности, а также составлен расчет установившегося режима с помощью программы Power World. В программе была спроектирована 9-узловая схема на основе значений напряжений в узлах и потоков нагрузки в воздушных линиях и получены изменения напряжения в узлах. Классифицированы устройства FACTS по составу и схеме подключения к ЛЭП, а также обосновано добавление устройства FACTS, последовательно подключаемые к двум наиболее нагруженным линиям электропередачи системы. Сравнивались результаты установившегося режима 9-узловой схемы при наличии и отсутствии устройства. В результате увеличилась пропускная способность линий, улучшился уровень напряжения в узлах, повысился эффективность линий электропередачи. Средство FACTS повысило устойчивость системы.

Программное обеспечение Power World можно использовать для моделирования электросетей, определения наиболее (или наименее) загруженных частей и улучшения показателей электроэнергии путем ввода в эти части устройств FACTS. Кроме того, путем

ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL
E-ISSN: 2674-5224
VOLUME 32 ISSUE 09 2023

сравнения можно определить какое устройство по схеме подключения и составу лучше влияет на сеть.
Ключевые слова: устройства FACTS, установившей режим, 9-узловая тестовая схема IEEE, гибкие управляемые системы передачи, Power World, анализ энергосистемы.

Publication history

Article received: 09.05.2023
Article accepted: 23.05.2023
Article published online: 05.06.2023
DOI suffix: 10.36962/PAHTEI32092023-95

E-ISSN: 2674-5224
109-121 VOLUME 32 ISSUE 09 2023
ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL

CURRENT STATE OF İNNOVATİON ACTİVİTİES İN AZERBAİJAN AND THE İMPORTANCE OF NATİONAL INNOVATİON SYSTEMS (NIS)

Rasul Balayev[1], Tamella Israfilova[2]
[1,2]Azerbaijan State University of Economics, [1,2]International Magistrate and Doctorate Center
[1]Professor, Doctor of economic sciences, r.balayev@gmail.com
[2]Master student, tamellaisrafilova10@gmail.com

ABSTRACT

In today's business world, there is an intense competition between enterprises on the one hand in local markets and on the other hand in international markets. In this intense competitive environment, it is important for businesses to stay one step ahead of their competitors, differentiate themselves, and use new ways and methods to ensure efficiency and growth, and even survive. This situation necessitates the application of innovation for enterprises. Innovation means creating different, new ideas and implementing them. These ideas can be used to solve previously unsolved problems or address previously unmet needs. Or improving an existing product or service to make it better, more useful, and more usable is also considered innovation. It is clear that innovation in enterprises is not only the production of new products and services, but also changes and innovations in existing products or in any process within the enterprise. Because the demand for the products or services of the enterprise increases in the market due to the application of innovation, it leads to a growth in its economic income.
History shows that scientific and technical innovations are the main indicator of modernization and one of the most important factors for the development of society. The leap from agricultural fields to industry and the information society was possible thanks to these innovations. The achievements got thanks to these innovations have given impetus to the improvement of people's quality of life and the creation of a sustainable ecological environment.
Innovations lead to the development of the economy and increase in income. We can see that countries that use effective innovative technologies in industrial fields are more successful and have more increased economic income than countries with a traditional industrial structure. With the application of innovations, methods and technologies are used in the industry that ensure the production of products at a lower price and at a higher quality, which increases the economic efficiency of enterprises. Innovation also enables businesses to enter new markets and reach new customers, which increases the company's revenue by selling more products.
There are many ways to achieve innovation. In particular, it can be achieved through research and development, and the application of new technologies. It is also possible to innovate by using the methods applied by other countries.
In general, in order to provide innovative activities in each country, national innovation systems (NIS) have been created. NIS includes areas where innovation activities will be carried out - the financial system, the education system of schools and universities, agriculture, private sectors, the health system, etc. MIS covers all fields, companies, institutions where innovative activities will be implemented. When analyzing the innovation process within the framework of NIS, the analysis of the relationship between the areas within the system is as important as the study of the institutional structure surrounding the system. Thus, the relations between all areas that make up the system can be seen as the most important factor that gives dynamism to the innovation

process. If the relations between the enterprises and bodies covered by the system are well ensured, the exchange of information and experience between them will increase, and this will create a foundation for them to create new innovative solutions by applying the new knowledge and experience gained.
Examples of the main innovation activities included in NIS include: Implementation of R&D (research and development) activities, ensuring the production of new knowledge in the fields of engineering, medicine and natural sciences; creation of new product markets; creation of enterprises necessary for the development of new areas of innovation or changing existing enterprises to serve this purpose; to provide interactive learning activities and information exchange between enterprises performing innovation activities; activities that act as incubators for new innovative initiatives (eg, purchase of equipment, administrative support); financing of activities enabling the commercialization of innovation processes and data, etc.
In Azerbaijan, many measures are taken in order to solve the main issues related to the application of NIS, to ensure the innovative activities of enterprises. The most important of them are the preparation and implementation of strategic roadmaps for innovations, the creation of high-tech parks, the application of electronic solutions integrated with the ICT infrastructure of education, health, trade, agriculture and other fields. Although many measures have been taken in the field of innovation in Azerbaijan in the last decade, there are still some gaps in this field.
Keywords: innovation, enterprises, economic growth, national innovation systems

AZƏRBAYCANDA İNNOVASİYA FƏALİYYƏTİNİN MÖVCUD DURUMU VƏ MİLLİ İNNOVASİYA SİSTEMLƏRİNİN ƏHƏMİYYƏTİ

Rəsul Balayev[1], Tamella İsrafilova[2]
[1,2]Azərbaycan Dövlət İqtisad Universiteti
[1,2]Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi
[1]Professor, İqtisad elmləri doktoru, r.balayev@gmail.com
[2]Magistr tələbəsi, tamellaisrafilova10@gmail.com

XÜLASƏ

Müasir dövrdə iş dünyasında bir tərəfdən yerli bazarlarda, digər tərəfdən beynəlxalq bazarlarda müəssisələr arasında gərgin rəqabət gedir. Bu gərgin rəqabət mühitində müəssisələrin rəqiblərindən bir addım öndə olması, səmərəliliyi və artımı təmin etmələri və hətta ayaqda qala bilmələri üçün fərqliləşmələri, yeni yol və üsullardan istifadə etmələri vacibdir. Bu vəziyyət müəssisələr üçün innovasiya tətbiqini zəruri edir. İnnovasiya dedikdə fərqli, yeni ideyalar yaradıb onları tətbiq etmək başa düşülür. Bu ideyalar əvvəllər həll olunmamış problemləri həll etmək və ya əvvəllər qarşılanmamış ehtiyaclara cavab vermək üçün istifadə edilə bilər. Ya da artıq mövcud olan məhsulun və ya xidmətin təkmilləşdirilərək daha gözəl, daha faydalı və daha çox istifadəyə yararlı hala salınması da innovasiya hesab olunur. Belə aydın olur ki, innovasiya müəssisələrdə təkcə yeni məhsulların, xidmətlərin istehsalı deyil, həm də mövcud məhsulların üzərində və ya müəssisə daxilində hər hansısa prosesdə dəyişiklik, yenilik etməkdir. Məhz innovasiyanın tətbiqi

sayəsində müəssisənin məhsullarına və ya xidmətlərinə bazarda tələb artdığı üçün bu onun iqtisadi gəlirlərinin artmasına səbəb olur.

Tarix göstərir ki, elmi-texniki innovasiyalar modernləşmənin əsas göstəricisi və cəmiyyətin inkişafı üçün ən mühüm amillərdən biridir. Kənd təsərrüfatı sahələrindən sənayeyə və informasiya cəmiyyətinə sıçrayış məhz bu innovasiyaların hesabına mümkün olmuşdur. Bu innovasiyalar sayəsində əldə olunan nailiyyətlər insanların həyat rifahının yaxşılaşmasına, davamlı ekoloji mühitin yaradılmasına təkan vermişdir.

İnnovasiyalar iqtisadiyyatın inkişafına və gəlirlərinin artmasına səbəb olur. Dünya üzrə sənaye sahələrində effektiv innovativ texnologiyalardan istifadə edən ölkələrin ənənəvi sənaye strukturuna malik ölkələrdən daha çox uğurlu olduğunu və iqtisadi gəlirlərinin artdığını görə bilərik. İnnovasiyaların tətbiqi ilə sənayedə məhsulların daha aşağı qiymətə və daha yüksək keyfiyyətdə hazırlanmasını təmin edən üsullardan və texnologiyalardan istifadə olunur ki, bu da müəssisələrin iqtisadi səmərəliliyini artırır. İnnovasiya sayəsində həmçinin müəssisələrin yeni bazarlara daxil olması və yeni müştərilərə çatması təmin olunur ki, bu da müəssisənin məhsullarının daha çox satışının həyata keçməsinə səbəb olaraq onun gəlirlərini artırır.

İnnovasiyanı əldə etməyin bir çox yolları var. Xüsusilə də, araşdırma və inkişaf, yeni texnologiyaların tətbiqi ilə ona nail olmaq mümkündür. Digər ölkələrin tətbiq etdiyi üsullardan istifadə etməklə də innovasiya etmək mümkündür.

Ümumiyyətlə, hər bir ölkədə innovativ fəaliyyətlərin təmin edilməsi məqsədilə milli innovasiya sistemləri (MİS) yaradılmışdır. MİS özündə innovasiya fəaliyyətlərinin həyata keçiriləcəyi sahələri – maliyyə sistemini, məktəb və universitetlərin təhsil sistemini, kənd təsərrüfatını, özəl sektorları, səhiyyə sistemini və s. birləşdirir. MİS innovativ fəaliyyətlərin həyata keçiriləcəyi bütün sahələri, şirkətləri, institutları əhatə edir. MİS çərçivəsində innovasiya prosesi analiz edilərkən sistemi əhatə edən institusional strukturun tədqiqi qədər sistemin daxilindəki elementlər arasındakı əlaqənin analizi də vacibdir. Belə ki, sistemi təşkil edən bütün sahələr arasındakı əlaqələr innovasiya prosesinə dinamiklik verən ən mühüm amil kimi görünə bilər. Sistemin əhatə etdiyi müəssisələr, orqanlar arasındakı əlaqələr yaxşı təmin olunduğu halda onlar arasında məlumat və təcrübə mübadiləsi artacağı üçün, bu onların əldə olunmuş yeni bilik və təcrübələri tətbiq edərək yeni innovativ həllər yaratmasına zəmin yaradacaqdır.

MİS-in tərkibinə daxil olan əsas innovasiya fəaliyyətlərinə bunları misal göstərmək olar: R&D (araşdırma-inkişaf) fəaliyyətlərinin yerinə yetirilməsi, mühəndislik, tibb və təbiət elmləri sahələrində yeni bilik istehsalının təmin edilməsi; yeni məhsul bazarlarının yaradılması; yeni innovasiya sahələrinin inkişafı üçün zəruri olan müəssisələrin yaradılması və ya mövcud müəssisələrin bu məqsədə xidmət edəcək şəkildə dəyişdirilməsi; innovasiya fəaliyyətini yerinə yetirən müəssisələr arasında interaktiv öyrənmə fəaliyyətini və məlumatlar mübadiləsini təmin etmək; yeni innovativ təşəbbüslər üçün inkubator rolunu oynayana fəaliyyətlər (məs, avadanlıqların alınması, inzibati dəstək); innovasiya proseslərinin və məlumatlarının kommersiyalaşdırılmasına imkan verən fəaliyyətlərin maliyyələşdirilməsi və s.

Azərbaycanda MİS-nin tətbiqinə dair əsas məsələlərin həll olunması, müəssisələrin innovativ fəaliyyətlərinin təmin edilməsi məqsədilə bir çox tədbirlər görülür. Onlardan ən vacibləri innovasiyalara dair strateji yol xəritələrinin hazırlanması və icrası, yüksək texnologiyalar parklarının yaradılması, təhsil, səhiyyə, ticarət, kənd təsərrüfatı və digər sahələrin İKT infrastrukturu ilə inteqrasiya edilərək elektron həllərin tətbiqidir. Azərbaycanda innovasiya sahəsində son onillikdə bir çox tədbirlər görülsə də, hələlik bu sahədə müəyyən qədər boşluqlar var.

Açar sözlər: innovasiya, müəssisələr, iqtisadi artım, milli innovasiya sistemləri.

Giriş

Azərbaycan MDB məkanında ən yaxşı inkişaf etmiş iqtisadiyyata malik ölkələrdən biridir və onun neft-qaz sektoru ölkənin inkişafına öz töhfəsini verərək ölkənin iqtisadi cəhətdən ən əhəmiyyətli hissəsini təşkil edir. Eyni zamanda, neftin qiymətini proqnozlaşdırmaq çətin olduğundan və beynəlxalq iqtisadiyyatda vəziyyət dəyişkən olduğundan innovativ sektor müasir vəziyyətdə böyük rol oynayır. Bu baxımdan, Azərbaycan üçün innovativ iqtisadiyyatın inkişafı əsas prioritetlərdən biridir. Bugün iqtisadiyyatın inkişafı ölkəyə əlavə gəlirlər qazandırmaqla (vergilər vasitəsilə), korporativ sektorlar və özəl sektorlar vasitəsilə yeni və uğurlu sənaye sahələrinin inkişafına töhvə verir. Yenə də bu ssenari iqtisadi qurumlar və ölkənin iqtisadi inkişafının asılı olduğu amillər tərəfindən məhdudlaşdırılır – indiki yenilikçi liderlərin əksəriyyəti ya ölkələrinin innovativ inkişafının təmin edilməsi üçün uzun müddət ərzində innovasiyalara kütləvi şəkildə sərmayə qoyub (eynilə ABŞ və Almaniyadakı kimi), ya da ölkə innovativ iqtisadi sektorun digər sektorları qabaqlamasına səbəb olan inqilabi dəyişikliklərə məruz qalıb (Yaponiya və Çin). Keçmiş SSRİ ölkələrinə, xüsusilə də zəngin sərvətlərə malik Rusiya və Azərbaycana nəzər saldıqda isə görərik ki, bu ölkələrdə iqtisadi inkişaf əsasən neft və qaz kimi təbii sərvətlərə və onların Avropa və Çinlə ticarətinə əsaslanır. (siyasi və logistik vəziyyətdən asılı olaraq). Bu baxımdan bu ölkələrin hər ikisində innovasiyaların gəlirlilik dərəcəsi neft və qaz sənayesinin gəlirlilik dərəcəsindən ümumiyyətlə daha aşağı olduğu üçün innovasiyaların inkişafı adı çəkilən ölkələrdə uğursuzluqla üzləşir (yaxud ən azı son vaxtlara qədər uğursuzluqla üzləşib). Məhz ölkəmizdə qeyri-neft sektorunun inkişafı və bu sahələrdə innovativ fəaliyyətlərin həyata keçirilməsi son illər ən vacib prioritetlərdən biri hesab olunur.

Qloballaşan dünyada sənaye sahələrinin inkişafı dünyanın və milli iqtisadiyyatların iqtisadi artımının təmin edilməsində prioritet məsələlərdən biridir. Üçüncü minilliyin əvvəllərində iqtisadçılar bunu qəbul etdilər ki, cəmiyyətin inkişafında mühüm amil məhz innovasiya prosesləridir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin ümumi daxili məhsulunun 70-90%-ni innovativ fəaliyyətlər təşkil edir. Son illərdə iqtisadiyyatın innovativ inkişafı yeni texnologiyaların, yeni xidmətlərin və idarəetmə sahəsində innovasiyaların daha geniş və səmərəli istifadəsinə əsaslanır. Hər bir dövlətin iqtisadiyyatı elmin və texnologiyanın inkişafı və onların tətbiqi ilə bilavasitə bağlıdır. İnkişaf etmiş ölkələrin iqtisadiyyatının inkişafında əsas məsələlərdən biri ölkələrin innovasiya siyasətinin formalaşmasıdır. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi və innovasiya prosesləri əsas şərtlərdən biridir. Dövlət dəstəyi ölkənin elmi, texniki və innovativ potensialının inkişafı üçün vacibdir.

Məqsəd


Mövzunun aktuallığı və əlaqəli tədqiqatlar. İnkişaf etmiş ölkələrdə innovativ inkişafa keçid milli innovasiya sisteminin yaradılması ilə mümkün olmuşdur. Müvafiq olaraq, hər bir dövlətin iqtisadi gücünü və təhlükəsizliyini təkmilləşdirmək üçün milli innovasiya sisteminin yaradılması zəruri hesab edilmişdir. Dünya təcrübəsindən göründüyü kimi, innovasiya siyasətinə sistematik yanaşma konsepsiyası tətbiq edən ölkələr tez bir zamanda effektiv milli innovasiya sistemi yarada bilər. Müasir dünya iqtisadiyyatının indiki mərhələsində Milli İnnovasiya Sistemlərinin (MİS) formalaşması və inkişafı ölkənin iqtisadi gücünün artmasına və rəqabətədavamlı hala gəlməsini təmin edir. Amma indiyə qədər MİS-in formalaşdırılması Azərbaycanda hələ tamamlanmamışdır və Azərbaycanda innovasiya fəaliyyətləri ölkənin iqtisadi artımının əsas göstəricisi deyil.

Azərbaycanın iqtisadi artımı əsasən neft və qaz kimi təbii sərvətlərin ixracı hesabına təmin edilir. Bu məhsulların ixracı ölkənin ümumi ixracının 90%-ni təşkil edir, bu da öz növbəsində ölkə iqtisadiyyatını dünya bazarında xammal qiymətlərindən asılı hala salır və ölkədə texnologiya sahəsinin inkişafını ləngidir. Bu tip inkişaf strategiyası Azərbaycan Respublikasının mövcud innovasiya potensialına mənfi təsir göstərir. Bu cür resurs-əsaslı iqtisadi model təhsil səviyyəsinin yüksəldilməsi, R&D inkişafı, yüksək texnologiyalı sənaye sahələrinin yaradılması və inkişaf etdirilməsi, həmçinin kənd təsərrüfatı, nəqliyyat, logistika və digər sahələrin təkmilləşdirilməsi ilə dəyişdirilməlidir.
İnkişaf məqsədilə Azərbaycan elmi-texniki potensialını qlobal iqtisadiyyata və qlobal elmi-texniki arenaya inteqrasiya etdirməlidir. İnkişaf etmiş ölkələrin inkişaf səviyyələri ilə aradakı fərqi azaltmaq üçün yeni biliklər və texnologiyalar mənimsənilməli, eləcə də dövlətin MİS-nin tərtibinin tamamlanması və daimi inkişafının təmin edilməsi həyata keçirilməlidir.

Metodlar

Azərbaycanın ÜDM-nin tərkibinin və əsas iqtisadi institutlarının təhlili. Azərbaycanda innovativ sənayelərə keçid demək olar ki, son onillikdə həyata keçirilmişdir. Bu vaxta kimi isə ölkədə yalnız ənənəvi sənaye sahələri yer almışdır. Azərbaycan üçün ənənəvi sənaye dedikdə karbohidrogenlərin (neft və qaz) hasilatı ilə əlaqəli sənayelər nəzərdə tutulur, halbuki innovativ sənaye milli iqtisadiyyatın bütün sektorlarına nüfuz edən sənayedir. Azərbaycanda innovativ səayelərin durumunu qiymətləndirmək üçün ilk öncə ənənəvi sənayenin və innovativ sənayelərin əldə etdiyi ÜDM-ni müqayisə etməyə ehtiyac var. Dövlət Statistika Komitəsinin 2018-ci il üzrə hesabatının aşağıdakı qrafikdə təsvirindən də görə bilərik ki, neft-qaz sektorunda əldə olunan gəlirlər ÜDM-nin böyük hissəsini təşkil edib. Qrafik ÜDM-nin əsas komponentlərinin 2018-ci ilə qədər olan dinamikasını inkişaf etdirir. Bu dinamikalar qeyri-xəttidir və milli iqtisadiyyatın mənbəyi olan neft-qaz sektorundan kütləvi şəkildə asılıdır. Qrafikdən də aydın olur ki, neft və qaz sektorunun gəlirlərinin artması və azalması ilə ÜDM-də sapmalar olur, lakin digər iki sektor öz dinamikasını qoruyub saxlayır.

Qrafik. Azərbaycan iqtisadiyyatının əsas sektorlarının dinamikası.



Mənbə: Global Innovation Index, 2018

Ölkədə ÜDM-yə töhfə verən ikinci ən böyük sahə qeyri-neft sektorudur və o, ölkə iqtisadiyyatının innovativ inkişafına təkan verən əsas amil hesab edilə bilər. Azərbaycan iqtisadiyyatının innovasiyalar yaratmaq üçün yalnız bir yolu var - qeyri-neft sektorunu yeni məhsullar istehsal etməyə sövq etmək. Eyni zamanda, ölkənin innovativ inkişafına töhfə verən digər əsas amilləri də qeyd etməkdən qaça bilmərik:

1) Neft qiymətlərinin yüksək dəyişkənliyi. Bu amil milli iqtisadiyyatın ənənəvi sektorlarında xərclərin artmasına və mənfəətin azalmasına gətirib çıxarır və korporasiyaları öz bizneslərini şaxələndirməyə məcbur edir.
2) İxracın şaxələndirilməsi zərurəti. Ölkə iqtisadiyyatı innovativ inkişafa keçid vəziyyətində olsa da, bu proses üçün lazım olan maliyyə resursları əhəmiyyətlidir, ona görə də onları ixracın artımı ilə əldə edilən ticarət profisiti hesabına əldə etmək olar. Neftin qiymətinin dəyişkənliyi səbəbindən sabit maliyyə axınını yalnız ixracın şaxələndirilməsi yolu ilə əldə etmək olar.
3) Potensial sosial iğtişaşlar. Azərbaycan vətəndaşının yüksək gəlirləri və qonşuları ilə müqayisədə daha yüksək orta gəliri gəlir artım dinamikasının aşağıya doğru dəyişdiyi halda narazılığa səbəb olur. Mənfi sosial təsirlərin qarşısını almaq üçün ölkə hökuməti əhalinin gəlirlərinin dinamikasını qorumaq üçün yollar axtarmağa məcburdur – mümkün yollardan biri innovativ iqtisadiyyatın inkişafıdır.

Bütün qeyd olunan bu amillər Azərbaycanda innovasiyaların inkişafına kömək edir, eyni zamanda korporasiyalar və əhali tərəfindən innovasiyaların artmasına səbəb olur. Beləliklə, iqtisadiyyatın bütün əsas tərəflərinin (dövlət, korporativ və özəl sektor) maraqları eynidir - onların hamısı iqtisadiyyatın innovativ inkişafını dəstəkləyir.

Azərbaycanda innovasiya fəaliyyətinin mövcud durumu.

Azərbaycanda innovasiyanın inkişafı hökumətin bəzi struktur orqanlarına həvalə edilmişdir və R&D inkişafı və innovasiya fəaliyyətlərinə dəstək məhdud kontekstdə onların arasında səpələnmişdir. Ölkədə elm və texnologiya siyasətini həyata keçirən əsas orqan Azərbaycan Milli Elmlər Akademiyasıdır (AMEA). Azərbaycan Respublikasının qüvvədə olan qaydalarına əsasən, milli elmi fəaliyyətlərin təşkili və idarə olunması və elm və texnologiya siyasətinin istiqamətlərinin müəyyənləşdirilməsi AMEA-ya həvalə olunub. Akademiyanın əsas fəaliyyət istiqamətlərinin maliyyələşdirilməsi Azərbaycanın dövlət
büdcəsinin hesabına yerinə yetirilir.

Akademiyanın əsas strukturlarından biri də 8 noyabr 2016-cı ildə yaradılmış Azərbaycan Milli Akademiyasının Yüksək Texnologiyalar Parkıdır. Yüksək Texnologiyalar Parkının yaradılmasında əsas məqsəd: davamlı iqtisadi inkişaf və rəqabətliliyin artırılmasında dövlət dəstəyinin artırılması, innovasiyanın və elmi-texniki sahələrin inkişaf etdirilməsi, yeni texnologiyaların yaradılması və inkişafı üçün müasir komplekslərin yaradılmasıdır. AMEA-nın Yüksək Texnologiyalar Parkı əhəmiyyətli infrastruktura, logistikaya və innovasiya məhsullarının və yüksək texnologiyaların yaradılması və təkmilləşdirilməsi üçün elmi-tədqiqat və tətbiq işlərinin aparılmasını təmin edən idarəetmə institutlarına malik məkandır.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi standartlaşdırma, metrologiya və keyfiyyətə nəzarət sahələrində tənzimləmələri həyata keçirən, eləcə də sənaye mülkiyyəti hüquqlarının qorunmasını yerinə yetirən mərkəzi icra hakimiyyəti orqanıdır. Onun funksiyalarının çoxu ölkənin innovasiya fəaliyyəti mühitinə birbaşa təsir göstərir.

Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi 24 noyabr 2016-cı il tarixində yaradılmışdır və bu agentlik müəllif hüquqları, əlaqəli hüquqlar, əqli mülkiyyət hüquqları sahələrinin inkişafını təmin edir, bu sahələrdə tənzimləmə və nəzarəti həyata keçirir və müvafiq olaraq onların fəaliyyətini bir-biri ilə əlaqələndirir.

Rəqəmsal İnkiaşf və Nəqliyyat Nazirliyi innovasiyaların təşviqində rolu olan daha bir ictimai qurumdur. Onun əsas funksiyaları informasiya və kommunikasiya texnologiyaları (İKT), nəqliyyat və yüksək texnologiyalar (informasiya texnologiyaları, mikroelektronika, nanotexnologiyalar, biotexnologiyalar) sahələrində dövlət siyasəti və tənzimləmələri formalaşdırmaq və tətbiq etməkdir. Bu qurumun vacibliyi son illərdə İKT-nin ölkənin siyasi qovluğuna daxil olması səbəbilə artmışdır və onun inkişafı Azərbaycanın uzun müddətli strateji məqsədinə daxildir.

"İnnovasiyalar Mərkəzi" Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinə daxil olan dövlət qurumudur. Bu mərkəz sosial innovasiyalar yaratmaq üçün və ictimai xidmətlər daxilində innovativ həllər təqdim etmək məqsədilə dövlət orqanları, akademik dairələr və beynəlxalq biznes qurumları ilə yaxından işləmək üçün yaradılmışdır. "İnnovasiyalar Mərkəzi" informasiya texnologiyalarının tətbiqi və müəssisələrə müxtəlif texniki dəstəyin göstərilməsi, innovativ həllərin təqdimatı, informasiya sistemlərinin yaradılması və inkişafı və geniş həcmdə təlimlər və seminarların təşkil edilməsi kimi fəaliyyətləri əhatə edir. Bu mərkəz dövlət orqanları və biznes sektoru subyektləri arasında əməkdaşlığın genişləndirilməsini dəstəkləyir və innovativ ideyaların işlənib hazırlanması və həyata keçirilməsi üzrə texniki imkanlar və təcrübəyə malikdir.

Azərbaycan Respublikasında Milli İnnovasiya Sistemlərinin performans səviyyəsi və tənzimləyici aspektləri.

Empirik tədqiqatlara əsasən, neft və qazla zəngin olan ölkələrin iqtisadi artımı inkişaf etmiş ölkələrin iqtisadi artımından geridədir (misal üçün, 1960-2006-cı il periodunda neft-qazla zəngin ölkələrin iqtisadi artım gücü 1.67%, qeyri-neft ölkələrininki isə 1.76% idi) və davamlı iqtisadi inkişafa nail olmaq üçün ölkədə innovasiya fəaliyyətlərini inkişaf etdirməyə ehtiyac var. Bu baxımdan Azərbaycanın iqtisadi inkişaf strategiyasının əsas məqsədi qeyri-neft sektorlarının inkişafı və davamlı iqtisadi artıma nail olmaq üçün iqtisadiyyatın şaxələndirilməsi olmalıdır. Bu məqsədlə ölkənin rəsmi sənədlərində innovasiyaların həyata keçirilməsi üzrə bəzi güclü motivasiya mexanizmləri yer almalıdır. Ölkədə innovasiyaların tətbiqi
iqtisadi artıma müsbət təsir göstərir və o, iqtisadi yüksəlişin əsas amillərindən biridir. Qeyd etmək lazımdır ki, yeni innovasiyalar mövcud məhsulların təkmilləşdirilməsi və ya yeni biliklər üzərində yeni məhsulların və ya biznes modellərinin yaradılması ola bilər. Azərbaycanda milli innovasiya fəaliyyətlərinin səviyyəsi digər MDB ölkələri ilə müqayisədə aşağıdır.

Məlum olduğu kimi, innovasiyalar investisiya, institutlar, insan kapitalı, mövcud infrastruktur və biznes mühiti kimi vacib faktorlara əsaslanır. Bu baxımdan aşağıdakı cədvəl Azərbaycanda innovasiyanın əsas indikatorlarını göstərir.

Cədvəl. Azərbaycan Respublikasında innovasiya üzrə əsas göstəricilər

Indikatorlar	Xal/Dəyər (0-100)	Sıra
1. İnstitutlar	58.9	71
1.1. Siyasi mühit	42.4	88

1.2. Tənzimləyici mühit	55.9	94
1.3. Biznes mühiti	78.3	38
2. İnsan kapitalı və tədqiqat	18.4	100
2.1. Təhsil	21.7	119
2.1.1. Təhsilə çəkilən xərclər, % ÜDM	3.0	102
2.2. Ali təhsil	28.6	73
2.3. Tədqiqat və inkişaf (R&D)	5.0	79
3. İnfrastruktur	44.4	66
3.1. İnformasiya və kommunikasiya texnologiyaları (İKT)	64.4	49
3.2. Ümumi infrastruktur	29.5	101
3.3. Ekoloji davamlılıq	39.4	56
4. Bazarın təkmilləşməsi	55.4	26
4.1. Kredit	34.4	69
4.2. İnvestisiya	75.0	3
4.3. Ticarət, rəqabət və bazar miqyası	57	76
5. Biznesin təkmilləşməsi	24.8	96
5.1. Bilik mühəndisləri	28.0	83
5.2. İnnovasiya əlaqələri	24.9	77
5.3. Biliyin mənimsənilməsi	21.6	96
5.3.1., Əqli mülkiyyət ödənişləri % ümumi ticarət	0.1	99
5.3.2., Yüksək texnologiyalı xalis idxal % ümumi ticarət	3.0	121
6. Bilik və texnologiya nəticələri	17.1	89
6.1. Biliklərin yaradılması	3.6	108
6.2. Biliklərin təsiri	19.8	110
6.3. Biliyin yayılması	27.8	37
6.3.2. Yüksək texnologiyalı xalis ixrac, % ümumi ticarət	0.1	114
6.3.3. IKT xidmətləri ixracı, % ümumi ticarət	0.5	102
7. Kreativ nəticələr	22.9	87
7.1. Qeyri-maddi aktivlər	39.0	70
7.2. Kreativ məhsullar və xidmətlər		
7.3. Onlayn kreativlik		

Mənbə: The Global Innovation Index 2018

Yuxarıdakı cədvəllərdə göstərilən göstəricilər Azərbaycanda elmi-tədqiqat və innovasiyaların dəstəklənməsi üçün qənaətbəxş deyil. Lakin Azərbaycan hökuməti innovasiyaların inkişafında maraqlıdır, məhz bu məqsədlə Azərbaycanda Texnologiyalar Parkları yaradılmışdır:

- Sumqayıt Texnologiyalar Parkı regionda yaradılmış qabaqcıl texnologiya parkı olaraq müxtəlif sahələr üzrə müəssisələrin kompleksidir. Bütün istehsal obyektləri Avropada istehsal olunmuş ən yaxşı texnoloji avadanlıqlarla təchiz olunmuşdur. Həmçinin, bütün fabriklər Qərbi Avropada istehsal olunmuş və AZS ISO/IEC 17025-2009 üzrə akkreditə olunmuş ən müasir laboratoriyalarla təchiz olunmuşdur. İstehsal olunan məhsullar ISO 9001 və OHSAS 18001 dərəcəsinə malik Keyfiyyətin İdarəolunması Sisteminin sertifikatına malikdir.
- Mingəçevir Yüksək Texnologiyalar Parkı investorlar üçün çox sərfəlidir. Həmçinin hökumət tərəfindən texnologiyalar parkına tətbiq edilən maliyyə və vergi güzəştləri gənc sahibkarlar üçün geniş imkanlar yaradır.

Bununla bağlı İqtisadiyyat Nazirliyi ölkənin müxtəlif bölgələrində bu cür oxşar parkların yaradılmasını planlaşdırır.
Ölkədə innovasiyanın inkişafı məqsədilə dövlət proqramları və normativ hüquqi aktlar haqqında qanunlar da hazırlanıb:

- İKT-nin inkişafı üzrə Dövlət Proqramı (2005-2008)
- Milli informasiya və kommunikasiya texnologiyaları strategiyası (2003-2012)
- Regional innovasiya zonasının yaradılması
- Yanacaq və enerji kompleksinin inkişafı üzrə Dövlət Proqramı (2005-2015)
- Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə üzrə Dövlət Proqramı
- Gənclərin xaricdə təhsil alması üçün təqaüd proqramı
- Azərbaycan Respublikasının Elm Qanunu (2016)
- Milli iqtisadiyyat və əsas sektorlar üzrə İnkişaf Konsepsiyası və Strateji Yol Xəritələri (2016)
- Azərbaycan Milli Təhsilinin İnkişaf Strategiyası (2011-2021)
- İnformasiya cəmiyyətinin inkişafı üzrə milli strategiya (2014-2020)
- İnkişaf konsepsiyası: “Azərbaycan 2020: Gələcəyə Baxış”
- Azərbaycan Respublikasında Sənayenin inkişafına dair Dövlət Proqramı (2015-2020)

Yuxarıda qeyd olunan sənədlər arasında ən vacibi İnkişaf konsepsiyası: “Azərbaycan 2020: Gələcəyə Baxış” və Elm Qanunudur. “Azərbaycan 2020: Gələcəyə Baxış” konsepsiyasında göstərilir ki, uzun müddətli iqtisadi inkişafı təmin etmək, biliklərə əsaslana iqtisadiyyat formalaşdırmaq və elm tutumlu texnologiyanın və məhsulların istehsalının sürətləndirilməsi üçün innovativ fəaliyyətlərin genişləndirilməsi əsas sahələrdən biri olacaq.
Həmçinin ölkəmizdə elmi fəaliyyətlərin təşkil və idarə olunması, o cümlədən elmin, elmi innovasiya fəaliyyətlərinin inkişaf etdirilməsi məqsədilə 14 iyun 2016-cı ildə Azərbaycan Respublikasının Elm Qanunu qəbul olundu.
Azərbaycanda innovasiya siyasəti təşəbbüsləri sistematik yanaşmanı izləmir. Son onillikdə bir çox dövlət proqramlarında innovasiya fəaliyyətləri nəzərdən keçirilib. Azərbaycanda innovasiya siyasəti, innovasiya idarəçiliyi qismən və qeyri-bərabər şəkildədir. Beynəlxalq səviyyədə qəbul edilmiş təcrübəyə əsasən innovasiya siyasətinin inkişafı bəzi qaydalara uyğun olmalıdır:

- İnnovasiya siyasətlərinin uyğunluğu;
- İnnovasiyaya şərait yaradan tənzimləyici bazanın saxlanması
- İnovativ müəssisələrin və innovasiya sistemlərində yaxşı fəaliyyət göstərən interfeyslərin yaradılmasını və inkişaf etdirilməsini təşviq etmək.

Yuxarıda qeyd olunan şərtlərin bir çoxu hələ də Azərbaycanda həyata keçirilməyib, amma onları inkişaf etdirmək üçün potensial var. Əlavə olaraq, elmi və texnoloji proqnozlaşdırma kimi uzun müddətli strateji hədəflərin formalaşması üçün beynəlxalq təcrübədə qazanılmış yanaşmalar da sistemli şəkildə aparılmamışdır. Bunun əsas səbəblərindən biri siyasətçilərin bu yanaşmaların vacibliyindən çox xəbərdar olmamasıdır. Məhz innovasiya siyasətlərinin tənzimlənməsi məqsədilə 2004-cü ildə AMEA-nın nəzdində Azərbaycan Respublikası Elmi Tədqiqat Koordinasiya Şurası yaradıldı. Şuranın əsas fəaliyyət istiqamətlərinə daxildir: elmi tədqiqatların və təhsil institutlarının əsaslı araşdırılmasının aparılması və elmi-texniki proqramların inkişafına dair fəaliyyətlərin koordinasiyası; elmin və innovativ inkişafın yeni istiqamətlərini müəyyənləşdirmək və onların həyata keçirilməsi üçün elmi əsasların yaradılması; elmi, texnoloji və sosial-iqtisadi inkişafın əsas problemləri üçün R&D-nin təşkil olunması; elmi və texnoloji

nailiyyətlərin istifadəsinin təmin edilməsi. Həmçinin əsasnaməyə görə, Şura ölkə üzrə tədqiqatın gələcək istiqamətlərini müzakirə və təsdiq etməli və bütün tədqiqat institutlarının və universitetlərin fəaliyyətlərini koordinasiya etməlidir.

İnnovasiyaların və elmi-tədqiqat işlərinin maliyyələşdirilməsinin əsas hissəsini dövlət sektorundan gələn maliyyə dəstəyi təşkil edir. Müxtəlif nazirliklərin tərkibinə daxil olan elmi-tədqiqat institutlarının maliyyələşdirilməsi isə elə həmin nazirliklərin büdcəsi hesabına həyata keçirilir.

R&D layihəsinin maliyyələşdirilməsi ilkin mərhələdədir. 2009-cu il 21 oktyabrda dövlət milli elmi fəaliyyətlərin stimullaşdırılması məqsədilə Elmi İnkişaf Fondunu yaratdı. Fond elmin bütün sahələrində tədqiqat layihələrini dəstəkləyir. Maliyyələşdirmə həm fundamental, həm də tətbiqi layihələrə şamil edilir və zəruri avadanlıqların alınmasına imkan verir. O, alimlərin konfranslarda iştirakı üçün xarici ölkələrə səyahət etmələri üçün qrantlar təklif edir. Misal üçün, 2010-2015-ci illərdə qrant müsabiqələri üçün 37.75 milyon manat vəasit ayrılıb.

Biznesin və innovasiyanın erkən maliyyələşdirilməsi ölkədə faktiki olaraq mövcud deyil. Erkən maliyyələşdirmə yüksək risk ehtimalı olan bir prosesdir və adətən banklar bunda iştirak etməkdən çəkinirlər. Belə riskli fəaliyyətlərlə məşğul olan maliyyə institutlarının inkişafı üçün vaxt lazımdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda R&D fəaliyyətlərini yerinə yetirən 135 təşkilat var və onların içində ən vacibi AMEA-dır. Akademiya 40 tədqiqat institutundan və 6 bölməyə bölünmüş təşkilatlardan ibarətdir. Digər müəssisələr tətbiqi, sahəvi xarakter daşıdığı halda Akademiya əsas və fundamental tədqiqatlara yönəlib. Ölkədə R&D fəaliyyətləri ilə məşğul olan minlərlə elmi işçi var ki, onların yarıdan çoxu Akademiyanın üzvləridir.

Ölkədə elmi fəaliyyətlə məşğul olan bu qədər təşkilat olmasına baxmayaraq, həhəlik onların nəticələri o qədər də təsir yaratmamışdır. Azərbaycan müəlliflərinin beynəlxalq nəşriyyatda elmi məqalələrinin, o cümlədən patent üzrə müraciətlərinin sayı aşağıdır. Belə ki, 2016-cı ildə Azərbaycan üzrə yalnız 163 patent müraciəti edilmişdir, halbuki bu rəqəm Belarusiyada 521, Qazaxıstanda 1224, Avstriyada 2315, Ukraynada isə 4094 olmuşdur. Ümumilikdə əqli mülkiyyət məsələlərinin anlayış səviyyəsi tədqiqatçılar və texnologiya sahibkarları arasında qeyri-adekvat görünür.

Sənaye ilə elm arasında əlaqələr də zəifdir, hətta demək olar ki yox səviyyəsindədir. Sənaye-elm arasındakı əlaqəyə mane olan əsas amil əsasən neft və qaz sektorunun üstünlük təşkil etdiyi iqtisadiyyat strukturu və müasir yüksək texnologiyalı istehlak sənayelərinin azlığıdır. Son illərdə hökumət İKT sektorunun inkişafına diqqəti yönəldib və bu sahədə gələcəkdə müsbət nəticələrin əldə olunacağı gözlənilir.

Nəticə

Azərbaycan Respublikasına milli innovasiya sistemlərinin formalaşdırılmasını təkmilləşdirmək və ölkədə innovativ artıma nail olmaq məqsədilə bu istiqamətlərin həyata keçirilməsi tövsiyə olunur: ümumi milli elm və texnologiya strategiyasını işləyib hazırlamaq; fundamental elmlərin və R&D inkişafını dəstəkləmək və bu sahələrə daimi investisiya axınını təmin etmək; əsas maraqlı tərəflərlə məsləhətləşmələr əsasında institusional quruculuğun strateji proqramını inkişaf etdirmək; milli innovasiya sistemi daxilində maraqlı tərəflər arasında əməkdaşlığı artırmaq; elmi-texniki potensialın qlobal iqtisadiyyata və beynəlxalq elmi-texniki arenaya inteqrasiyasını təmin etmək; milli innovasiya sistemi üçün proqram hazırlamaq; innovasiya vasitəçilərinin ixtiraçılıq qabiliyyətinin yaradılmasını təmin etmək; iqtisadi şaxələnmə və müasirləşmə məqsədilə milli

innovasiya strategiyasını inkişaf etdirmək; innovasiya infrastrukturunun subyektləri üçün ümumi qanunvericilik hazırlamaq; innovasiya infrastrukrunun vahid dövlət reyestrini qurmaq və tətbiq etmək; innovativ infrastruktur müəssisələri üçün ümumi dövlət dəstəyini və vergi güzəştlərini təmin etmək; innovasiya sahibkarlığını həvəsləndirmək üçün xüsusi vergi güzəştlərini tətbiq etmək. Milli innovasiya strategiyaları bütün bu məqsədlərə çatmaq üçün yol göstərir. Qeyd olunanların tam şəkildə tətbiq olunması sayəsində gələcəkdə ölkənin innovasiya fəaliyyətlərində yaranmış boşluqların aradan qaldırılacağı gözlənilir.

ƏDƏBİYYAT

1. R.P. Maradana, R.P. Pradhan, S. Dash, K. Gaurav, M. Jayakumar, and D. Chatterjee, "Does innovation promote economic growth? Evidence from European countries,"// Journal of Innovation and Entrepreneurship.- 6 (1), 1, 2017.
2. UNDP, "Development Concept "Azerbaijan – 2020: The Vision of the Future." https://www.adb.org/sites/default/files/linked-documents/cps-aze-2014-2018-sd-06.pdf
3. The State Statistical Committee of the Republic of Azerbaijan, "Education, science and culture in Azerbaijan," 2019. https://www.stat.gov.az/source/education/?lang=en
4. K. Koyama, "Oil /Gas Development in Russia, Kazakhstan and Azerbaijan and the Impacts on the International Market".- 2003.
5. Global Innovation Index, https://www.globalinnovationindex.org/ userfiles/ file/ reportpdf/GII-2018/Front-and-back-covers.pdf
6. Michael L. Ross. "The Oil Curse: How Petroleum Wealth Shapes the Development of Nation".-Princeton University Press, September 8, 2013 (page -190)
7. http://science.gov.az/uploads/PDF/Elm_haqqinda_Azerbaycan_Respublikasinin_Qanunu.pdf
8. https://www.mincom.gov.az/az/view/pages/2/
9. https://science.gov.az/az/news/open/4508
10. https://www.oecd.org/science/inno/2101733.pdf

СОВРЕМЕННОЕ СОСТОЯНИЕ ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ В АЗЕРБАЙДЖАНЕ И ЗНАЧЕНИЕ НАЦИОНАЛЬНЫХ ИННОВАЦИОННЫХ СИСТЕМ

Расул Балаев[1], Тамелла Исрафилова[2]
[1,2]Азербайджанский Государственный Экономический Университет,
[1,2]Международный Магистерский и Докторский Центр
[1]Профессор, Доктор экономических наук, r.balayev@gmail.com
[2]Магистрант, tamellaisrafilova10@gmail.com

РЕЗЮМЕ

В современном деловом мире существует острая конкуренция между предприятиями, с одной стороны, на местных рынках, а с другой стороны, на международных рынках. В этой

жесткой конкурентной среде для предприятий важно оставаться на шаг впереди своих конкурентов, выделяться и использовать новые способы и методы для обеспечения эффективности и роста и даже оставаться на плаву. Эта ситуация требует применения инноваций для предприятий. Инновация означает создание различных, новых идей и их реализацию. Эти идеи можно использовать для решения ранее нерешенных проблем или удовлетворения ранее неудовлетворенных потребностей. Или улучшение существующего продукта или услуги, чтобы сделать его лучше, полезнее и удобнее в использовании, также считается инновацией. Понятно, что инновации на предприятиях — это не только производство новых продуктов и услуг, но и изменения и инновации в существующих продуктах или в любом процессе внутри предприятия.

Поскольку спрос на продукцию или услуги предприятия увеличивается на рынке за счет применения инноваций, это приводит к увеличению его экономического дохода.

История показывает, что научно-технические инновации являются главным показателем модернизации и одним из важнейших факторов развития общества. Благодаря этим инновациям стал возможен скачок от сельскохозяйственных полей к промышленности и информационному обществу. Достижения, достигнутые благодаря этим инновациям, дали толчок к улучшению жизни людей и созданию устойчивой экологической среды.

Инновации ведут к развитию экономики и увеличению доходов. Мы видим, что страны, использующие эффективные инновационные технологии в промышленных областях по всему миру, более успешны и имеют более высокие экономические доходы, чем страны с традиционной промышленной структурой. С внедрением инноваций в промышленности используются методы и технологии, обеспечивающие выпуск продукции по более низкой цене и более высокого качества, что повышает экономическую эффективность предприятий. Инновации также позволяют предприятиям выходить на новые рынки и привлекать новых клиентов, что увеличивает доход компании за счет продажи большего количества продукции.

Есть много способов добиться инноваций. В частности, это может быть достигнуто за счет исследований и разработок, а также применения новых технологий. Также можно внедрять инновации, используя методы, применяемые в других странах.

В целом для обеспечения инновационной деятельности в каждой стране созданы национальные инновационные системы (НИС). В НИС входят сферы, где будет осуществляться инновационная деятельность – финансовая система, система образования школ и вузов, сельское хозяйство, частный сектор, система здравоохранения и др. комбинирует. НИС охватывает все сферы, компании, учреждения, где будет осуществляться инновационная деятельность. При анализе инновационного процесса в рамках НИС анализ взаимосвязей между элементами внутри системы так же важен, как и изучение институциональной структуры, окружающей систему. Таким образом, отношения между всеми сферами, составляющими систему, можно рассматривать как важнейший фактор, придающий динамизм инновационному процессу. Если отношения между предприятиями и органами, охватываемыми системой, будут хорошо обеспечены, обмен информацией и опытом между ними увеличится, и это создаст для них основу для создания новых инновационных решений путем применения новых знаний и полученного опыта.

Примеры основных видов инновационной деятельности, включенных в НИС, включают: Осуществление научно-исследовательских и опытно-конструкторских работ, обеспечивающих получение новых знаний в области техники, медицины и естествознания;

создание новых товарных рынков; создание предприятий, необходимых для развития новых направлений инноваций, или изменение существующих предприятий для достижения этой цели; обеспечить интерактивное обучение и обмен информацией между предприятиями, осуществляющими инновационную деятельность; действия, которые действуют как инкубаторы для новых инновационных инициатив (например, закупка оборудования, административная поддержка); финансирование деятельности, обеспечивающей коммерциализацию инновационных процессов и данных и т. д.
В Азербайджане предпринимается множество мер для решения основных вопросов, связанных с применением НИС, для обеспечения инновационной деятельности предприятий. Важнейшие из них – подготовка и реализация стратегических дорожных карт по инновациям, создание парков высоких технологий, применение электронных решений, интегрированных с ИКТ-инфраструктурой образования, здравоохранения, торговли, сельского хозяйства и других сфер. Несмотря на то, что за последнее десятилетие в Азербайджане было предпринято много мер в области инноваций, в этой области все еще есть некоторые пробелы.
Ключевые слова: инновации, предприятия, экономический рост, национальные инновационные системы.

Publication history

Article received: 09.05.2023
Article accepted: 23.05.2023
Article published online: 05.06.2023
DOI suffix: 10.36962/PAHTEI32092023-109

ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL
E-ISSN: 2674-5224
VOLUME 32 ISSUE 09 2023
122-130

EXTRACTIVE-SPECTROPHOTOMETRIC DETERMINATION OF COBALT IN PLANTS AND WATER

Konul Aliyeva
Azerbaijan State Pedagogical University, Department of Analytical and organic chemistry
Doctoral student, teacher, http://orcid.org/0009-0006-6536-443X, muradnihadk@mail.ru

ABSTRACT

We have studied the possibility of using 5-(4-hydroxybenzylidene)-2,4-thiazolidinedione (L) for photometric determination of cobalt (II).
Cobalt(II) forms a colored complex with 5-(4-hydroxybenzylidene)-2,4-thiazolidinedione (L), which dissolves well in non-polar organic solvents. Dichloroethane, chloroform and carbon tetrachloride were the best extractants. With a single extraction with chloroform, 97.6% of cobalt is extracted in the form of a complex. The complex is extracted in chloroform in the range of pH = 4.2-5.5.
The optimal condition for the formation and extraction of the complex is 0.8×10-3 mol/l concentration L. The complex of cobalt with L is stable in aqueous and organic solvents, does not decompose within two days, and after extraction - more than a month. The maximum optical density is reached within 5 minutes. The results of studying the Vv/Vo ratio for the extraction of Co(II) in the form of Co-L showed that the optimal Vv/Vo is 5/5-80/5. The maximum analytical signal during complex imaging of cobalt with L is observed at 528 nm. L absorbs maximally at 256 nm. The bathochromic shift is 276 nm. The molar absorption coefficient is 3.22×10^4.
The stoichiometry of the investigated complexes was established by the methods of equilibrium shift, relative yield of Starik Barbanel and straight line. All methods showed that the ratio of components in the complex is Co: L=1: 2. It was established by the Nazarenko method that the complex-forming form of iron is Co^{2+}. At the same time, the number of hydrogen atoms displaced by it from one molecule L turned out to be equal to 1. The calculations showed that the complex of different ligands does not polymerize in the organic phase and is in monomeric form (γ=1.05).
It is established that the colored complexes with L also form ions Fe(III), V(IV), Cu(II), Ni(II), Mo(VI), Pt(II), Mn(II), Cd(II), Zn(II), Pd(II) and . The selectivity of the determination increases significantly in the presence of masking reagents or when the pH of the environment changes. Ti(IV), V(IV), Nb(V), Ta(V), Mo(VI), Fe(III) and Ni(II) do not interfere with the determination of 0.01M solution of EDTA. Large amounts of fluoride-, oxalate-, thiosulfate-, bromide-, chloride-, tartrate-, sulfate-, acetate- and citrate ions do not interfere with determination. The extract of the complex obeys the basic law of light absorption at a concentration of 0.25-16 µg/ml. Based on the results of spectrophotometric research of cobalt(II) with L, methods for determining cobalt in plants have been developed. in wastewater and bottom sediments.
Keywords: cobalt, 5-(4-hydroxybenzylidene)-2,4-thiazolidinedione, extraction-photometric method

E-ISSN: 2674-5224
VOLUME 32 ISSUE 09 2023
ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL

BİTKİDƏ VƏ SUDA KOBALTIN EKSTRAKSİYALI-SPEKTROFOTOMETRİK TƏYİNİ

Könül Əliyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Analitik və üzvi kimya kafedrası, doktorant, Müəllim, http://orcid.org/0009-0006-6536-443X, muradnihadk@mail.ru

XÜLASƏ

Kobaltın (II) ekstraksiyalı-spektrofotometrik təyini üçün 5-(4-hidroksibenziliden)-2,4-tiazolidindionun (L) istifadəsinin mümkünlüyü tədqiq edilmişdir. Ən yaxşı ekstragent kimi dixloretan, xloroform və karbon 4-xlorid seçilmişdir. Xloroform ilə birdəfəlik ekstraksiya ilə kobaltın 97.6%-i kompleks birləşmə şəklində ekstraksiya olunur. Kobalt (II) kompleksi pH 4.2-5.5 intervalında xloroformla ekstraksiya olunur. Co(II) - L kompleksi əmələ gələn zaman maksimal analitik siqnal 528 nm-də müşahidə olunur. Molyar işıq udma əmsalı 3.22×10^4 təşkil edir. Kompleksdəki komponentlərin nisbəti Co:L=1:2-dir. Kobalt kompleksinin ekstraktı 0.25-16 mkq / ml qatılıq intervalında işıqudmanın əsas qanununa tabe olur. Kobaltın (II) L ilə spektrofotometrik tədqiqinin nəticələrinə əsasən müxtəlif obyektlərdə kobaltın təyini üsulları işlənib hazırlanmışdır.
Açar sözlər: kobalt, 5-(4-hidroksibenziliden)-2,4-tiazolidindion, ekstraksiya-fotometrik üsul

Giriş

Kobalt (II) bioloji aktiv metal olub, orqanizmdə baş verən bioloji proseslərdə mühüm rol oynayır. Kobalt birləşmələrinin orqanizmə həddindən artıq “texnogen” qəbulu maddələr mübadiləsinə toksik təsir göstərir. Artıq miqdar kobalt duzları hüceyrəyə kanserogen təsir göstərərək morfoloji dəyişikliklərə səbəb olur. Orqanizmdə kobaltın olmaması akobaltoza səbəb olur [1].

Məqsəd

Problemin aktuallığı və əlaqəli tədqiqatlar. Müasir dövürdə ətraf mühitə texnogen çirkləndiricilərin və zəhərli maddələrin miqrasiyasının daimi monitorinqi aktual məsələdir.
Kobaltın fotometrik təyini üçün tərkibində o-nitrozofenol və ya oksim qrupu olan reagentlər kifayət qədər seçicidir [2, 3]. Ən çox istifadə edilən üzvi reagentlərdən - nitrozonaftolların vəpiridin azo birləşmələrin törəmələrindən olan onlardan 4-(2-piridilazo)-rezorsindir [4] .
Əczaçılıq nümunələrində Co(II)-nin N-(O-hidroksibenziliden)piridin-2-aminlə təyini üçün spektrofotometrik üsul işlənib hazırlanmışdır [5]. Müxtəlif su nümunələrində 4-(2-piridilazo)rezorsin ilə kobaltı (II) fotometrik təyin etmək üçün optimal eksperimental şərait tapılmışdır [6].
Kobaltın 2-hidroksitiofenol törəmələri və hidrofob aminlərlə müxtəlifliqandlı kompleks (MLK) birləşmələri tədqiq edilərək müxtəlif təbii və sənaye obyektlərində bu elementin təyini üçün ekstraksiya-fotometrik üsullar təklif edilmişdir [7-15].
Müxtəlif təbii və sənaye obyektlərində kobaltın 2,4-triazol [14] və tetrazolium duzları və 4-(2-piridilazo) rezorsin və 1,4-difenil-3-(fenilamino)-1H-1 ilə MLK-ləri ekstraksiyalı-fotometrik təyini üçün yeni metodikalar işlənib hazırlanmışdır [10].
Hazırkı işdə biz kobaltın (II) müxtəlif obyektlərdə fotometrik təyini üçün 5-(4-hidroksibenziliden)-2,4-tiazolidindionun (L) istifadə imkanları öyrənilib.

Təcrübi hissə

Reagentlər və məhlullar. İlkin Co(II) məhlulu (1 mq/ml) analitik tərəzidə dəqiq çəkilmiş $CoSO_4 \times 7H_2O$ duzunu tərkibində 2 ml qatı H_2SO_4 olan suda həll edilməsi yolu ilə hazırlanmış və 1 litrə qədər disstillə suyu ilə durulaşdırılmışdır [6].

İşdə 0,01 M L xloroformda məhlulundan istifadə edilmişdir. Ekstragent kimi təmizlənmiş xloroformdan istifadə edilmişdir.

Məhlulların ion qüvvəsi (μ=0,1) hesablanmış miqdarda KNO_3 daxil etməklə sabit saxlanılmışdır. Məhlulda lazımi turşuluğu yaratmaq üçün asetat bufer məhlulundan istifadə edilmişdir.

Cihazlar. Üzvi fazanın optik sıxlığı KFK-2-də ölçülmüşdür. UB və görünən sahələrdə spektrofotometrik ölçmələr SF-26 spektrofotometrində aparılmışdır. Məhlulların pH-nın qiymətinə şüşə elektrodlu I-130 ionomerindən istifadə etməklə nəzarət edilmişdir. İQ spektrlər Specord-M 80 spektrofotometrində çıxarılmışdır.


Dərəcəli qrafiklərinin qurulması. Həcmi 25 ml olan ölçü kolbalarına 10 mkq intervalla 10-80 mkq kobalt, 2 ml 0,01 M L məhlulu daxil edilir, üzvi fazanın həcmi xloroform ilə 5 ml-ə, ümumi həcm isə distillə suyu ilə 25 ml-ə çatırılmışdır. Optiki sıxlıq KFK-2 fotokolorimetrində ölçülmüş və alınan məlumatlar əsasında dərəcəli qrafik qurulmuşdur.

Nəticələr və onun müzakirəsi

Ekstragentin seçilməsi. 5-(4-hidroksibenziliden)-2,4-tiazolidindion (L) kobalt(II) ilə qeyri-polar üzvi həlledicilərdə yaxşı həll olan rəngli kompleks birləşmə əmələ gətirir. Ən yaxşı ekstragent dixloroetan, xloroform və karbon tetraxlorid olmuşdur. Xloroform ilə kobaltın kompleks birləşmə şəklində birdəfəlik ekstraksiyası 97.6% olmuşdur.

Kompleks əmələgəlməyə pH-ın təsiri. pH 4.2-5.5-də kompleks xloroformla ekstraksiya olunur. Su fazanın pH-nın azalması ilə Co(II)-nin kompleks birləşmə şəkilində ekstraksiyası tədricən azalır, bu, L ionlaşmış formasının qatılığının azalması ilə əlaqədardır. pH > 9.5-də kobaltın kompleks əmələ gətirən ion formasının hidrolizə uğraması ilə əlaqədardır.


Reagentlərin qatılığının təsiri. Kompleksin əmələgəlməsi və ekstraksiya olunması üçün L-in optimal qatılığı 0.8×10^{-3} mol/l-dir. Ber qanununa tabe olma intervalı 0.25- 16 mkq/ml təşkil edir.



Şəkil 1. Kompleksin optik sıxlığının su fazanın pH-dan asılılığı. $C_{Co(II)}=3.38\times10^{-5}$ M; $C_L = 8.0\times10^{-4}$M; KFK-2, λ=490 nm, l = 0.5 sm

Kompleks əmələgəlməyə vaxtın və fazaların həcminin nisbətinin təsiri. Kobaltın L ilə kompleksinin optiki sıxlığı sulu və üzvi həlledicilərdə sabitdir və iki gün ərzində, ekstraksiyadan sonra isə bir aydan çox parçalanmır. Maksimum optik sıxlıq 5 dəqiqə ərzində yaranır. Co (II) ionunun Co-L kompleks şəklində ekstraksiyası üçün V_{su} / $V_{üzvi}$ nisbətinin öyrənilməsinin nəticələri göstərdi ki, optimal V_{su} / $V_{üzvi}$ 5/5-80/5 təşkil edir.

Kompleksin və reagentin işıq udma spektrləri. L ilə kobaltın kompleksi əmələ gələn zaman maksimum analitik siqnal 528 nm-də müşahidə olunur. L maksimum 256 nm-də işıq udur. Batoxrom yerdəyişmə 276 nm-dir. Molar işıqudma əmsalı 3.22×10^4 təşkil edir.




Şəkil 2. Kompleksin işıq udma spektrləri, 1 – L; 2 – Co(II)-L, $C_{Co(II)}=3.38\times10^{-5}$ M; C = 8.0×10^{-4} M; SF-26, *l* = 1 sm

Tərkibin təyini. Tədqiq olunan kompleksin tərkibində komponentlərin molyar nisbəti tarazlığın yerdəyişməsi (şəkil 3 (*a*)), Starik Barbanelin nisbi çıxım və düz xətt (şəkil 3 (*b*)) üsulları ilə müəyyən edilmişdir [3]. Bütün üsullar kompleksdə komponentlərin molyar nisbətinin Co:L=1:2 olduğunu göstərir.

Sintez edilmiş Co(II) – L kompleksi kimyəvi analiz və İQ-spektroskopiyası ilə tədqiq edilmişdir. Kompleksin İQ spektri reagentinki ilə müqayisə edilmişdir. 1593-1448 sm^{-1} sahəsində müşahidə olunan zolaq aromatik halqaya (C=C) uyğun gəlir. Kompleksin İQ spektrində 3040-3020 sm^{-1} sahəsində ν_{CH} ilə əlaqəli aromatik nüvədə güclü udma zolaqları var. 820-710 sm^{-1}-də udma zolaqları C-H rabitəsinin deformasiyasına, 1610-1450 sm^{-1}-də udma zolaqları fenil həlqəsinin valent titrəyişinə, 1380 sm^{-1}, 685 sm^{-1}, 1291 sm^{-1} isə müvafiq olaraq ν_{CN}, ν_{CS} və ν_{CO} aid edilə bilər., , aid edilə bilər. 440 sm^{-1} və 573 sm^{-1}-də udma zolaqları müvafiq olaraq ν(Co-O) və ν(Co-N) uyğun gəlir [1-4].

Kimyəvi analizin nəticələri cədvəl 1-də.

ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL
E-ISSN: 2674-5224
VOLUME 32 ISSUE 09 2023




Şəkil 3. Kompleksin tərkibində komponentlərin molyar nisbətinin tarazlığın yerdəyişməsi (*a*) və düz xətt (*b*) üsulları ilə müəyyən edilməsi. $C_{Co(II)}$=3,38×10^{-5}M; SF-26, l=1sm.

Cədvəl 1. L və Co-L üçün kimyəvi analizin nəticələri.

Birləşmə	%	C	H	N	S	Co
L	Tapılmışdır	55.48	3.58	7.27	16.51	-
	Hesablanmışdır	54.29	3.19	7.33	16.32	-
Co- L	Tapılmışdır	48.53	3.12	6.27	14.36	13.21
	Hesablanmışdır	48.53	3.12	6.27	14.36	13.21

Nazarenko üsulu ilə olduğu kobaltın kompleks əmələgətirən ion forması formasının Co^{2+} müəyyən edilmişdir [3]. Bir L molekulundan sıxışdırılıb çıxarılan hidrogen atomlarının sayı 1-ə bərabərdir. Aparılan hesablamalar göstərmişdir ki, üzvi fazada kompleksi birləşmə polimerləşməyib, monomer formadadır (γ =1.05) [3].
Kompleksin tərkibində komponentlərin molyar nisbətinə, reagent molekulundan sıxışdırılan protonların sayına və kobaltın ion formasına əsaslanaraq, Co-L kompleksinin quruluşunu aşağıdakı kimi təsəvvür etmək olar:



Kənar ionların təsiri. Müəyyən edilmişdir ki, Fe(III), V(IV), Cu(II), Ni(II), Mo(VI), Pt(II), Mn(II), Cd(II), Zn(II) və Pd(II) ionları da L ilə rəngli komplekslər əmələ gətirir. Təyinatın seçiciliyi pərdələyici reagentlərin iştirakı və ya mühitin pH-ı dəyişdikdə əhəmiyyətli dərəcədə artır. 0,01 M EDTA məhlulundan istifadə edərkən, Ti(IV), V(IV), Nb(V), Ta(V), Mo(VI), Fe(III) və Ni(II) ionları kobaltı Co – L kompleksi şəkilində təyin etməyə mane olmur. Böyük miqdarda ftor, oksalat, bromid, xlorid, tartrat, sulfat, asetat və sitrat ionları kobaltın təyininə mane olmur.

Tiosiyanat, tiokarbamid və tiosulfat ionları kiçik miqdarda olduqda belə kobaltın təyininə mane olur.

Cədvəl 2. Kobaltın(II) L ilə təyininə kənar ionların maneçilik təsiri (30 mkq Co(II) götürülmüşdür, *n*=5, P=0.95).

İon	İonun mol artıqlığı	Pərdələyici reagent	Tapılmışdır, mkq (S_r)
Ni(II)	50	EDTA	29.8 (0.04)
Fe(II)	50		29.8 (0.03)
Cd(II)	200		30.5 (0.04)
Al(III)	180		29.6 (0.05)
Fe(III)	50	Askorbin turşusu	30.2 (0.05)
Zr(IV)	50		29.8 (0.03)
Cu(II)	25	Tiomoçevina	29.8 (0.04)
Hg(II)	40		30.4 (0.05)
Ti(IV)	30	Askorbin turşusu	29.6 (0.05)
V(IV)	20		30.5 (0.05)
Mo(VI)	10	EDTA	29.8 (0.05)
W(VI)			29.8 (0.03)
Cr(III)	120		30.2 (0.03)
Nb(V)	50		29.7 (0.03)
Ta(V)	50	Askorbin turşusu	30.2 (0.03)
Salisil turşusu	25		29.8 (0.05)
Sulfosalisil turşusu	30		30.5 (0.04)
Askorbin turşusu	120		29.6 (0.03)
Çaxır turşusu	120		30.2 (0.03)

Cədvəl 3-də kobaltın (II) təyini üçün hazırlanmış fotometrik üsulun analitik xarakteristikalarını artıq məlum olan bəzi [3, 7, 9] üsullarla müqayisə etməyə imkan verən məlumatlar verilmişdir. Cədvəldən göründüyü kimi, yeni işlənilmiş üsul kifayət qədər seçici, həssasdır və kobaltın hətta kiçik miqdarını təyin etməyə və təkrarlanan nəticələr əldə etməyə imkan verir.

Cədvəl 3. Kobaltın təyini üsullarının müqayisəli xarakteristikası

Reagent	pH (Həlledici)	λ, nm	$\varepsilon \times 10^{-4}$	Ber qanununa tabeolma intervalı, mkq/ml
1-nitrozonaftol [3]	pH$\geq$3 ($CHCl_3$)	415	2.9	
Nitrozo R-duzu [3]	Zəif turş	500	1.5	
Brompirohallolqırmızı [3]	2.0 (C_6H_6)	575	1.08	0.25-110
2-hidroksi-5-xlortiofenol+anilin [3,7]	4.7 ($CHCl_3$)	515	1.4	0.2-20
L	4.2–5.5 ($CHCl_3$)	528	3.22	0.25-16

Analitik tətbiq

Kobaltın (II) L ilə spektrofotometrik tədqiqinin nəticələrinə əsasən bitkilərdə, tullantı və qurun sularında kobaltın təyini üsulları işlənib hazırlanmışdır.

Bitkilərdə kobaltın təyini. Bitkilərin nümunə çəkisi anilizə uyğun üsulla [3] hazırlanmışdır. Alınan rəngli məhlulun optik sıxlığı 0.5 sm qalınlığı olan küvetdə KFK-2-də ölçülmüşdür. Təyinatın nəticələri cədvəl 4-də təqdim olunur.

Cədvəl 4. Bitkilərdə kobaltın (II) təyininin nəticələri (n = 6, P = 0.95)

Nümunə	Metodika	Nümunədə tapılmışdır, mq/kq	$S\times10^3$	S_r	$\bar{X} \pm \frac{t_p \cdot S}{\sqrt{n}}$
Lobya	1-nitrozonaftol-2	0.18	5.0	0.024	0.18±0.0052
	8-mercaptoxinolin	0.20	5.0	0.024	0.20±0.0053
	2-hidroksi-5xlortiofenol+anilin	0.19	4.4	0.023	0.19 ±0.0050
	L	0.18	3.4	0.019	0.18±0.0039
noxud	1-nitrozonaftol-2	0.11	3.8	0.035	0.11±0.0040
	8-mercaptoxinolin	0.12	4.6	0.038	0.12±0.0048
	2-hidroksi-5xlortiofenol+anilin	0.21	5.0	0.024	0.21±0.0054
	L	0.13	5.6	0.049	0.13±0.0058

Tullantı və qrunt sularında kobaltın(II) təyini. Analiz üçün 1 litr tullantı suyu götürülmüş (qrunt suyu olduqda, 250 ml), çöküntü alınana qədər buxarlandırılmışdır. Çöküntü 5 ml qatı HNO_3 həll edilərək, 50 ml-lik kolbaya keçirilmiş və cizgiyə qədər qədər distillə suyu ilə durulaşdırılmışdır. Nümunə götürələrək Co(II) L ilə təyin edilmişdir.Alınan rəngli məhlulun optik sıxlığı 0.5 sm qalınlığı olan küvetdə 490 nm-də ölçülmüşdür. Dərəcəli əyrinin qrafikindən Co(II)-nin miqdarı müəyyən edilmişdir. Təyinatın nəticələri cədvəl 5-də verilmişdir.

Cədvəl 5. Tullantı və qurunt sularında kobaltın (II) təyininin nəticələri (n = 6, P = 0.95).

Nümunə		Əlavə edilmişdir mq/l	Tapılmışdır mq/l (əlavə olunanla)	$\bar{X}$	$\bar{X} \pm \frac{t_p \cdot S}{\sqrt{n}}$	S_r
Tullantı suyu	Nümunə 1	2.0	2.48	0.48	0.48±0.07	0.073
	Nümunə 2	5.0	6.15	1.15	1.15±0.12	0.082
Qrunt suyu	Nümunə 1	5.0	6.26	1.26	1.26±0.05	0.064
	Nümunə 2	5.0	6.95	1.95	1.95±0.07	0.069

Nəticə

Hazırkı işdə kobaltın (II) müxtəlif obyektlərdə fotometrik təyini üçün 5-(4-hidroksibenziliden)-2,4-tiazolidindionun (L) istifadə imkanları öyrənilib.

Xloroform ilə kobaltın kompleks birləşmə şəklində birdəfəlik ekstraksiyası 97.6% olmuşdur.

pH 4.2-5.5-də kompleks xloroformla ekstraksiya olunur. Kompleksin əmələgəlməsi və ekstraksiya olunması üçün L-in optimal qatılığı 0.8 × 10^{-3} mol/l-dir. Ber qanununa tabe olma intervalı 0.25- 16 mkq/ml təşkil edir.

Maksimum optik sıxlıq 5 dəqiqə ərzində yaranır. Co (II) ionunun Co-L kompleks şəklində ekstraksiyası üçün V_{su} / $V_{üzvi}$ nisbətinin öyrənilməsinin nəticələri göstərdi ki, optimal V_{su} / $V_{üzvi}$ 5/5-80/5 təşkil edir.

L ilə kobaltın kompleksi əmələ gələn zaman maksimum analitik siqnal 528 nm-də müşahidə olunur. Molar işıqudma əmsalı 3.22×10^4 təşkil edir.

Kompleksdə komponentlərin molyar nisbətinin Co:L=1:2 olduğunu göstərir.

Kobaltın kompleks əmələgətirən ion forması formasının Co^{2+} müəyyən edilmişdir.

Kobaltın (II) L ilə spektrofotometrik tədqiqinin nəticələrinə əsasən bitkilərdə, tullantı və qurun sularında kobaltın təyini üsulları işlənib hazırlanmışdır.

ƏDƏBIYYAT

1. Racheva P. V., Gavazov K. B., Lekova V. D., Dimitrov A. N. Complex Formation in a Liquid-Liquid Extraction System Containing Cobalt(II), 4-(2-Pyridylazo)resorcinol and Nitron // Hindawi Publishing Corporation Journal of Materials. - 2013, Vol. 5, Article ID 897343, 7 pages.
2. Divarova V.V., Gavazov K.B., Lekova V.D., Dimitrov A. N. Spectrophotometric investigations on liquid-liquid extraction systems containing cobalt, 4-(2-pyridylazo)-resorcinol and tetrazolium salts // Chemija. -2013, vol. 24, no. 2, pp. 81-87.
3. Zalov A.Z. Application of 2-hydroxythiophenols in analytical chemistry. -Baku, 2021, 286 p.
4. Zalov A. Z., Amanullayeva G. I. Spectrophotometric determination of cobalt (II) in a liquid1liquid extraction system containing 2- hydroxy-5-iodothiophenol and diphenylguanidine // Journal Of Applied Science. -2016, Vol. 2, № 7, pp.17-25.
5. Makhijani R. M., Barhate V. D. Development of extractive spectrophotometric determination of cobalt(II) with [N-(O-hydroxy benzylidene)pyridine-2-amine] // International Journal of Scientific and Research Publications. -2016, V. 6, № 4, pp. 108-111.
6. Divarova V. V., Racheva P. V., Lekova V. D., Gavazov K. B., Dimitrov A. N. Spectrophotometric determination of cobalt(II) in a liquid-liquid extraction system containing 4-(2-thiazolylazo)resorcinol and 2,3,5-triphenyl-2H-tetrazolium chloride // Journal of Chemical Technology and Metallurgy. -2013, vol. 48, no.6, pp. 623-630.
7. Aliyev S.G., Zalov A.Z., Suleymanova G. S., Ibrahimova Sh. A. Extraction-photometric determination of cobalt (II) with o-Hydroxythiophenol derivatives and hydrophobic amines // International Journal of Chemical Studies. -2017, V. 5, № 3, pp.382-386.
8. Zalov A. Z., Novruzova N. A., Mamedova R. K., Maharramov A. M., Ibrahimova Sh. A., Aliyev S. G. Extraction-spectrophotometric study on the complex formation in the cobalt (II) - 4-hydroxy-3-thiolbenzoic acid - diphenylguanidine system // International Journal of Innovative Science, Engineering & Technology. -2017, V. 4, № 6, pp. 231-242.
9. Maharramov A. M., Zalov A. Z., Ibrahimova Sh. A., Verdizadeh N. A., Isgenderova K. O. Extraction-spectrophotometric determination of cobalt (II) in a liquid-liquid extraction system containing 4-nitro-2-hydroxythiophenol and diphenylguanidine, determination of cobalt (II) in steel // International Journal of Chemistry Studies. -2017, V.1, № 1, pp.8-13.
10. Zalov A. Z., IbrahimovaSh.A. Hasanova N.S. Extraction-spectrophotometric study of ternary complexes of Cr (VI) and Co (II) using *o*-hydroxythiophenols and aminophenol // International Journal of Chemistry Studies. -2018, V. 2, № 3, pp. 17-24.
11. Aliyev S. G., Suleymanova E. I., Magarramova L. M., Zalov A. Z. Liquid-liquid extraction and spectrophotometric characterization of a new ternary ion-association complex of cobalt(II) // International Journal of Innovative Science, Engineering & Technology. -2018, V. 5, № 8, pp.52-62.

12. Maharramov A. M., Zalov A. Z., Ibrahimova Sh. A. Suleymanova G. S., Mamedova Sh. A. Extraction study on the colour reaction for cobalt (II) with the 2-hydroxy-5-nitrothiophenol -di-, triphenylamine - water - chloroform system // Journal of Applied Science. -2018, V.4, № 7, pp.21-33.
13. Zalov A.Z., Kuliev K.A., Babaeva G.V., Bakhsieva U. Sh., Astanova A.D. Extraction study on the colour reaction for cobalt (II) with the 2-hydroxy-5-nitrothiophenol -di-, triphenylamine - water - chloroform system. İnternational engineering science and technology. -2018, V.5, № 6, pp.9129-9136.
14. Zalov A.Z., Kuliev K.A., Shiralieva S.M. Mammadova Sh.A., Aliyeva K.R. Gahramanov S.N. Extraction- photometric determination of cobalt (II) with 5 - (4 - Hydroxybenzylidene) - 2, 4 - tiazolidindion in different objects. //Journal of Pharmacognosy and Phytochemistry. -2019, V.8, №1, pp.2612-2616.
15. Zalov A.Z., Ибрагимова Ш.А. Extraction-photometric determination of cobalt (II) by hydroxythiophenol and hydrophobic amines. //Izvestiya Saratovskogo Universitetata. Series Chemistry. Biology. Ecology. -2019, No. 4, pp. 1522-1531.

ЭКСТРАКЦИОННО-СПЕКТРОФОТОМЕТРИЧЕСКОЕ ОПРЕДЕЛЕНИЕ КОБАЛЬТА В РАСТЕНИЯХ И ВОДЕ

Кенул Алиева
Азербайджанский Государственный Педагогический Университет,
Кафедра Аналитической и Органической Химии, докторант, преподаватель,
http://orcid.org/0009-0006-6536-443X, muradnihadk@mail.ru

РЕЗЮМЕ
Изучена возможность применения 5-(4-гидроксибензилиден)-2,4-тиазолидиндиона (L) для фотометрического определения кобальта(II). Наилучшими экстрагентами оказались дихлорэтан, хлороформ и четыреххлористый углерод. При однократной экстракции хлороформом извлекается 97.6% кобальта в виде комплекса. Комплекс кобальта(II) экстрагируется в хлороформ в диапазоне pH = 4.2-5.5. Максимальный аналитический сигнал при комплексообразовании кобальта с L наблюдается при 528 нм. Молярный коэффициент поглощения равен 3.22×10^4. Соотношение компонентов в комплеке составляет Co:L=1:2. Экстракт комплекса кобальта подчиняется основному закону светопоглощения при концентрации 0.25-16 мкг/мл. На основании результатов спектрофотометрического исследования кобальта(II) с L разработаны методики определения кобальта в разных объектах.
Ключевые слова: кобальт, 5-(4-гидроксибензилиден)-2,4-тиазолидиндиона, экстракционно-фотометрический метод

Publication history

Article received: 10.05.2023
Article accepted: 24.05.2023
Article published online: 05.06.2023
DOI suffix: 10.36962/PAHTEI32092023-122

E-ISSN: 2674-5224
131-140 VOLUME 32 ISSUE 09 2023
ISSN: 1609-1620; E-ISSN: 2674-5224
PAHTEI
REFERRED & REVIEWED JOURNAL

DETERMİNATİON OF VOLTAGE İNCREASE DURİNG OPENİNG OF POWER TRANSMİSSİON LİNES OPERATİNG İN NORMAL MODE DURİNG SHORT CİRCUİT AND RECONNECTİON WİTH ARC

Nahid Mufidzade[1], Murad Huseynov[2]
[1,2] Azerbaijan State Oil and Industry University, [1,2] Department of Power Engineering,
[1] Docent, mufidzada@yahoo.fr
[2] Master student, murad.huseynov.1157@mail.ru

ABSTRACT

Nowadays, power generation, transmission and distribution sectors develop rapidly owing to increasing electric power demand of industrial plants and individual electricity use as a result of technological developments. The examination of power system is important in terms of providing operation efficiency and planning about system. Short circuit fault is the most significant fact because short circuit causes power cut, it damages electrical equipment and around the point where it occurs and it affects the consumers are away from short circuit by reducing voltage value in the transmission system. The majority of power system faults occur in transmission lines. The classification of these faults in power systems is an important issue.
Power line faults account for 85%-87% of total power system faults. Symmetrical and asymmetric short circuits occur when conductors of transmission lines touch each other or the ground as a result of various physical effects. In order to reduce the negative effects caused by a significantly high magnitude of short-circuit cases, it is necessary to quickly and accurately identify the type of fault in order to immediately turn off the fault zone in the power line. Short-circuits in the power system are both symmetrical and asymmetrical. Experiments show that the percentage of occurrence among the types of short circuit is as follows:
1. 15% for phase-to-phase short circuit
2. 70% for phase-earth short circuit
3. 10% for two-phase earth short circuit
4. 5% for three-phase symmetrical short circuit
A three-phase symmetrical short circuit is rare. This is usually caused by operational errors (for example, accidentally grounding live lines).
Current in an electrical circuit flows through the path of least resistance, and if an alternate path is created in a circuit where two points are connected with low resistance, current will flow between two points through the alternate path.
Shortly after a transient fault occurs in the electrical network, the network removes the transient fault with the help of automatic devices. Examples of such damage are wires touching each other and short circuits due to wind or other natural phenomena. The mentioned unstable damages are observed in the main electric transmission lines. Unsustainable injuries account for 80-90% of all injuries. The connection of the opened part of the network to the voltage is called automatic reconnection (ARC). Reconnection is performed at the expense of automatic devices. Successful reconnection indicates that the damage is permanent, failure is permanent.
Overloading is the most common abnormal mode. Thus, overloading of electrical equipment means that the current or power exceeds the nominal value. Often, when electrical equipment is

overloaded for a long time, relay protection and automation ensure that the equipment is disconnected from the circuit.
Frequency adjustment The frequency is very strictly controlled in the system and must be kept within the normal releasable range of 50 ±0.2 Hs according to international requirements.
When we say voltage trend, it is meant a long-term rise and fall of the voltage. This, in turn, has a negative effect on the operation of electrical equipment. Therefore, the voltage may vary by ±5-10% of the normal permissible value according to international requirements.
Short-circuiting of one phase to earth in neutral-insulated networks. since it is not, the network can continue to work in this state, but this is considered an abnormal mode of operation. Thus, extreme voltage exists in EVX and electrical equipment.
Fluctuations in the network usually occur during the switching process. This condition does not last very long and is usually a transient process. Note that in this case, relay protection and automation should not open any line or equipment by mistake.
Keywords: power, fault, short circuit, transmission line, transmission network, electricity, system.

NORMAL REJİMDƏ İŞLƏYƏN EVX-NİN QISA QAPANMA ZAMANI AÇILMASINDA VƏ ATQ İLƏ TƏKRAR QOŞULMASINDA YARANAN GƏRGİNLİK ARTIMLARININ TƏYİNİ

[1]**Nahid Müfidzadə[1], Murad Hüseynov**[2]
[1,2] Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, [1,2] "Elektroenergetika" kafedrası,
[1]Dosent, mufidzada@yahoo.fr
[2] Magistr tələbəsi, murad.huseynov.1157@mail.ru

XÜLASƏ

Elektrik enerjisinin istehsalı, ötürülməsi və paylanması sektoru texnoloji inkişaflar və sənaye obyektlərinin enerji tələbatı nəticəsində fərdi elektrik istifadəsinin artması səbəbindən sürətlə inkişaf edir. Enerji sistemlərinin yoxlanılması əməliyyat səmərəliliyinin təmin edilməsi və sistemlə bağlı planlaşdırmanın aparılması baxımından vacibdir. Qısaqapanma nasazlığı enerji sistemində fasilələrə səbəb olan, elektrik avadanlıqlarını və onun baş verdiyi nasazlıq nöqtəsinin ətrafını zədələyən, ötürücü şəbəkədə gərginliyi azaldan və nasazlıq yerindən uzaqda olan istehlakçılara təsir edən ən mühüm faktordur. Elektrik sistemindəki nasazlıqların əksəriyyəti elektrik verilişi xətlərində baş verir. Enerji sistemlərində bu nasazlıqların təsnifatı mühüm məsələdir.
Açar sözlər: Enerji, nasazlıq, qısaqapanma, veriliş xətti, ötürücü şəbəkəsi, elektrik, sistem

Giriş

